AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FƏLSƏFƏ VƏ SİYASİ-HÜQUQİ TƏDQİQATLAR İNSTİTUTU

«POLİTOLOGİYA» ŞÖBƏSİ

İBRAHİM MƏMMƏD OĞLU AĞAYEV

# MÜASİR ŞƏRAİTDƏ AZƏRBAYCANDA MİLLİ-ETNİK PROSESLƏR

*Monoqrafiya AMEA-nın Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunun Elmi Şurasının qərarı ilə çap olunur (protokol № 7 « 03 » iyul 2006-cı il).*

**Elmi redaktorlar:** tarix elmləri doktoru, professor
Qəmərşah CAVADOV

fəlsəfə elmləri doktoru, professor
Əlikram TAĞIYEV

**Rəyçilər:** fəlsəfə elmləri doktoru, professor
Vəli HƏBİBOĞLU

fəlsəfə elmləri doktoru, professor
Cahangir MƏMMƏDOV

İbrahim Ağayev.
**«Müasir şəraitdə Azərbaycanda milli-etnik proseslər»**,
Bakı, «MBM», 2006, 180 səh.

Monoqrafiya müasir Azərbaycan cəmiyyətində milli-etnik problemlərin tədqiqinə həsr olunmuşdur. Müəllif Azərbaycan reallıqlarından çıxış edərək milli-etnik prosesləri və onların tənzimlənməsini dövlətin milli siyasətinin prioritet məsələsi olduğunu araşdırmağı qarşısına məqsəd qoymuşdur.

Kitab elmi işçilər, tələbələr və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ISBN 9952-29-058-5

© İ.M.Ağayev

## MÜNDƏRİCAT

Giriş ........ 4

I Fəsil. Azərbaycanda etnosiyasi proseslər və onların səciyyəvi xüsusiyyətləri ........ 15
1.1. Etnosiyasi proseslərin mahiyyəti ........ 15
1.2. Azərbaycanda etnosiyasi proseslərin səciyyəvi cəhətləri ........ 41
1.3. Azərbaycanda milli azlıqların və azsaylı xalqların inkişaflarının sosial dinamikası və xarakterik xüsusiyyətləri ........ 65

II Fəsil. Milli-etnik problemlərin nizamlanmasının siyasi-hüquqi aspektləri ........ 90
2.1. Milli azlıqların hüquq və azadlıqlarının təmin olunması xüsusiyyətləri ........ 90
2.2. Milli-etnik proseslərdə münaqişəli vəziyyətlər və onların aradan qaldırılması yolları ........ 109
2.3. Milli dövlətçilik ideyası – milli maraqların təminatı kimi ........ 130

Nəticə ........ 161

Əlavələr ........ 166

Резюме ........ 170

Summary ........ 172

Kitaba verilən rəylər ........ 173

***Bu kitabı görkəmli alim, qayğıkeş insan, unudulmaz müəllimim, professor QƏMƏRŞAH CAVADOVUN əziz xatirəsinə ithaf edirəm***

## GİRİŞ

> *«Biz Azərbaycan deyəndə onun sərvətini, onun gözəl təbiətini nəzərdə tuturuq. Lakin bütün bunlarla yanaşı respublikanın ən başlıca sərvətlərindən biri, bəlkə də ən başlıca sərvəti qədimlərdən bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan, müxtəlif millətlərdən olan, müxtəlif dinlərə etiqad edən adamlardır. Ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər çox zəngin olar.»*
>
> ***Heydər Əliyev***

Təqdim etdiyimiz monoqrafiiyada milli-etnik proseslərin mahiyyəti, Azərbaycanda bu proseslərin xüsusiyyətləri və onların tənzimlənməsi istiqamətində aparılan siyasət, bu sahədəki problemlər elmi şəkildə təhlil olunur.

Müasir dövr iqtisadi ziddiyyətlərlə, sinfi və milli qarşıdurmalarla, siyasi-mənəvi problemlərin kəskinləşməsi ilə xarakterizə olunur. Müasir dövrün qlobal problemləri içərisində etnik proseslər xüsusilə seçilir. Çünki dövrün sosial-siyasi ziddiyyətlərinin ən ağır yükünü də məhz onun mərkəzində dayanan müxtəlif millətlər, xalqlar və etnoslar çəkməli olurlar.

Problemin aktuallığını doğuran başlıca səbəblərdən biri budur ki, keçmiş SSRİ-də və eləcə də Azərbaycan SSR-də etnik proseslərin öyrənilməsinə lazımi diqqət yetirilməmiş, bu proseslər elmin müstəqil bir problemi kimi deyil, əsasən sosial-





sinfi problemlərin tərkib hissəsi kimi nəzərdən keçirilmişdir. Bu da milli məsələlərin həlli sahəsində bir sıra nöqsanlara yol verilməsinə səbəb olmuşdur.

Tədqiqat işinin aktuallığı bir də ondan irəli gəlir ki, keçmiş SSRİ ərazisində və dünyanın bir sıra regionlarında etnik münaqişələrin kəskinləşdiyi, bu münaqişə zəminində milyonlarla insanın evsiz-eşiksiz qaldığı, məcburi köçkün və qaçqın vəziyyətinə düşdüyü, insanların milli əlamətə görə bir-birini öldürdüyü və bir-birinə düşmən kəsildiyi hazırkı şəraitdə millətlərarası münasibətlərin öyrənilməsinə maraq xeyli artmışdır. Təcrübə göstərir ki, etnosiyasi problemlərin dərindən elmi şəkildə öyrənilməməsi, onların psixoloji, sosioloji, politoloji cəhətdən qarşılıqlı əlaqələrinin aşkara çıxarılmaması millətlərarası münasibətlərin çox mürəkkəb daxili və xarici ziddiyyətlərinin hələ də dərindən açıqlanmamasına səbəb olmuşdur.

Deməli, bu problemlərin kompleks şəkildə öyrənilməsi, onların vaxtında həll edilməsi və düşünülmüş milli siyasətin həyata keçirilməsi nəticəsində milli ziddiyyətlər kəskin xarakter almaya bilər.

Dünyanın bir sıra regionlarında və eləcə də keçmiş SSRİ məkanında bu kimi ziddiyyətlərin özünü qabarıq şəkildə göstərməsi bir sıra obyektiv və subyektiv amillərlə bağlıdır. Fikrimizcə, cəmiyyətin demokratik ənənələrinin, siyasi mədəniyyətinin aşağı olması və vətəndaş cəmiyyəti təşkilatlarının zəif fəaliyyəti və digər amillər buraya daxildir.

Mövzunun aktuallığını şərtləndirən amillərdən biri də budur ki, millətlərarası münasibətləri, bu sahədə meydana çıxan problemləri öyrənmədən onların həll edilməsinə

məqsədyönlü təsir göstərmək qeyri-mümkündür. Bu cəhətdən cəmiyyətdə etnosiyasi proseslərin diqqətlə öyrənilməsi, demokratik inkişaf yolu tutmuş Azərbaycan Respublikasında bu sahədə mövcud vəziyyətin araşdırılması çox zəruridir. Tədqiqat işinin aktuallığı bir də onunla əlamətdardır ki, çoxmillətli respublika kimi Azərbaycanda millətlərarası münasibətlər sahəsində həyata keçirilən siyasətin diqqətlə öyrənilməsi, habelə ondan çıxarılan nəticələr ölkədə etnik proseslərin tənzimlənməsində faydalı ola bilər.

Azərbaycan qədim zamanlardan müxtəlif etnosların yaşadığı ərazilərdən sayılır. XIX və XX əsrlərdə də Azərbaycan özünün polietnik mənzərəsini qoruyub saxlamışdır. Elmi baxımdan öyrənilməsi, tədqiq edilməsi son dərəcə vacib olan Azərbaycanda milli-etnik proseslərin araşdırılmasına XIX əsrdə ilk təşəbbüslər olmuşdur. Həmin vaxtdan başlayaraq rus alimləri Azərbaycanda milli-etnik proseslərə aid xeyli tədqiqat aparmışlar. Bu dövrdə aparılan tədqiqatların böyük əksəriyyəti tarixi aspektdə olmuş, həmin vaxt çap olunmuş əsərlər təkcə öz dövrü üçün deyil, həm də bu gün Azərbaycanda etnosiyasi proseslərin öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanın etnik tərkibi haqqında bəzi məlumatlara M.H.Vəliyevin (Baharlının) "Azərbaycan" əsərində də rast gəlinir, lakin burada da həmçinin yalnız tarixi məlumatlar verilmişdir[1].

1923-cü ildə yaradılmış «Azərbaycanı Tədqiq və Tətəbbö cəmiyyəti»nin təşəbbüsü ilə Azərbaycanın ayrı-ayrı azsaylı

[1] Vəliyev (Baharlı) M.H. Azərbaycan. Bakı: Azərbaycan, 1993, 192 s.





etnosları tarixi-etnoqrafik baxımdan öyrənilmiş, xüsusilə XX əsrin 20-40-cı illərində bu sahədə xeyli işlər görülmüşdür. Belə ki, B.V.Miller, Q.F.Çursin, A.N.Qenko, N.Q.Volkova və başqalarının yazdıqları elmi əsərlər, məqalələr bu baxımdan öz elmi əhəmiyyətini bu gün də saxlamaqdadır. Milli-etnik proseslərin öyrənilməsində bu tədqiqatların özünəməxsus əhəmiyyətinin olmasına baxmayaraq, bu alimlər də həmçinin öz tədqiqatlarını tarixi aspektdə aparmışlar.[2]

Son 50 il ərzində Azərbaycanda yaşayan müxtəlif etnosların tarixi, dili, məişəti, təsərrüfat həyatı rus və Azərbaycan alimləri tərəfindən tədqiq olunmuşdur. Onlar öz tədqiqatlarında yeri gəldikcə milli-etnik proseslərə də toxunmuş, bu etnosların ictimai həyatdakı rollarını düzgün və obyektiv təsvir etmişlər. Belə ki, Y.D.Deşeriyev, Ş.M.Sədiyev, A.L.Qryunberq, Ə.Ə.İzmayılova, V.Z.Piriyev, Q.C.Cavadov, R.Ə.Hüseynov, N.A.İbrahimov və başqaları Azərbaycanda yaşayan müxtəlif etnoslar haqqında maraqlı tədqiqat əsərləri yazıb çap etdirmişlər.[3]

[2] Миллер Б.В. Таты, их расселение и говоры. Баку, Издание Общества Обследования и Изучения Азербайджана, 1929, 44с; Чурсин Г.Ф. Азербайджанские курды // Известия Кавказского историко-археологического института в Тифлисе. Т.III. Тифлис: 1925; Генко А.Н. Сообщение о результате поездки в Хиналуг // Бюллетень Кавказского историко-археологического института в Тифлисе. Тифлис: 1928 № 1-3, 13 с.; Волкова Н.Г. Хиналыг // Кавказский этнографический сборник. VII. М.: 1980, 221 с.

[3] Дещериев Ю.Д. Грамматика хиналугского языка. М.: Издательство АН СССР, 1959, 223 с.; Садиев Ш.М. Опыт исследования крызского языка (Автореферат докторской диссертации), Баку: 1972, 32 с.; Грюнберг А.Г. Язык северо-азербайджанских татов. Л.: Издательство АН СССР, 1963, 212 с.; Измаилова А.А. Социалистические преобразования хозяйства, культуры и быта талышей: Автореф. канд. Диссертации. М.: 1964, 26 с.;

Sovet dövründə vaxtilə milli münasibətlərlə bağlı bir sıra maraqlı tədqiqat işləri aparılmışdır. Lakin bu tədqiqatlar şübhəsiz ki, sovet milli siyasətinin təsiri altında yazılmışlar. Bu gün həmin tədqiqatlar cəmiyyətdə gedən etnosiyasi prosesləri, millətlərarası münasibətləri obyektiv əks etdirmirlər.

Bununla yanaşı, milli siyasət və milli münasibətlər sahəsində aparılan bu tədqiqatların üzərindən tam xətt çəkmək düzgün olmazdı. Bu tədqiqatlarda öyrənilsi və gündəlik fəaliyyətdə nəzərə alınası bir çox problemlər bu gün də əhəmiyyətini saxlamaqdadır.

Azərbaycan müstəqillik əldə etdikdən sonra R.Mehdiyev, Ə.Daşdəmirov, V.Abdullayev, Ə.Tağıyev, M.Şükürov, H.Orucov, V.Həbiboğlu, İ.Cəfərzadə, V.Arzumanlı, S.Xəlilov və bir çox başqaları milli siyasət, milli münasibətlər və etnosiyasi proseslərin inkişafı ilə bağlı tədqiqat işləri aparmışlar.[4]

Buduqlu (Piriyev) V. Buduq və buduqlular. Bakı: Sabah, 1994, 137s.; Cavadov Q.C., Hüseynov R.Ə. Udilər (Tarixi-etnoqrafik tədqiqat). Bakı: Azərbaycan nəşriyyatı, 1996, 240s.; Ибрагимов Н.А. Немецкие страницы истории Азербайджана. Баку: Азербайджан, 1995, 200 с.

4 Мехтиев Р.А. Межнациональные отношения на исходе XX столетия: проблемы теории и политики.Баку: Азернешр, 1995, 222 с.; Mehdiyev R.Ə. Azərbaycan: Qloballaşma dövrünün tələbləri. Bakı: XXI-Yeni Nəşrlər Evi,2005, 464 s.; Дашдамиров А.Ф. Национальная идея и этничность. Баку: Азернешр, 2001, 154 с.; Orucov H. Heydər Əliyev və Azərbaycanda milli siyasət. Bakı: Şərq-Qərb, 2001, 160 s.; Abdullayev V.İ. Millət ideyası: Siyasi aspekt. Bakı: Təbib, 1998, 43 s.; Tağıyev Ə.M., Şükürov M.A. Etnopolitologiya. Bakı: Elm, 2000, 165 s.; Мехтиев Р.А. Межнациональные отношения: Анализ проблем и поиск решений. Баку: Азернешр, 1992, 260с.; Həbiboğlu V.H. Heydər Əliyev və milli siyasətimizin inkişaf istiqamətləri // Dövlət idarəçiliyi: Nəzəriyyə və təcrübə, 2003 № 2, s.96-117.; Cəfərzadə İ. Millətlərin müqəddərat hüquqlarının ekstremist yozumu. Azərbaycan XXI əsrin astanasında // elmi praktik konfransın materialları).





Azərbaycanda milli-etnik proseslərin öyrənilməsi istiqamətində tədqiqat işinin aparılması zamanı, ölkə miqyasında müstəqil respublikanın həyata keçirdiyi milli siyasətin inkişaf xüsusiyyətləri mütləq nəzərə alınmalıdır. Dünyanın əksər ölkələrində olduğu kimi Azərbaycanda da uzun müddət milli siyasət lazımi səviyyədə aparılmamışdır. Bəzən milli siyasət dedikdə Azərbaycanda millətlərarası münasibətlərin məqsədyönlü şəkildə tənzimlənməsi başa düşülür. Halbuki milli siyasət millətlərarası münasibətlərin tənzimlənməsi siyasəti anlayışından çox-çox genişdir. Bu cəhətdən «Heydər Əliyev və Azərbaycanda milli siyasət» kitabının müəllifi, Azərbaycan Respublikasında Milli Siyasət Məsələləri üzrə dövlət müşaviri Hidayət Orucov ölkəmizdə müstəqillik şəraitində həyata keçirilən milli siyasətin mahiyyətini çox gözəl açmış, bu sahədə dövlətin düşünülmüş və ardıcıl siyasi kursunun həyata keçirilməsində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin rolunu faktiki materiallara istinad edərək göstərmişdir[5].

Tanınmış filosof, professor Ramiz Mehdiyevin «Millətlərarası münasibətlər: problemin təhlili və həlli axtarışı» monoqrafiyası da tədqiq olunan mövzu baxımından xüsusi maraq doğurur. Burada müəllif Azərbaycanda keçmiş sovet

Bakı: «Şərq-Qərb», 1997, 842 s.; Арзуманлы В.М. Об изучении и научной разработке проблем малочисленных народов Азербайджанской Республики и ее национальной политики // Елтуран, 1997, № 1-2, с.58-63.; Xəlilov S. Lider, dövlət, cəmiyyət. Bakı: «Azərbaycan universiteti» nəşriyyatı: 2000, 358 s.

5 Orucov H. Heydər Əliyev və Azərbaycanda milli siyasət. Bakı: Şərq-Qərb. 2001, 160 s.; Orucov H. Azərbaycanda millətlərarsı münasibətlərin inkişafı və möhkəmləndirilməsində Heydər Əliyevin rolu // Dövlət müdriklik məktəbi. DİA. Bakı, 2000, s.46-53.

rejimi şəraitində millətlərarası münasibətlər sahəsində real vəziyyəti, buraxılmış qüsurları təhlil etmiş, xüsusilə müstəqilliyimizin əldə olunması ərəfəsində ölkəmizdə bu istiqamətdə görülən işlərdən bəhs etmişdir. Müəllif bu problemin təhlilində maraqlı və respublikamızda həyata keçirilməsi vacib olan nəticələrə gəlmişdir[6].

Professor R.Mehdiyevin «XX yüzilliyin sonlarında millətlərarası münasibətlər: nəzəriyyə və siyasət problemləri» monoqrafiyası da mövzunun işlənməsi baxımından böyük maraq doğurur. Kitabda postsovet məkanında milli sahədə baş verən hadisələrlə əlaqədar olaraq millətlərarası münasibətlərin nəzəriyyə və siyasət məsələləri nəzərdən keçirilmişdir[7]

Akademik Ə.Daşdəmirovun 2001-ci ildə nəşr etdirdiyi «Milli ideya və etniklik» monoqrafiyası da həmçinin mövzunun tədqiqi baxımından böyük maraq doğurur. Bu tədqiqatın əhəmiyyəti ondadır ki, müəllif 80-ci illərin sonu və 90-cı illərin əvvəllərində Azərbaycanda baş verən ictimai-siyasi hadisələri məhz etnosiyasi mövqedən təhlil etmişdir. Burada milli ideya və milli-etnik proseslərin qarşılıqlı təsiri məsələsinə geniş yer verilmişdir[8].

Milli siyasət, millətlərarası münasibətlər, eləcə də etnosiyasi proseslərin tədqiqində fəlsəfə elmləri doktoru, professor Əlikram Tağıyevin də əsərləri maraq doğurur. Onun «Etnik siyasət» adlı kitabında etnoslar və millətlər, etnomilli

[6] Мехтиев Р.А. Межнациональные отношения: Анализ проблем и поиск решений. Баку: Азернешр, 1992, 260с.

[7] Мехтиев Р.А. Межнациональные отношения на исходе XX столетия: проблемы теории и политики.Баку: Азернешр, 1995, 222 с.

[8] Дашдамиров А.Ф. Национальная идея и этничность. Баку: Азернешр 2001, 154 с.





problemlər, etnik konfliktlər və onların aradan qaldırılması yolları haqqında söhbət açılır. Təəssüf ki, müəllif bu problemləri ümumi nəzəri şəkildə təhlil edir, Azərbaycan gerçəkliyi şəraitində etnik proseslərin araşdırılmasını qarşısına məqsəd qoymur[9].

Professor Ə.M.Tağıyevin «Milli ideya və milli ideologiya: problemlər və onların şərhi» adlı monoqrafiyasında isə ideologiya anlayışı, milli ideya problemi, milli hərəkatlar və onların genezisi, milli ideya və onun aprobasiyası və s. məsələlərlə yanaşı etnoslararası münasibətlərin xarakterinin təhlilinə də müəyyən yer ayrılmışdır[10].

Mövzunun tədqiqi baxımından prof. Ə.M.Tağıyevin M.A.Şükürovla birgə yazdıqları «İki əsrin qovşağında Azərbaycan: milli və millətlərarası problemlərin həlli yollarında» monoqrafiyasını da qeyd etməliyik. Burada milli-etnik ziddiyyətlərin qlobal və regional aspektləri və s. problemlər nəzərdən keçirilmiş, etnik millətin siyasi millətə doğru inkişafı xüsusiyyətləri tədqiq olunmuşdur[11].

Təqdim olunan monoqrafiyanın tədqiqat obyekti baxımından N.F.Şirinovanın yazdığı «Etnik birliklər və onların sosial fəlsəfi təhlili» adlı namizədlik dissertasiyası da az maraq doğurmur. Burada müəllif milli-etnik birliklərin hüquqi dövlətə və vətəndaş cəmiyyətinə keçid mərhələsində sosial inkişaf problemlərindən, polietnik cəmiyyətdə və o cümlədən

[9] Tağıyev Ə.M. Etnik siyasət. Bakı: İnam plüralizm mərkəzi, 1997, 28 s.

[10] Tağıyev Ə.M. Milli ideya və milli ideologiya. Bakı: Təbib, 2000.

[11] Tağıyev Ə.M.,Şükürov M.A. İki əsrin qovşağında Azərbaycan: milli və millətlərarası problemlərin həlli yollarında. Bakı: «Adiloğlu» nəşriyyatı, 2004, 194 s.

Azərbaycan gerçəkliyi şəraitində onların yeri və rolu haqqında söhbət açır[12].

Göründüyü kimi, tədqiqat problemi qeyd olunan aspektlərdən öyrənilsə də, bütövlükdə bu mövzu respublikamızda xüsusi qaydada tədqiq olunmamışdır. Azərbaycan alimləri tərəfindən bu mövzu tam halında işlənilməmiş, onun bəzi tərəfləri tədqiq olunmuşdur.

Şübhəsiz ki, bütövlükdə belə bir problemin kompleks şəkildə tədqiqi, elmi-nəzəri baxımdan araşdırılması bir monoqrafiyanın imkanı xaricindədir. Ölkəmizin müstəqil dövlət kimi formalaşması, demokratik hüquqi dövlət və vətəndaş cəmiyyətinin yaradılması sahəsində qazandığımız mühüm nailiyyətlər bir daha Azərbaycan tədqiqatçılarından tələb edir ki, müasir şəraitdə respublikamızda milli-etnik proseslərin öyrənilməsinə öz diqqətlərini daha da artırsınlar.

Monoqrafiyada qarşıya qoyulan əsas məqsəd müasir Azərbaycan cəmiyyətində milli-etnik proseslərin xüsusiyyətlərinin, milli azlıqların və azsaylı xalqların inkişafının sosial dinamikasının, bu proseslərin tənzimlənməsinin siyasi-hüquqi aspektlərinin tədqiq edilməsindən ibarətdir. Bunun üçün aşağıdakı vəzifələr irəli sürülmüşdür:

- etnosiyasi proseslərin mahiyyətinin öyrənilməsi;
- müasir Azərbaycan cəmiyyətində baş verən etnosiyasi proseslərin əsas mahiyyətinin və məzmununun təhlili;
- Azərbaycan Respublikasında yaşayan azsaylı xalqların, milli azlıqların və etnik qrupların sosial-siyasi inkişaf dinamikasının öyrənilməsi;

[12] Şirinova N.F. Etnik birliklər və onun sosial-fəlsəfi təhlili. Namizədlik dissertasiyasının avtoreferatı. Bakı, 2002, 32 s.





- müasir etnosiyasi proseslərin əsas xüsusiyyətləri və inkişaf meyllərinin aşkara çıxarılması;
- milli-etnik proseslərin tənzimlənməsinin siyasi-hüquqi aspektlərinin tədqiqi və bu sahədə aparılan dövlət siyasətinin əsas istiqamətlərinin araşdırılması;
- milli-etnik proseslərdə münaqişəli vəziyyətlərin və onların aradan qaldırılması yollarının müəyyən edilməsi;
- milli-etnik problemlərin həllində milli dövlətçilik ideyasının rolunun öyrənilməsi.

Mövzunun işlənməsi prosesində Azərbaycan Respublikasının Konstitusiyası, xalqımızın ümummilli lideri Heydər Əliyevin çıxış və nitqləri, Azərbaycan Respublikası Prezidentinin apardığı danışıqların materialları, sərəncam və fərmanları, Azərbaycan hökumətinin və Milli Məclisin qərarları, Respublika və beynəlxalq elmi konfransların materialları, görkəmli alimlərin tədqiqat problemi ilə bağlı əsərləri elmi-nəzəri mənbə rolunu oynamışdır.

Məlum olduğu kimi, respublikamızda elmi ədəbiyyatda bu mövzu kompleks şəkildə işlənməmiş, yaxud tədqiqat obyekti olmamışdır. Bu baxımdan monoqrafiyanın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- ilk dəfə olaraq bu mövzu elmi-nəzəri mənbəşünaslıq əsasında təhlil edilmişdir;
- tədqiqat problemi respublikada baş verən etnosiyasi proseslərin fonunda öyrənilərək, dünya miqyasında gedən demokratikləşmə və qloballaşma prosesləri ilə birlikdə tədqiqata cəlb olunmuşdur;
- Azərbaycanda milli-etnik proseslərin inkişafına təsir göstərən mühüm amillərin öyrənilməsinə kompleks şəkildə

yanaşılmışdır;

- milli-etnik proseslərdə münaqişəli vəziyyətlər və onların aradan qaldırılması yolları, bu proseslərin nizamlanmasının siyasi-hüquqi aspektləri tədqiqata cəlb edilmişdir;
- monoqrafiyada milli azlıqların, azsaylı xalqların sosial inkişafı dinamikada öyrənilmiş, onların hüquq və azadlıqlarının təmin olunması məsələləri kompleks şəkildə araşdırılmış, Azərbaycan dövlətinin bu sahədəki siyasi kursunun əsas istiqamətləri göstərilmişdir;
- monoqrafiyanın elmi yeniliyi həmçinin onun yerli materiallara əsaslanmasından və bu materialların ümumi nəzəri, sosial-siyasi problemlərə söykənməsi əsasında təhlil edilməsindən ibarətdir;
- milli-etnik problemlərin həllində milli maraqların təminatı kimi çıxış edən milli dövlətçilik ideyası təhlil olunmuşdur.

Kitabın praktik əhəmiyyəti ondan ibarətdir ki, onun materiallarından milli-etnik proseslərin, millətlərarası münasibətlərin öyrənilməsinə həsr olunmuş tədqiqat işlərində, həmin mövzularda ali məktəblərdə keçirilən mühazirələrdə, bu istiqamətdə əhali arasında ideya-siyasi işin aparılmasında, nəhayət, Azərbaycanın bu gün də polietnik respublika olmasının dünyaya tanıdılmasında mühüm vəsait kimi istifadə edilə bilər.





# I FƏSİL. AZƏRBAYCANDA ETNOSİYASİ PROSESLƏR VƏ ONLARIN SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

## 1.1. Etnosiyasi proseslərin mahiyyəti

Müasir mərhələdə etnosiyasi proseslərin mahiyyətinin öyrənilməsi millətlər, milli azlıqlar və etnik qruplar arasında yaranmış və davam etməkdə olan ziddiyyətlərin səbəblərini, qarşılıqlı münasibətlərin araşdırılmasını tələb edir. Çoxmillətli dövlətlərin həyatından toplanmış təcrübə aydın göstərir ki, milli-etnik münaqişələr çox vaxt müstəqil milli dövlətlərin yaradılması, milli həyatın və milli hərəkatların oyanması, canlanması zamanı meydana gəlir. Bu zaman ölkə daxilindəki millətlər, etnik qruplar arasında mövcud olan milli birlik müvəqqəti də olsa tənəzzülə uğrayır, millətlərarası münasibətlərin pozulması baş verir, milli-etnik sərhədlərin müəyyənləşdirilməsi qarşıya bir çox mürəkkəb vəzifələr qoyur. Bu vəzifələrin yerinə yetirilməsi sahəsində aparılan gərgin iş yaranmış mövcud vəziyyətin aradan qaldırılması istiqamətində həm ölkənin sakinləri kimi millətlərdən, etnik qruplardan, həm də onların etnosiyasi liderindən, dövlət başçısından çox böyük, məqsədyönlü fəaliyyət tələb edir.

Etnosiyasi proseslərin mahiyyətini düzgün dərk etmək üçün etnos məfhumuna diqqət yetirməyi zəruri hesab edirik.

Məlum olduğu kimi, bu gün Yer kürəsində yaşayan xalqların sayı mövcud dövlətlərin sayından dəfələrlə çoxdur. Müxtəlif mənbələrdə Yer kürəsində 2000-dən 4000-dək xalqın, millətin və etnik qrupun yaşadığı göstərilir ki, onlar da 200-dən bir qə-

dər çox dövlətdə məskunlaşıblar.

XX əsrin axırlarına yaxın toplanan məlumata görə bəşəriyyətin yarısından çoxunu sayı 50 milyon nəfərdən artıq olan on səkkiz xalq təşkil edir. Hazırda Yer kürəsində hər birinin sayı 10 milyon nəfəri keçmiş təxminən 70 millət yaşayır. Sayı 1 milyon nəfərdən yuxarı olan 260 millət isə Yer kürəsi əhalisinin 96 faizdən çoxunu əhatə edir. Dünya əhalisinin 3,2 faizi sayı 1 milyon nəfərə qədər olan minlərlə etnik birlikdən ibarətdir. Elə etnoslar var ki, onların sayı 100 milyondan artıqdır (Çinlilər, ruslar və s.)[13].

Qeyd etmək lazımdır ki, sayı minə qədər olan müxtəlif etnik qruplar da var. Bu etnik qrup əhalisinin əksəriyyətini bir etnos təşkil edən müxtəlif ölkələrdə yaşayırlar. Həmçinin sayı bir neçə yüzdən, mindən artıq olan etnik qruplar da mövcuddur.

Müasir elmi ədəbiyyatda «etnos» anlayışının mahiyyətinə müxtəlif aspektlərdən yanaşılır. Məsələn, akademik Y.V.Bromleyə görə etnos sosiokultur hadisə olub etnik şüura və özünüdərkə malik olan insanların ümumi və sabit xüsusiyyətlərini özündə birləşdirir, o, psixoloji xassələrə və müəyyən ərazi daxilində formalaşma xarakterinə malikdir[14].

Tanınmış alim L.N.Qumilyov isə etnosa bir hadisə kimi yanaşır, ona biosfer, deməli, təbiət hadisəsi kimi baxırdı. Belə yanaşma metodu, təbii ki, etnosun sosial mahiyyətini kölgə altına alır və etnoslararası münasibətlərdə insan amilini ön sıraya

[13] Orucov H. Heydər Əliyev və Azərbaycanda milli siyasət. Bakı: Şərq-Qərb 2001, s. 41.
[14] Бромлей Ю.В. Этнос и этнография. М.: Наука, 1973, с.27.





çıxarır[15].

Etnos sözün dar mənasında, nisbətən sabit xüsusiyyətləri olan mədəniyyət və psixikaya malik, habelə öz vəhdətini insanların başqa qruplarından fərqləndirən, bir dildə danışan insanların tarixən yaranmış məcmusudur.

Etnos termini XX əsrin əvvəlində yaranmış və rus alimi S.M.Şirokoqorovun adı ilə bağlıdır[16].

ASE-nin etnos məqaləsində qeyd olunur ki, etnosun sabitliyi bir sıra amillərlə, ilk növbədə endoqamiya ilə bağlıdır. Etnos üçün varislik, fasiləsiz inkişaf, habelə zaman çərçivəsində dəyişmə səciyyəvidir. Bütün bunlarda etnik, yaxud etnogenetik nəticəsində yeni etnik hala keçid baş verə bilər[17].

Rus alimlərinin bəziləri etnos anlayışına daha geniş yanaşaraq, qeyd edirlər ki, etnos tarixi birlik forması olan insanların - tayfa, xalq və millətin sabit birliyi nəticəsində təşəkkül tapmışdır. Ərazi və dil birliyi etnosun başlıca əlamətləri kimi götürülür. Etnos müxtəlif dil qrupundan əmələ gəlir. Məsələn, Amerikada yaşayan bir çox millətləri göstərmək olar. Təsərrüfat əlaqələrinin inkişafı gedişində, təbii mühitin xüsusiyyətlərinin təsiri, başqa xalqlarla münasibətlərin saxlanması ilə etnos daxilində maddi və mənəvi mədəniyyətin xarakterik xüsusiyyətləri yaranır, etnik özünüdərketmə prosesi güclənir ki, burada da hər hansı bir etnik qrupun yaranması və tarixi taleyi haqqındakı təsəvvürlər mühüm rol oynayır. Məhz bu proses zamanı et-

[15] Гумилев Л.Н. О термине «этнос» // Доклады отделений и комиссий Географического общества СССР. Выпуск, 3. Л.: 1967, с.14-15.
[16] Широкогоров С.М. Этнос. Исследование основных принципов изменения этнических и этнографических явлений. Шанхай: 1923, 13 с.
[17] Azərbaycan Sovet Ensiklopediyası: VI c. Bakı: Azərnəşr, 1982, s.113.

nik qrupun adı dəqiqləşdirilir.

Etnosun formalaşmasında bəzən bu qrupa daxil olan insanların ümumi dinə malik olmalarının da rolu var. Formalaşmış etnoslar artıq bir sosial orqanizm kimi çıxış edir, yəni etnik baxımdan eyni nikahların bağlanması, yeni nəslə dilin, mədəniyyətin, ənənələrin, etnik oriyentasiyanın və s. verilməsi prosesi baş verir. Etnos daha möhkəm mövcud olması üçün öz ərazisinin yaradılması qayğısına qalır. Lakin elə hal yaranar ki, hər hansı kiçik etnos daha böyük etnosla təmasda olub öz mövcudluğunu itirə, yaxud başqa bir etnosun başlanmasına səbəb ola bilər.

«Etnos» termini mürəkkəb xarakterli anlayışdır. Bu həm də onunla əlaqədardır ki, dünyada etnik əmələgəlmələrin özü mürəkkəb bir sistem təşkil edir. Etnos dedikdə ərazicə yayılmaqlarından asılı olmayaraq eyni etnik mənsubiyyətli insanların birliyi nəzərdə tutulur. Lakin bir ölkə daxilində yaşayan, mənşəcə eyni bir dövlətə bağlı insanlar da etnos (həm də etnikos deyilir) adlanır. Məsələn, Macarıstanda yaşayan macarlar etnos-etnikosdur. Digər tərəfdən, bütün macarlar, o cümlədən Rumıniyada, ABŞ-da və başqa ölkələrdə yaşayan macarlar da vardır. Bunların hər ikisi müəyyən cəhətlərinə görə fərqləndirilirlər. Belə halda, məsələn, Macarıstanda yaşayan macarlar etnososial orqanizm, etnosun bu etnososial orqanizmə daxil olmayan hissələri isə etnik qruplar adlanır[18].

Son yüz ilin dünya təcrübəsi göstərir ki, etnikos inkişaf etdikcə onda öz müqəddəratını təyin etmək, dövlət müstəqilliyinə

[18] Dünya xalqları. Tarixi-etnoqrafik ensiklopedik məlumat kitabı / R.H.Zeynalovanın redaktəsi ilə. Bakı: «Azərbaycan ensiklopediyası» NPB. 1998, s. 9.





nail olmaq, siyasi muxtariyyətini yaratmaq təmayülü yaranır. Bu da etnikosla etnososial orqanizmin yaxınlaşmasını gücləndirir. Lakin tədqiqatçılar onu da müşahidə edirlər ki, bəzi hallarda dünyadakı regional iqtisadi inkişafla əlaqədar əhalinin etnikosdan ayrılıb başqa yerlərə köçən hissələri öz coğrafi məkanı, yəni vətəni ilə əlaqəsini kəsir, beləliklə, etnosla etnik qrup arasında fərq çoxalır, ondakı bəzi ənənəvi etnik xüsusiyyətlər yoxa çıxmağa başlayır. Belə proseslər daha çox ötən əsrin son onilliklər üçün səciyyəvidir. İkinci dünya müharibəsindən sonra etnososial orqanizmin miqrasiyası səviyyəsinin daha da gücləndiyi müşahidə olunur ki, bu da istehsal sahələri və istehsal vasitələrinin yer üzündə bərabər paylanmaması ilə izah olunur. Məsələnin tənzimlənməsi ilə əlaqədar beynəlxalq səviyyəli proqramlar işlənib hazırlansa da bu, ciddi problem olaraq qalmaqdadır. Çünki dünyada xammal ehtiyatı, işçi qüvvəsinin daha çox olduğu bölgələr, sənaye sahələrinin yerləşdirilməsi, xammal və məhsulun transfer edilməsi ilə bağlı problemlərin mövcudluğu etnik qrupların müxtəlif ərazilərə qeyri-bərabər paylanmasına şərait yaradır[19].

Cəmiyyətdə milli-etnik proseslər iki qismə bölünür. Birincisi, etnik bölgü prosesidir ki, bu zaman vahid etnos bir neçə etnosa bölünür və onların hər biri müstəqil şəkildə fəaliyyət göstərir, əvvəlki vahid etnos isə öz mövcudluğunu dayandırır.

İkincisi, etnik birləşmə prosesdir ki, belə olan halda müxtəlif etnik mənsubiyyətə malik olan insan qruplarının daha böyük etnik birliklərdə birləşməsi nəzərdə tutulur. Etnik birləşmə pro-

[19] Dünya xalqları. Tarixi-etnoqrafik ensiklopedik məlumat kitabı / R.H.Zeynalovanın redaktəsi ilə. Bakı: «Azərbaycan ensiklopediyası» NPB. 1998, s. 9.

sesinin inkişafında sosial dəyişikliklərin, iqtisadi inteqrasiyanın, qarışıq nikahların geniş yayılması və s. amillər mühüm rol oynayır.

Rus alimi Y.V.Bromley etnosu dinamik sistem adlandırmaqda səhv etmir. Onun fikrincə, insan birliyi sistemində hər bir etnosun öz yeri var.

Müxtəlif insan birlikləri, onların əsasında duran ayrı-ayrı fəaliyyət növləri daim qarşılıqlı əlaqədə olub bu və ya digər dərəcədə bir-birilərini əvəz edirlər. Bu son dərəcə mürəkkəb olan insan birlikləri ierarxiyasında etnoslar xüsusi yer tutur. Xüsusi elmi ədəbiyyatda bu birlik etnos adlanır. S.M.Şirokoqoreva görə, etnos eyni dildə danışan, özünün vahid mənşəyə, eyni adət və ənənələrə, həyat tərzinə malik olduğunu qəbul edən insan qruplarıdır. Etnosun bu cür dərk olunması bu birliyin bioloji proses olduğunu nəzərə çarpdırır[20]. L.N.Qumilyov da həmçinin etnosu bioloji vahid hesab edir[21].

Y.V.Bromley etnosun mahiyyətini tədqiq edərək bu qənaətə gəlmişdir ki, etnos termini müxtəlif tarixi birlikləri, yəni tayfa, xalq, millət anlayışlarını bir ad altında özündə birləşdirir[22].

Hər bir etnosun özünəməxsus, fərqləndirici xüsusiyyətləri mövcuddur. Bu xüsusiyyətlər etnosların mədəniyyəti, adət və ənənələri, həyat tərzi ilə tanış olduqda dərhal nəzərə çarpır. Məsələn, respublikamızda yaşayan müxtəlif etnosları bir-birindən fərqləndirən spesifik xüsusiyyətlər bu etnosların özünəməxsusluğunu göstərir. Eyni zamanda bu etnosların fərqləndirici xüsusiyyətlərinin mövcudluğu ölkə daxilində onlara qarşı obyektiv yanaşmanı, hər bir etnosun öz milli varlığını saxlamaq və inkişaf etdirmək üçün dövlət səviyyəsində onların mənafelərinə, maraqlarına cavab verən siyasətin düzgün aparıldığını təsdiq edir.

Siyasi ədəbiyyatda xalq insan birliyinin tarixi formalarından biri kimi qəbul edilib. Məlumdur ki, xalq quldarlıq və feodalizm dövrünün meydana gətirdiyi ictimai qurumdur. Bu prosesin başlanıb sona çatmasında ictimai əmək bölgüsünün, xüsusi mülkiyyətin, ticarətin meydana gəlməsi və genişlənməsinin mühüm rolu olub. Məhz bu inkişaf bir-birinə qohum olan tayfaların birləşərək vahid xalq halında formalaşmasına əsas zəmin yaradıb[23].

Tarixi-siyasi kateqoriya olan millət də həmçinin insanların birliyi forması kimi götürülür. Bir ərazidə yaşayıb, ümumi mədəniyyətə, dilə, şüura malik olan sabit insan birliyini özündə əks etdirən millət iqtisadi birlik və vahid, çoxcəhətli siyasi həyat sistemi, mürəkkəb etnopsixoloji xarakteri ilə fərqlənir. Millət xüsusi düşüncə tərzinə, mentalitetə, şəxsi ləyaqət hissinə malikdir[24].

Onu da qeyd edək ki, müasir dünyada vahid millət anlayışı yoxdur. Millət anlayışını tərifi mübahisəlidir. Deməli, bu sahədə hələ də yekdil fikir yoxdur. Daha doğrusu, indiyədək millətə 300-dən artıq tərif verilmiş, lakin onu bu və ya digər

[20] Широкогоров С.М. Этнос. Исследование основных принципов из менения этнических и этнографических явлений. Шанхай: 1923, с. 13.
[21] Гумилев Л.Н. Этногенез и биосфера земли. Издательство ЛГУ, 1989, с. 49.
[22] Бромлей Ю.В. Этнос и этнография. М.: Наука, 1973, с. 27.

[23] Azərbaycan Sovet Ensiklopediyası: X c. Bakı: Azərnəşr, 1987, s. 23
[24] Человек и общество. Краткий энциклопедический словарь. Справочник (Политология) / Под ред. О.М.Штомпель. Ростов-на-Дону: Издательство «Феникс», 1997, с. 314.

məhdud cəhətlərinə görə qarşı tərəf qəbul etməmişdir. Məsələn, türk alimi Ziya Goyalpın fikrincə, millət qədim türk dövlətinin yaranması ilə əlaqədardır[25]. İslam ideoloqları milləti ümmət kimi qələmə vermiş, yəni bir dinə inanan adamların məcmusu kimi başa düşmüşlər. F.Nortrona görə "millət vahid bir orqanizm kimi fəaliyyət göstərən insan cəmiyyətidir"[26].

Keçən əsrdə Avropada millət deyiləndə nə isə yeni bir cəmiyyətin, insan birliyinin meydana gəldiyini başa düşürdülər. Millət latın dilində "nationalen" istilahı ilə işlədilmişdir ki, bu da dağılma, yenidən qurulma kimi başa düşülürdü.

Adam Smit və Con Stüartın əsərlərində millət bir iqtisadi kateqoriya kimi nəzərdən keçirilirdi[27]. Yəni millət iqtisadi əməkdaşlıq münasibətlərində birləşmiş insan qruplarıdır.

Yaxud elə keçən əsrdə bəziləri "millət" adı altında yuxarı təbəqəni, hakim elitanı nəzərdə tuturdular.

Əsrin əvvəllərində mövcud olmuş müxtəlif sosialist nəzəriyyələr, xüsusən psixoloji coğrafi cərəyan adlanan konsepsiya tərəfdarları milləti eyni peşəyə və eyni şüurlu xüsusiyyətlərə malik olan adamların toplusu kimi nəzərdə tuturdu.

Azərbaycan alimlərindən Ə.Tağıyevin və M.Şükürovun yazdığına görə millət eyni cür düşünən, eyni cür hərəkət edən fərdlərin birliyidir[28]. Onlar dil birliyini əsas saymırlar. Çünki onun tarixi əsası vardır. Yəhudilər illərlə müxtəlif ölkələrə dağılmış və içərisində yaşadıqları adamların dillərini qəbul

[25] Göyalp Z. Türkçülüyün əsasları. Bakı: Maarif, 1991, s. 28
[26] Tağıyev Ə.M. Etnik siyasət. Bakı: İnam plüralizm mərkəzi, 1997. s. 12.
[27] Yenə orada, s. 13.
[28] Tağıyev Ə.M., Şükürov M.A. Etnopolitologiya. Bakı: Elm, 2000, s. 114.





etmişlər. Ona görə də bugünkü İsrail əhalisinin cəmi 5%-nin dili ivrit dilidir[29].

Bir sıra Qərb alimləri coğrafi amilləri ön sıraya çəkirlər. Məsələn, Ş.Monteskyeyə və C.Lokka görə vahid coğrafi amil kimi bir ərazidə yaşayan adamlar bir millət kimi qəbul edilməlidir[30]. Başqa bir qrup alimlər isə dil amilini əsas götürürdülər.

Nortron belə hesab edirdi ki, millət – millət olmaq qərarına gəldikdən sonra meydana gəlir[31]. Makiavelli və digərləri millətin yaranması üçün birinci şərt kimi dövlətin yaranmasını irəli sürürdülər. Yəni dövlət milləti təşkil edir, millət dövləti təşkil etmir. Bu müddəada müəyyən həqiqətlər də var. Məsələn, bugünkü Amerikan millətinin formalaşmasında Amerika dövlətinin rolu əsas olmuşdur. Yəni bu ölkədə yaşayan müxtəlif millət və xalqlar vahid dövlət birliyi ideyaları zəmini üzərində birləşmişlər. Ən nəhayət, marksizm bu təriflərin əksəriyyətini ümumiləşdirərək belə bir nəticəyə gəlmişdir ki, millət insanların sabit birliyi olub, vahid dilə və iqtisadi həyat birliyinə malik olan coğrafi ərazi birliyi və mədəni, psixoloji ümumilik zəminində formalaşmış insan qruplarıdır[32].

Qərb alimlərinin çoxu marksizmin bu sahədəki məhdudluğunu onda görürlər ki, onlar vahid coğrafi ərazini və iqtisadi həyat birliyini əsas amil kimi qəbul edirdilər. Yəni

[29] Tağıyev Ə.M., Şükürov M.A. Etnopolitologiya. Bakı: Elm, 2000, s. 115.
[30] Demokratiya: Gediləsi uzun bir yol. Antologiya. / Tərtib edən H.Hacızadə. İctimai və siyasi araşdırmalar mərkəzi, Bakı: «Azərbaycan», 2001, s.134.
[31] Tağıyev Ə.M. Etnik siyasət. Bakı: İnam plüralizm mərkəzi, 1997. s.11.
[32] Yenə orada, s.10.

millət bu əsaslara görə millət hesab olunur[33].

Xalqın tədricən millətə çevrilməsi prosesi kapitalizmin meydana gəlməsi, onun inkişaf mərhələsinə keçilməsi ilə əlaqədardır. Yuxarıda qeyd etdiyimiz kimi, bu zaman xalqı millət kimi formalaşdıran mühüm amillərin hər birinin özünəməxsus rolu aydın nəzərə çarpır. Belə ki, ümumi ərazi, ümumi dil, ümumi mədəniyyət, ümumi iqtisadi və mənəvi həyat birliyi milləti birləşdirən, mahiyyətini özündə əks etdirən mühüm əlamətlərdir.

Qeyd etmək lazımdır ki, ayrı-ayrı millətlərin inkişaf yolları, meydana gəlməsi, siyasi-mənəvi prosesləri müxtəlif forma və mərhələlərdə özünü büruzə verə bilər. Şübhəsiz ki, bu proseslər arasında müəyyən fərqlərin olması da təbii haldır. Məsələn, azərbaycanlıların, yaxud ukraynalıların bir millət halında formalaşmaları arasında müəyyən fərqli cəhətlər vardır.

Mədəni cəhətlərinin ümumiliyi və şüur birliyi baxımdan öz genezisinə görə fərqlənən əhali birliyi metaetnik birlik hesab olunur. Genetik cəhətdən, dil baxımından və yaxud mədəni yaxınlıq nəticəsində oxşarlıq qazanan və seçilən bu birliklərin də öz səciyyəsi vardır. Məsələn, Latın Amerikası xalqlarını dil, mədəni yaxınlıq və s. xüsusiyyətlər birləşdirir. Şimali Qafqaz xalqları uzun müddət vahid etnoqrafik bölgədə yaşayan və tarixən qarşılıqlı mədəni əlaqələr nəticəsində formalaşan birlikdir. Baltikyanı respublikaların əhalisi dil baxımından fərqlənsələr də, ümumi mədəni və oxşar cəhətlərə malik olduqlarına görə bu

[33] Azərbaycan Sovet Ensiklopediyası: VI c. Bakı: Azərnəşr, 1982, s. 564.





birliyə aid edilə bilər. Dini və mədəni birlik əsasında formalaşan qruplar da az deyildir[34].

Müxtəlif tipli etnik əmələgəlmələr arasında tayfa, xalq və millətdən savayı iri və inkişaf etmiş ölkələrdə çoxdan məskunlaşmış mühacirlər və ələlxüsus onların törəmələrindən ibarət keçid etnik qrupları da mövcuddur. Belə etnik əmələgəlmələr kütləvi mühacirət ölkələri, ilk növbədə, ABŞ, Kanada, Avstraliya üçün səciyyəvidir[35].

Etnosun mahiyyətində diqqəti cəlb edən məfhumlar arasında etnik azlıq, milli azlıq, yaxud azsaylı xalq anlayışlarının olmasıdır. Cəmiyyətin həyatında onların hər birinin özünəməxsus yeri və rolu var. Professor V.Arzumanlı yazır ki, milli azlıqlar dedikdə bu və ya başqa ölkədə, dövlətdə, respublikada yaşayan, ölkənin, dövlətin, respublikanın əhalisinin çoxunu təşkil edən millətdən sonra azlıqda qalan hissə nəzərdə tutulur. Məsələn, əgər Rusiyada, Ukraynada, Belorusiyada, Gürcüstanda, Qazaxıstanda yaşayan azərbaycanlılar bu ölkələrdə milli azlıq hesab edilirlərsə, Azərbaycan Respublikasında yaşayan ruslar, ukraynalılar, beloruslar, gürcülər Azərbaycanda yaşayan milli azlıqlar hesab olunurlar[36].

Çoxmillətli respublikamızda milli azlıqlarla yanaşı azsaylı xalqlar da yaşayırlar. Bu xalqlar özlərini daim haqlı olaraq bu ölkənin yerli əhalisi hesab edir, daha sıx yaşamağa üstünlük verirlər. Belə xalqlar azsaylı xalq kimi tanınır. Məsələn, Azərbay-

[34] Dünya xalqları. Tarixi-etnoqrafik ensiklopedik məlumat kitabı / R.H.Zeynalovanın redaktəsi ilə. Bakı: «Azərbaycan ensiklopediyası» NPB. 1998, s.8.

[35] Yenə orada, s.10.

[36] Cavadov Q.C. Azərbaycanın azsaylı xalqları və milli azlıqları (Tarix və Müasirlik), Bakı: Elm, 2000, s.9.

canda belə xalqlardan talışları, ləzgiləri və s. hesab etmək olar.

Müasir cəmiyyətdə etnik qruplar müxtəlif situasiyalarda qarşılıqlı münasibətlərdə olurlar. Tədqiqatçılar tərəfindən daha tipik belə situasiyalara aşağıdakılar aid edilir:

- özünün polietnik, yaxud çoxmillətli olduğunu etiraf edən dövlətdəki etnik qruplar. Belə qruplar özlərinin eyniliyini dil, din, milliyyəti yaxud irqi əsasında müəyyən edə bilir. Bu hallarda üstünlük təşkil edən, yaxud daha çoxsaylı olan millətdən fərqlənən etnik qruplar xüsusi hüquqi statusa malik ola bilər, yaxud olmaz. Adətən onlar azlığı təsmil edir və hakim vəziyyəti tutmurlar.

- özünün rəsmi olaraq polietnik hesab etməyən dövlətlərdəki etnik qruplar, məsələn, Fransa, Yaponiya, İndoneziya, Türkiyə, Portuqaliya, bir sıra Afrika ölkələrində olduğu kimi. Burada etnik azlıqların regional (məs., Fransada – korsikanlar, Böyük Britaniyada - şotlandlar), irqi (ABŞ-da qara afrikalılar kimi), dini (İraqda şiyələr) əsasları ola bilər

- qonşu dövlətdə yaşayan və əhalinin əksəriyyətini təşkil edən qohum etnik birliklə özlərini idensifikasiya edən etnik azlıqlar (məs., türklər Bolqariyada, albanlar Yuqoslaviyada);

- heç biri xüsusi üstünlük vəziyyətini tutmayan dövlətdə çoxsaylı etnik qruplar (bəzi Asiya ölkələrində, Afrikada);

- dövlətlərarası sərhədin hər iki tərəfində yaşayan, həmsərhəd dövlətin hər birində azlıq statusu olan etnik azlıqlar (Cənubi Şərqi Asiyadan bəzi regionlarında, Orta Şərqdə kürdlər, İspaniya və Fransada basklar, Azərbaycan və Rusiyada ləzgilər olduğu kimi);

- bir ölkədən digərlərinə, xüsusilə də zəif inkişaflı ölkələrdən inkişaf etmiş dövlətlərə kütləvi miqrasiyanın nəticəsində meydana gəlmiş etnik immiqrantlar və qaçqınlar (İngiltərə və Fransada afrikalılar, AFR-da kürdlər və s.).





Etnik qruplar, yaxud etnik azlıqlar kimi tanıdığımız xalqlar cəmiyyətdə gedən milli-etnik proseslərdə fəal iştirak edirlər. Hər bir etnik azlığın öz dili, öz adət və ənənəsi, mənəvi birliyi, milli xüsusiyyətləri qorunub saxlanır, ümumi inkişaf prosesində özünəməxsusluq qazanır. Respublikamızın timsalında deyə bilərik ki, etnik azlıq üçün səciyyəvi olan bu xüsusiyyətlər onun başqa xalq və millətlərlə qaynayıb-qarışmasına heç də mane olmur, əksinə vahid dövlət daxilində yaşamaları onların eyni problemin həlli üçün birgə məsuliyyət daşıma hisslərini artırır, etnomədəni proseslər zamanı onların mədəniyyət və məişətində nəzərə çarpan mühüm dəyişikliklər yaranır. Etnik azlıqlar tarixən baş verən milli-etnik proseslər nəticəsində öz milli etnik əlamətlərini qoruyub saxlayır, eyni zamanda qonşu xalq və millətlərdən də müəyyən əlamətlər və xüsusiyyətləri əxz edir. Bu mənada respublikamızda yaşayan etnik azlıqlar arasında da bu mütərəqqi proses gedir. Azərbaycanda etnik azlıqlara, yaxud etnik qruplara buduqlar, qrızlar, hapıtlar, ceklər, xınalıqlar, ingiloylar, krım tatarları, gürcü yəhudiləri, tabasaranlar və s. aiddir.

Respublikamızda başqa etnik qrupların nümayəndələri də yaşayırlar. Onu qeyd etməyi vacib sayırıq ki, sayının azlığından-çoxluğundan asılı olmayaraq, respublikamızda yaşayan milli azlıq, azsaylı xalq və etnik azlıqlar arasında ümumi mənafe birliyi hökm sürür. Onların öz milli varlıqlarını qoruyub saxlamaq, mədəniyyətlərini, adət və ənənələrini, milli xüsusiyyətlərini inkişaf etdirmək üçün hər cür şərait yaradılmışdır. Təəssüf ki, müstəqilliyimizin ilk illərində bu etnik azlıqlardan, azsaylı

xalqlardan və milli azlıqlardan dövlətçiliyimizə qarşı düşmənçilik məqsədilə istifadə edənlər tapıldı. Elə bu günün özündə də bəzi şəxslər bu istiqamətdə fəaliyyətlərini davam etdirir, öz polietnikliyi ilə fərqlənən respublikamızın əhalisi arasında təxribatçılıq təbliğatlarını artırmağa çalışırlar. Xüsusilə keçən əsrin 90-cı illərində milli siyasət sahəsində buraxılmış səhvlərdən istifadə edən bəzi bədxah qüvvələr öz siyasi maraqlarını təmin etmək məqsədilə ayrı-ayrı etnik qrupların, milli azlıqların, azsaylı xalqların nümayəndələrini qızışdırıb ortaya salır, onlardan öz məqsədləri üçün istifadə edirdilər. Həmin dövrün etnosiyasi proseslərini tədqiq edən fəlsəfə elmləri doktoru, professor Vəli Həbiboğlu bu haqda «Azərbaycan XXI əsrin astanasında» respublika elmi-praktik konfransında «XXI əsrin astanasında Azərbaycanda etnosiyasi proseslər» adlı çıxışında məhz bu məsələyə toxunaraq demişdir: «Millətlərarası münasibətlər sahəsində buraxılmış səhvlər tezliklə ölkənin ümumi inkişafına, hətta milli istiqlaliyyətimizin təhlükə altına düşməsinə gətirib çıxardı. Əlbəttə, burada milli suverenliyimizin möhkəmlənməsinə mane olan xarici amilləri də yaddan çıxarmaq olmaz. Lakin bu amillərin fəallaşmasına meydan verən öz səhv milli siyasətimiz olmuşdur. Azərbaycan müstəqillik əldə etdikdən sonra öz ərazisində yaşayan bütün xalqların və millətlərin ümdə mənafeyinə cavab verən elə milli siyasət yeritməli idi ki, mövcud fəaliyyətdən bədxahlarımız, düşmənlərimiz öz mənafeləri naminə istifadə edə bilməsinlər. Bütün xalqların və millətlərin monolit birliyini təmin etmək üçün onların bütün iqtisadi, siyasi, mədəni və s. tədbirlərdə yaxından iştirakı nəinki təmin edilməli, habelə bu mühüm prosesdə onların milli mənafeləri də mütləq nəzərə alınmalı idi.





Azərbaycanı bir dövlət kimi parçalamağa can atan əleyhdarlarımız məhz bu sahədə buraxılmış səhvlərdən bacarıqla istifadə etməyə çalışırdılar. Azərbaycan eyni zamanda milli münasibətlər sahəsində keçmiş SSRİ dövründən yığılıb qalmış problemlərin, həm də etnosiyasi problemlərin məngənəsində sıxılmağa başladı. Daxildən, həm də xaricdən müxtəlif təzyiqlərə məruz qaldı»[37].

V.Həbiboğlu haqlı olaraq qeyd edir ki, yalnız xalqın müdrik oğlu, uzaqgörən siyasətçi Heydər Əliyevin apardığı məqsədyönlü siyasət gənc müstəqil respublikamızı bu parçalanmadan, etnosiyasi proseslər sahəsində qeyri-düzgün siyasətin həyata keçirilməsindən azad etdi[38].

H.Əliyev azsaylı xalqların və milli azlıqların nümayəndələri ilə görüşlərində dəfələrlə bildirmişdir: «Mənim sizlərlə görüşlərimi milli azlıqların nümayəndələri ilə görüş adlandırmaq istəməzdim. Bu, Azərbaycanın, Azərbaycan xalqının nümayəndələri ilə görüşündür»[39].

Göründüyü kimi, xalqımızın ümummilli lideri respublikamızda yaşayan milli azlıqlara, azsaylı xalqlara ölkənin bərabərhüquqlu vətəndaşları kimi baxır və hamıdan bu mövqedə olmağı tələb edirdi.

Tədqiq etdiyimiz problemin bu tərəflərinə monoqrafiyanın başqa paraqrafında daha geniş yer ayırmağı nəzərdə tutmuşuq. Odur ki, təkrara yol verməmək məqsədilə etnosiyasi proseslərin

[37] Həbiboğlu V. XXI əsrin astanasında Azərbaycanda etno-siyasi proseslər // Azərbaycan XXI əsrin astanasında. Elmi-praktik konfransın materialları Bakı, 1997, s.814-815.
[38] Yenə orada, s. 815.
[39] Əliyev H. Azsaylı xalqların nümayəndələri ilə görüş. «Bakı», qəz., Bakı, 1993, 7 oktyabr.

mahiyyətindən irəli gələn bəzi məqamlara diqqət yetirək.

Məlumdur ki, hər bir etnosun özəyi etnososial orqanizm hesab olunur. Tanınmış etnosşünas alimlərdən Y.B.Bromley[40], M.Kozlov[41], L.Qumilyov[42] və başqaları etnosun bu struktur vahidliyi ilə bağlı maraqlı fikirlər irəli sürmüş, etnososial orqanizmin çoxcəhətliyini qeyd etmişlər. Y.Bromley etnososial orqanizmin ayrı-ayrı əlamətləri üzərində dayanaraq iqtisadi birliyi onun ən mühüm əlaməti hesab edir.

V.İ.Kozlov da bu fikirdədir ki, etnososial orqanizmin həyatında iqtisadiyyat böyük rol oynayır.

Elmi ədəbiyyatda millət anlayışını etnososial orqanizm kimi qəbul edirlər. Y.Bromley də həmçinin bu məsələyə müsbət mövqedən yanaşır. O hətta qeyd edir ki, əgər millət öz dövlətinə malik deyilsə də, onun müəyyən hakim istehsal münasibətləri və müvafiq sosial əlaqələri mövcuddur[43].

Etnososial orqanizm ərazi, iqtisadi, sosial, mədəni və siyasi birlik əlamətlərinə malikdir. Etnosun inkişafında bu əlamətlərin hər birinin əhəmiyyəti danılmazdır. Digər tərəfdən, etnosu həm də millət kimi qəbul edən tədqiqatçılar aydın göstərirlər ki, millət, millətlərarası münasibətlər məhz bu etnosların fəaliyyətlərinin nəticəsi kimi meydana çıxır. Bu haqda Y.Bromleyin tədqiqatlarında istənilən qədər fikrə rast gəlmək mümkündür. Bu cəhətdən etnosun mahiyyəti ilə bağlı millət və milli münasibətlər məfhumlarının da araşdırılmasının vacibdiyini, cəmiyyətin

[40] Бромлей Ю.В. Этнос и этнография. М.: Наука, 1973, с. 43.

[41] Козлов В.И. Этнос и экономика. Этническая и экономическая общности // Советская этнография, 1979, № 6, с.48.

[42] Гумилев Л.Н. О термине «этнос» // Доклады отделений и комиссий Географического общества СССР. Выпуск, 3. Л.: 1967, с.14.

[43] Бромлей Ю.В. Этнос и этнография. М.: Наука, 1973, с. 45.





həyatında onların üzərinə düşən sosial-siyasi vəzifələri qeyd etməmək olmaz. Y.Bromley eyni zamanda etnik prosesi milli proses kimi, etnoslararası prosesi, yaxud inteqrasiyanı millətlərarası proses və inteqrasiya kimi götürür[44].

Məhz bu anlayışlara istinad edərək qeyd edə bilərik ki, etnik proseslər həm də milli-etnik proseslər kimi götürülüb tədqiq oluna bilər. Etnoslararası proses isə millətlərarası proses kimi çıxış edir. Bu anlayışların mahiyyətinə bir qədər də geniş yanaşsaq, millətlərarası münaqişələrin subyektlərinin məhz etnik birliklər və etnososial orqanizmlərin olduğunu görərik. Yuxarıda qeyd etdiyimiz kimi, etnososial orqanizmlər, başqa sözlə desək, millət etnik əlamətlə yanaşı, həm də ərazi, iqtisadi, sosial və siyasi birliyə malikdir.

Qeyd etdiyimiz kimi, müasir dövrdə etnik inkişafın əsas təmayülü etnik birləşmədir. Son nəticədən asılı olaraq etnik birləşmə prosesləri çərçivəsində etnoslararası konsolidasiya, etnosdaxili konsolidasiya, etnik assimilyasiya, etnoslararası inteqrasiya və etnogenetik miksasiya fərqləndirilir.

Etnoslararası konsolidasiyanın müxtəlif prosesləri bəzən bir-birindən seçilən tarixi, sosial-iqtisadi, etnik və təbii proseslər əsasında keçir ki, bunlar da həmin proseslərin sürətinə, arxitektonikasına, miqyasına təsir göstərir[45].

Konsolidasiya prosesinin sürəti əhalinin sosial-iqtisadi inkişafının səviyyəsindən və onun ayrı-ayrı hissələri arasındakı təsərrüfat əlaqələrinin intensivliyindən, ölkənin siyasi statusun-

[44] Бромлей Ю.В. Этнос и этнография. М.: Наука, 1973, s.153, 159.

[45] Dünya xalqları. Tarixi-etnoqrafik ensiklopedik məlumat kitabı / R.H.Zeynalovanın redaktəsi ilə. Bakı: «Azərbaycan ensiklopediyası» NPB. 1998, s. 10.

dan, konsolidasiya prosesində iştirak edən qrupların yayılma səciyyəsindən, etnik strukturun mürəkkəbliyi səviyyəsindən, qovuşan etnik birliklərin dilinin, mədəniyyətinin, dininin və irqinin yaxınlığı dərəcəsindən, ədəbi dilin olub-olmamasından və s. asılıdır[46].

Etnik birləşmə prosesləri növlərindən biri də etnoslararası inteqrasiyadır. Bunun mahiyyəti ondan ibarətdir ki, bir ölkə və ya hər hansı iri bölgə daxilində bir-birindən dilinə və mədəniyyətinə görə əhəmiyyətli dərəcədə fərqlənən etnoslar qarşılıqlı əlaqələr nəticəsində ümumi xüsusiyyətlərə malik olurlar. Belə proses nəticəsində yeni etnoslar formalaşmır, yalnız etnoslararası və ya metaetnik birliklər əmələ gəlir ki, onların da vahid xalq kimi birləşməsi yalnız uzaq perspektivdə mümkün ola bilir. Etnogenetik miksasiya etnoslararası inteqrasiya proseslərinin özünəməxsus davamıdır. Bu prosesin gedişində qohum olmayan xalqlar birləşərək yeni etnos yaradırlar[47].

Akademik Ə.Daşdəmirov milli ideya və etnikliyi qarşılıqlı şəkildə tədqiq edərək maraqlı mülahizələr irəli sürmüşdür. Xüsusilə, Azərbaycan gerçəkliyini əsas götürən tanınmış filosof respublikamızda ilk dəfə olaraq etnik millətlə siyasi millət arasındakı nisbətin tədqiqinə böyük diqqət yetirmişdir.

Keçən əsrdə 80-ci illərin axırlarından başlayaraq 90-çı illərin əvvəllərində etnik millət kimi qəbul etdiyimiz azərbaycanlıların cəmiyyətdə sürətlə gedən ictimai-siyasi proseslərin təsiri və təzyiqi altında necə bir mütəşəkkil siyasi millətə çevrildiyi prosesini tədqiq edən Ə.Daşdəmirov belə bir qənaətə gəlir ki, bu illər millətin həyatında tarixi məktəb rolunu oynayıb. Azərbaycanın dövlət müstəqilliyinin dirçəlişi uğrunda mübarizə başlıca dərs olaraq milləti formalaşdırıb[48].

[46] Dünya xalqları. Tarixi-etnoqrafik ensiklopedik məlumat kitabı / R.H.Zeynalovanın redaktəsi ilə. Bakı: «Azərbaycan ensiklopediyası» NPB. 1998, s.10

[47] Yenə orada, s.10.





Həmin dövrdə cəmiyyətdə gedən etnosiyasi proseslər millətin siyasi səfərbərliyində qüdrətli amilə çevrilmişdi, cəmiyyətin aparıcı qüvvələrinin, eləcə də bütün xalq kütlələrinin vətənpərvərliyinin coşğun yüksəlişi təkcə Qarabağ münaqişəsi ilə yox, həm də ümumiyyətlə, keçmiş sovet dövründə həm milli məsələ, həm də sosial-iqtisadi və mənəvi məsələlərin yığılıb qalması, həll olunmaması, səbr kasasının aşıb-daşması ilə əlaqələndirilməlidir. Məhz bu dövrdə milli dövlətçilik və respublikanın suverenliyi şüarı və ideyası, əhalinin başlıca stimul kimi Dağlıq Qarabağın müdafiəsi ideyası ətrafında birləşməsi bütün millətin potensial siyasi fəallığı əsasında baş verirdi. Bu dövrdə etnomədəni, yəni milli dəyərlər və rəmzlər xüsusi siyasi əhəmiyyətə kəsb etdi. Ölkədə milli ənənələrin dirçəlməsi, dini təsisatların və islami dəyərlərin xalqın həyat tərzində layiqli yer tutması, Azərbaycan dilinin dövlət statusu qazanması, tarixi yaddaşımıza aid bir çox səhifələrin, şəhər və qəsəbələrin tarixi adlarının bərpa olunması bütövlükdə geniş milli inkişaf mərhələsinin başlanğıcından xəbər verirdi. Azərbaycan həyatında bütünlüklə özünü büruzə verən bu proseslər millətin siyasi yetkinliyinin qüdrətli amili kimi çıxış edirdi. Milli-etnik hisslər siyasi məqsədlərlə, siyasi məqsədlər isə etnomədəni, etnotarixi amillərin üst-üstə düşməsi, çulğaşması formasında təzahür edirdi ki, bu da onun siyasi proseslərin başlıca xüsusiyyətlərinə çevrilməsində mühüm

[48] Дашдамиров А.Ф. Национальная идея и этничность. Баку: Азернешр. 2001, с. 87.

rol oynayırdı.

Ə.Daşdəmirov müstəqillik ərəfəsində millətin yüksək etno-siyasi coşqunluğunu vurğulayaraq qeyd edir ki, artıq 1991-1993-cü illərdə ölkədə siyasi və sosial-iqtisadi anarxiya və hakimiyyətsizlik narahatlıq yaradan belə bir tendensiyanı doğurmuşdu: milləti suverenlik uğrunda mübarizəyə qaldıran ideyalar, rəmzlər və dəyərlər artıq yeni tarixi şəraitdə əvvəlki səfərbəredici gücə malik deyildir. Qrupbazlıq, regionçuluq və tayfaçılıq, hətta tayfa-sülalə prinsiplərinə əsaslanan, cəmiyyətdə ayrı-seçkilik yaradan köhnə ənənəvi əlaqələr və münasibətlər həmin ideyaları və dəyərləri sıxışdırıb çıxarmağa başlamışdı. Belə bir vəziyyətdə etnik ideyalar, dəyərlər getdikcə daha çox rəmzi mahiyyət daşıyır, siyasi mədəniyyət və demokratik dəyərlər əvvəlcə oxlokratiya, sonra isə korrupsiya ilə məşğul olub böyük miqdarda pul qazanmaq ehtirası ilə yaşayan hakimiyyətlə əvəz olunur[49].

Akademik Ə.Daşdəmirov yaranmış bu böhran vəziyyətdən çıxış yolunu həmin dövrdə Heydər Əliyevin hakimiyyətə gəlməsində görür. Tanınmış filosof qeyd edir ki, digər keçmiş müttəfiq respublikalarda dövlət və cəmiyyət arasında patriarxal münasibətlərin bərpası sahəsində ictimai-siyasi vəziyyətdə sabitlik əldə edilsə də, cəmiyyətin modernləşdirilməsi, onun demokratik dəyişikliklərə meyl göstərməsi ilə əlaqədar olaraq ölkələrin strateji perspektivləri istiqamətində irəliləyişlər bir qədər ləngimişdir.

Təcrübə göstərir ki, milli siyasətin, eləcə də milli-etnik proseslərin düzgün aparılmaması millətlərarası münasibətlərdə gər-

[49] Дашдамиров А.Ф. Национальная идея и этничность. Баку: Азернешр, 2001, с.88-89.





ginliyin, hətta milli münaqişələrin meydana çıxmasına və inkişafına səbəb olur. Respublikamızda milli münasibətləri və milli siyasət kursunu aydınlaşdıran Azərbaycan Respublikasında Milli Siyasət Məsələləri üzrə dövlət müşaviri Hidayət Orucov qeyd edir: «Milli Siyasət Konsepsiyası üçün mühüm və həyati əhəmiyyət kəsb edən etnoslararası münasibətlərin tənzimlənməsi, pozitiv, bəhrəli məcrada saxlanması sahəsində ardıcıl iş aparılmayıbdır... Etnik tərkibi müxtəlif olan Azərbaycanda milli münasibətlər amilinin vacibliyi nəzərə alınmalıdır»[50].

Ümummilli liderimiz 1993-cü ildə hakimiyyətə gəldikdən sonra ölkədə məhz bu amil xüsusi diqqət mərkəzində saxlanıldı. Hidayət Orucovun dediyi kimi, Azərbaycanda «tarazlı milli siyasət kursu, milli azlıqların ən kiçik qayğılarından tutmuş ciddi sosial problemlərinə qədər bütün məsələlərinin həlli Kremlin barmaq silkələməsinə görə deyil, Heydər Əlirza oğlunun iradəsi, cəsarəti ilə həyata keçirilirdi»[51].

Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışı zamanı millətlərarası münasibətlər nəzarətdən çıxmışdı, etnik qarşıdurma düşmənçilik səviyyəsinə qalxmışdı. Lakin yüksək təşkilatçılıq və siyasi təcrübəsi sayəsində o, qısa vaxt ərzində Azərbaycanda yaşayan milli-etnik qruplar arasında, onlara münasibətdə böyük dönüş yaratdı. Milli azlıqların, bütün etnik qrupların ədəbiyyat, mədəniyyət, dil, tarix, adət və ənənələrinin qorunub saxlanması, inkişaf etdirilməsi diqqət mərkəzinə çıxarıldı. Milli azlıqların mədəni mərkəzləri kommunal xərclər, kirayə haqqı ödənilmədən yerlə təmin olundular. Onların əlifbaları, doğma

[50] Orucov H. Heydər Əliyev və Azərbaycanda milli siyasət. Bakı: Şərq-Qərb. 2001, s.76.
[51] Yenə orada, s.76.

dillərində dərslikləri hazırlandı, kitablarının, qəzetlərinin nəşri üçün dövlət büdcəsindən vəsait ayrıldı, respublika radiosunda, yerli özəl televiziyalarda və qəzetlərdə doğma dillərində veriliş və materiallar hazırlanmasına şərait yaradıldı, müxtəlif konfessiyaların hamısının sərbəst və azad fəaliyyət göstərməsinə tam hüquqi təminat verildi. Elə həmin vaxtdan etibarən Azərbaycanda milli azlıqların spesifik məsələlərinə respublika iqtisadi çətinliklər içərisində yaşamasına baxmayaraq dövlət səviyyəsində kompleks qayğı və diqqətlə yanaşılmağa başladı[52].

Həmin dövrdə Azərbaycanın müstəqilliyinə qarşı çıxan müəyyən qüvvələr milli-etnik proseslərin öyrənilməsini və bundan istifadə edərək apardıqları təbliğat sayəsində milli azlıqlar arasında təxribat işlərini gücləndirməyi qarşılarına məqsəd qoymuşdular. Moskvadan, Sankt-Peterburqdan, Mahaçqala, İrəvan və Tbilisidən milli-etnik proseslərlə məşğul olan mütəxəssislər Azərbaycana ezam olunmuş, burada yaşayan azsaylı xalqları, etnik qrupları məqsədli şəkildə öyrənməyə başlamışdılar. Onların hər biri öz mənafelərini təmin edən əsərlər, monoqrafiyalar yazıb çap etdirmiş, ictimaiyyətdə qeyri-obyektiv rəy yaratmışlar.

Çox təəssüf ki, bu məsələlərə seyrçi münasibət bəslənilmişdir. Azərbaycanın azsaylı etnosları, etnik qrupları haqqında qeyri-elmi, böhtanla dolu «əsərlərin» çap olunaraq yayılması prosesi keçən əsrin 90-cı illərinin ikinci yarısından etibarən daha da güclənmişdir. Professor Q.Cavadov yaranmış bu prosesi tədqiq edərək yazır ki, «ən qorxulusu isə ondan ibarətdir ki, bu əsərlərdə bir tərəfdən Azərbaycanın etnik azlıqlarının hər vasitə

[52] Orucov H. Heydər Əliyev və Azərbaycanda milli siyasət. Bakı: Şərq-Qərb, 2001, s.78-79.





ilə Azərbaycandan, onun köklü əhalisindən tamamilə ayrılması, bu etnosların azərbaycanlılarla genetik baxımdan heç bir uyğunluq, oxşarlığının olmaması ideyası təbliğ edilir, üstəlik ərazimizə, onun bütövlüyünə göz dikilir. Məsələn, erməni tədqiqatçılarının əsərlərində Azərbaycanın qədim etnoslarından sayılan udilər erməni, onların məskunlaşdığı ərazilər isə Ermənistan torpağı olduğu iddia edilirsə, gürcü tədqiqatçıları da inqiloyları öz adı ilə deyil, elə gürcü olduğunu sübut etməyə çalışırlar»[53].

Azərbaycanda milli-etnik proseslərin mahiyyətini saxtalaşdırmağı öz qarşısına məqsəd qoyan ayrı-ayrı təxribatçılar dövlətin bu sahədə fəaliyyətini, yəni milli azlıqların sosial-iqtisadi, milli-mənəvi tələbatını ödəməsi prosesini qeyri-obyektiv şəkildə yayır, Azərbaycan gerçəkliyi haqqında, həyata keçirilən milli siyasət barədə yanlış təsəvvürlər yaratmağa səy göstərirdilər. Bu dövrdə məqsədli şəkildə xalqımıza, ərazimizə, suverenliyimizə qarşı təxribatçılıq işi gücləndirilirdi. Hələ Sovet dövründən başlayaraq bu istiqamətdə fəaliyyət göstərən Dağıstan alimləri sonrakı illərdə öz fəallıqlarını daha da artırmışlar. Məsələn, 1978-ci ildə S.S.Ağaşirinova Moskvada çap etdirdiyi «Материальная культура лезгин в XIX начале XX веков» əsərində Azərbaycanın Quba, Qusar, Xaçmaz, Qonaqkənd, Xudat bölgələrinin ərazilərini ləzgilərin qədim və əzəli torpaqları sayır, Z. və R.Rizvanovlar isə ondan bir qədər irəli gedərək 1990-cı ildə Mahaç-Qalada buraxdıqları «История лезгин» kitabında Dərbənd şəhəri mərkəz olmaqla Azərbaycan ərazilərinin hesabına «Ləzgi dövlətinin bərpa olunması» fikrini irəli sürürdü-

[53] Cavadov Q.C. Azərbaycanın azsaylı xalqları və milli azlıqları (Tarix və Müasirlik), Bakı: Elm, 2000, s. 22-23.

lər[54].

Dağıstan alimlərinin Azərbaycana qarşı bu «səlib yürüşləri» sonrakı dövrdə daha da güclənmişdir. Belə ki, Q.X.İbrahimov adlı bir Dağıstan alimi 1992-ci ildə Moskvada çap etdirdiyi «Dağıstanda dil vəziyyəti və azsaylı etnoslar» adlı əsərində həyasızcasına yazır ki, guya Azərbaycanda buduqlar, qrızlar, xınalıqlar və talışlar bir etnos kimi artıq mövcud deyillər, udilərin sayı isə kəskin şəkildə azalmışdır.

Bu qəbildən olan qaragüruhçu ədəbiyyatın bolluğu belə bir məsələyə də diqqət yetirməyimizə səbəb olmuşdur. Azərbaycana qarşı həyata keçirilən bu cür təxribatçılıq fəaliyyəti ilə məşğul olan alimlərin ixtisası heç də tarix, yaxud humanitar və ictimai elmlərlə məşğul olan şəxslər tərəfindən yox, dəqiq elmlər sahəsində işləyən alimlər tərəfindən yerinə yetirilir. Məsələn, 1995-ci ildə Sankt-Peterburqda nəşr olunan «Кавказская Албания – Лезгистан (история и современность)» kitabının müəllifi H.Əbdürrəhmanov ixtisasca fizikdir. O, yazdığı bu əsərdə, ümumiyyətlə, Azərbaycan adlı dövlətin mövcudluğunu danır, Qafqaz Albaniyasını ləzgi dövləti sayır. Onun maddi və mənəvi mədəniyyətini bütünlüklə ləzgilərə şamil edir. Fizika sahəsində çalışan bu «alim» müasir Azərbaycan Respublikası ərazisinin tarixən ləzgi dövlətinə məxsusluğunu az qala dünya ictimaiyyətinə çatdırmağa çalışır. Azərbaycana, xalqımıza qarşı nifrət ruhunda yazılmış bu kitabda fizik H.Əbdürrəhmanov Azərbaycan tarixçilərinin soykökümüzlə bağlı fikirləri ilə nəinki razılaşmır, həm də burada qeyri-türk mənşəli etnoslara qarşı, o cümlədən ləzgilərə qarşı soyqırım siyasəti yeridildiyini, Azərbaycanın xalqlar həbsxanası olduğunu, xüsusilə ləzgilərin məhv edilməsi siyasəti aparıldığı haqqında dünyaya car çəkir. O, hətta BMT-nin Təhlükəsizlik Şurasına, ATƏT-in dövlət başçılarına ünvanladığı məktubda yazır ki, Rusiyadakı 1917-ci il oktyabr hadisələrindən istifadə edərək, türklər 1918-ci ilin sentyabrında ləzgilərin cənub torpaqlarını zəbt etmiş, Azərbaycan Respublikası yaratmışdılar. Türklər Sovet hakimiyyətinin bütün dövrlərində köklü-aborigen xalqlara qarşı soyqırım siyasəti aparmışlar. Məhz buna görə də Azərbaycan tarix qarşısında durmalıdır, bu dövlət irqçi dövlət kimi tanınmalı və ona qarşı beynəlxalq sanksiyalar tətbiq olunmalıdır[55].

H.Əbdürrəhmanov kimilər qardaş xalqlar arasında düşmən toxumu səpmək istəyir, Azərbaycanın şimal ərazilərində ikinci Qarabağ yaratmağa çalışır[56].

H.Əbdürrəhmanov kimilərin təxribatçılıq fəaliyyətinə layiqincə cavab verən professor Qəmərşah Cavadov belələrinə qarşı ictimaiyyətin gücündən qətiyyətlə istifadə olunmasını təklif edir: «...Əbdürrəhmanov Azərbaycana, onun ərazisinə, xalqımızın mənşəyinə, tarixinə, maddi və mənəvi mədəniyyətinə, milli varlığına, xalqlar dostluğuna qarşı əsassız böhtanlar atmışdır. Ona görə də respublika ictimaiyyəti bütün bunlara əsaslı, düşünülmüş şəkildə tutarlı cavab verməlidir»[57].

Milli-etnik proseslərin tədqiqindən danışarkən, qeyd etməliyik ki, sovet dövründə Azərbaycanda yaşayan azsaylı xalqla-

[54] Cavadov Q.C. Azərbaycanın azsaylı xalqları və milli azlıqları (Tarix və Müasirlik), Bakı: Elm, 2000, s.23.

[55] Абдурахманов Г. Кавказская Албания – Лезгистан (история и современность). Санкт-Петербург: Наука, 1995, с.466-468.

[56] Ахундова Э. Второй Карабах на берегах Самура? Газ. «Вышка», Баку, 1993, 9 январь.

[57] Cavadov Q.C. Azərbaycanın azsaylı xalqları və milli azlıqları (Tarix və Müasirlik), Bakı: Elm, 2000, s.24-25.

rın, ümumiyyətlə, etnik qrupların həyat və fəaliyyəti ilə bağlı tədqiqatlar demək olar ki, aparılmayıb. Bir etnoqraf alim kimi bu məsələni diqqət mərkəzində saxlayan professor Q.Cavadov haqlı olaraq qeyd edir ki, əgər Azərbaycan tarixçiləri, filosofları, etnoqrafları vaxtında respublikanın azsaylı xalqları, etnik qruplarının hər biri, o cümlədən ləzgilər haqqında monoqrafiyalar, elmi kütləvi kitablar yazıb, bu etnosların tarixini, etnoqrafik xüsusiyyətlərini, respublikada milli durumu, eləcə də bu azlıqların nümayəndələrinin Azərbaycanın ictimai-siyasi və mədəni həyatında oynadıqları rolu, iştirakını, yüzlərlə ləzginin və qeyri-azsaylı xalqların nümayəndələrinin Elmlər Akademiyası sistemində, ali və orta ixtisas məktəblərimizdə azərbaycanlılarla çiyin-çiyinə işləyib-yaratdıqları haqqında kitablar yazıb geniş xalq kütləsinə çatdırmış olsaydılar, Əbdürrəhmanov kimilərin yalan və uydurmalarına bu gün yer qalmazdı»[58].

Etnosiyasi proseslərin öyrənilməsi hər bir ölkənin, dövlətin həyatı üçün çox zəruridir. Bir ölkə daxilində yaşayan etnik amillərin ümumiliyi, eləcə də fərdi xüsusiyyətlərə malik olması hərtərəfli öyrənilməlidir ki, dövlətin inkişafında onların yeri və rolu düzgün qiymətləndirilə bilsin. Professor Ramiz Mehdiyev haqlı olaraq qeyd edir ki, bir mühitdə uzun müddət yaşayan insanlarda bəzi ümumi psixologiya xüsusiyyətləri yaranır, ümumi vərdişlər, ənənələr, adətlər formalaşır[59].

Etnosiyasi proseslərin mahiyyətində millətlərarası münasibətlərin tənzimlənməsi çox vacib bir vəzifə olaraq qalmaqdadır.

[58] Cavadov Q.C. Azərbaycanın azsaylı xalqları və milli azlıqları (Tarix və Müasirlik), Bakı: Elm, 2000, s. 25.

[59] Мехтиев Р.А. Межнациональные отношения на исходе XX столетия: проблемы теории и политики.Баку: Азернешр, 1995, с.20.





Şübhəsiz ki, millətlərarası münasibətlərin tənzimlənməsi, yaranmış ziddiyyətlərin həll olunması bu mühüm məsələləri yoluna qoyan dövlət orqanının yaradılmasını tələb edir. Azərbaycan Respublikasında Milli Siyasət Məsələləri üzrə dövlət müşavirliyinin təsis edilməsi ölkə miqyasında milli-etnik proseslərin diqqət mərkəzində saxlanılmasını təmin edir. Etnosiyasi proseslərin tərkib hissəsi kimi ölkənin milli inkişafında mühüm rol oynayan milli-etnik proseslərə son vaxtlarda diqqətin artırılması yaranmış ziddiyyətlərin vaxtında həll olunmasına təsir göstərir, müstəqil respublikanın ictimai-siyasi həyatında, ümumi dövlət quruculuğu prosesində ölkəmizdə yaşayan bütün etnosların yaxından iştirakını təmin edir.

### 1.2. Azərbaycanda etnosiyasi proseslərin səciyyəvi cəhətləri

Siyasətşünaslıq və etnosiyasi problemlər içərisində prioritet qazanan məsələlər arasında milli-etnik və etnosiyasi proseslər xüsusi yer tutur. Sosial-siyasi və kulturoloji bir kateqoriya olan etnos, onun siyasi geopolitik problemlər içərisindəki yeri və rolu tarixçiləri, politoloqları və filosofları düşündürən problemlərdəndir. Çünki müasir şəraitdə etnik münaqişə dedikdə, müxtəlif millətlər və etnik qruplar arasında bu və ya digər səbəblərdən baş verən, zorakı üsullardan və vasitələrdən istifadə edilməklə aparılan mübarizə nəzərdə tutulur.

Müasir dünyanın çoxmillətli ölkələrində milli amilin rolu durmadan artır. Bir tərəfdən Avropada bu sahədə ikili proses gedir: Qərbi Avropa xalqlarının iqtisadi və siyasi sahədə əməkdaşlığının güclənməsi, Şərqi Avropa xalqlarının suverenlik əldə etmələri və onların möhkəmlənməsi prosesi baş verir, digər

tərəfdənsə Afrikada və Asiyada millətlərin isə yaranıb inkişaf etmələri faktı ilə birlikdə onlar arasında milli-etnik ziddiyyətlərin dərinləşməsi prosesi davam edir. Bu proses çoxmillətli ölkələr üçün daha səciyyəvi mahiyyət daşıyır. Keçmiş Çexoslovakiyanın iki yerə - Çexiya və Slovakiyaya parçalanması, SSRİ-nin müxtəlif milli respublikalara bölünməsi, Ukrayna, Moldova və Orta Asiyanın, Şimali Qafqaz xalqlarının ərazi məsələlərinin hələ də həll olunmaması, xüsusilə Ermənistanla Azərbaycan arasında münaqişənin vaxtında həll edilməməsi, bu prosesin uzanması, Kanadada kvebek probleminin, Hind-Çində milli ziddiyyətlərin inkişafı, Mərkəzi və Cənubi Amerika xalqlarının qarşıdurması və s. məsələlər müasir şəraitdə milli-etnik münaqişələrin tezliklə həll oluna bilməyəcəyindən xəbər verir.

Bu onu göstərir ki, milli-etnik problemlər bir sıra hallarda vahid cəmiyyətdə detanator rolunu oynayır və çoxmillətli cəmiyyəti dağıtmağa xidmət edir. Bunlarla yanaşı, bir sıra ölkələrdə isə əksinə, xüsusən, Avropada bu sahədə xeyli irəliləyişlər əldə olunmuş, kiçik etnosların inteqrasiyası prosesi müşahidə edilmişdir.

Belə inteqrasiya nəticəsində çoxmillətli ölkələrdə kiçik etnoslar aparıcı etnos tərəfindən assimilyasiyaya məruz qalırlar. Hakim çoxsaylı etnoslar kiçik və azsaylı etnoslar hesabına öz etnik coğrafiyalarını daha da genişləndirir.

Dünyada gedən etnik proseslərin öyrənilməsi və bu barədə dolğun məlumatların əldə edilməsi üçün etnosların bugünkü vəziyyəti ilə yanaşı onların mənşəyini, tarixini də bilmək vacibdir. Ona görə də bu məsələ genişliyi ilə coğrafi və tarixi biliklərin daha da dərinləşdirilməsini tələb edir. Unutmaq





olmaz ki, etnogenez problemi həssaslıq, dərin elmi təhlil və diqqət tələb edən bir məsələdir və bu məsələdə tələskənliyə, süni metodlarla nəticələr çıxarılmasına yol vermək olmaz. Nəzərə almaq lazımdır ki, müasir dünya xalqlarının əksəriyyəti uzun tarixi inkişaf yolu keçmişlər və bu yol heç də həmişə hamar olmamışdır. Etnik inkişafda yerdəyişmələr, ziqzaqlar, qalxıb-enmələrlə yanaşı tarixi, siyasi və təbii amillər də mühüm rol oynamışdır. Belə ki, etnik inkişaf tarixinə müharibələr və iqtisadi dəyişikliklərlə bərabər təbii dünyəvi proseslər, zəlzələ və uçqunlar, epidemioloji xəstəliklər də təsir göstərmişlər[60].

Müasir dünyada etnoslar və etnik proseslər mühüm məna kəsb etdiyindən bu, yalnız mütəxəssisləri, siyasət adamlarını deyil, geniş əhali kütləsini də ciddi maraqlandırır. Dünya əhalisinin sayının 6 milyard nəfərə çatması və onun etnik, mədəni, irqi, dini və dil baxımdan olduqca fərqləndiyini nəzərə alsaq bu məsələnin nə qədər əhəmiyyətli olduğunu təsəvvürə gətirmiş olarıq[61].

Son illərdə beynəlxalq miqyasda qəbul edilmiş bir sıra hüquqi aktlar və sənədlər bu kimi halların aradan qaldırılması yolunda xeyli işlər görmüşdür. Bu sənədlərdə göstərilir ki, milli azlıqların hüquqlarının pozulması yolverilməzdir. Bununla belə milli azlıqların müstəqillik hərəkatı mövcud dövlətlərin sərhədlərinin pozulması hesabına onların parçalanması yolu ilə həll edilə bilməz. Bu, ikili və biri digərilə qarşılıqlı surətdə əlaqədar olan məsələlərdir və onların həlli hakim etnosların

[60] Dünya xalqları. Tarixi-etnoqrafik ensiklopedik məlumat kitabı / R.H.Zeynalovanın redaktəsi ilə. Bakı: «Azərbaycan ensiklopediyası» NPB. 1998, s.8.

[61] Yenə orada, s.8.

maraq və mənafelərinin zərərinə həll olunmamalıdır. Burada ortaq məxrəc tapılmalı və kompromis variantlar tətbiq olunmalıdır. «Азербайджан XXI век» qəzetində (2-8 mart 2001-ci il, № 22) Rusiyanın Dövlət Dumasında "Rusiya Federasiyasının dövlət milli siyasətinin əsasları" haqqında federal qanunun layihəsinin qəbul edilməsi haqqında maraqlı məlumat verilmişdir. Bu layihə haqqında Dumanın milli məsələlər üzrə aşağı palatasının sədri Valentin Nikitin açıqlama vermişdir. O qeyd etmişdir ki, hazırda Rusiyada 176 millətin və xalqın nümayəndəsi yaşayır. Onlar üçün ölkənin milli təhlükəsizliyi əsas məsələdir. Bu istiqamətdə üç əsas tezis irəli sürülmüşdür:

Birinci, rus xalqı Rusiya Federasiyasının əsas millətlərindən biri olub onun dövlətçiliyinin əsasında dayanır və rus dövlətçiliyinin inkişafı üçün məsuliyyət daşıyır;

İkinci, Rusiya Federasiyası subyektlərinin heç birində rus xalqına milli azlıq kimi baxmaq olmaz;

Üçüncü, rus xalqının xüsusi məsuliyyət daşıması heç də digər xalqların hüquqlarına xələl gətirmir.

Dövlət Dumasının deputatı Əbdül Valid Niyazov öz çıxışında Rusiyada yaşayan türk-tatar və islam etnik mənşəli xalqların roluna xüsusi diqqət yetirilməsi zəruriliyini vurğulamış və bu regionda dövlətçiliyin inkişafında pravoslavlığın və islamın xüsusi əhəmiyyət kəsb etdiyini göstərmişdir.

Tədqiq olunan mövzu ilə bilavasitə bağlı olan məsələlərin Rusiya Federasiyasının Dövlət Dumasında məhz bu cür qoyuluşu keçmiş SSRİ daxilində olub bu gün müstəqilliklərini möhkəmləndirən milli respublikalarda da bu məsələyə məhz bu mövqedən yanaşmağı tələb edir. Bu baxımdan qeyd etmək olar





ki, Azərbaycan Respublikasının əsas millətlərindən biri olan Azərbaycan türkləri onun dövlətçiliyinin əsasında dayanır və bu dövlətçiliyin inkişafı üçün məsuliyyət daşıyır.

Dünyanın hər bir bölgəsi olduqca özünəməxsus etnik inkişafa malikdir ki, bu da bölgənin özünün tarixi, sosial-iqtisadi inkişaf səviyyəsinin müxtəlifliyi, etnik strukturun xüsusiyyətləri və bir çox başqa amillərlə şərtləndirilir[62].

Fikrimizcə, Rusiya Federasiyasının Dövlət Dumasında səslənən yuxarıdakı fikirdən fərqli olaraq, Azərbaycan Respublikasında yaşayan bütün azsaylı xalqlar, milli azlıqlar, etnik qruplar dövlətçiliyimizin qorunub saxlanması, inkişafı və möhkəmlənməsi üçün məsuliyyət daşıyır. Böyüklüyündən və kiçikliyindən asılı olmayaraq, onlar eyni, bərabər hüquqlara malik olub etnos kimi yaşayır və respublikanın ümumi ictimai-siyasi həyatında iştirak edirlər.

Əvvəlki paraqrafda qeyd etdiyimiz kimi, etnos özünün başqalarından fərqini ayırd edən, dil, din, adət-ənənə, psixoloji ümumilik, ümumi həyat tərzi, müəyyən coğrafi və siyasi məkana malik hissləri özündə birləşdirən insanların sabit birliyidir.

İnsanların müxtəlif etnoslara bölünməsi məsələsi müqəddəs dini kitablarda da öz əksini tapmışdır. Məsələn, Bibliyada deyilir: "Allah millətləri hökmdarların iradəsi xaricində yaratmışdır. Ona görə də onlar müxtəlifdirlər". "Qurani-Kərim" də isə deyilir ki, Allah insanları müxtəlif millətlər şəklində yaratdı və onların hər birinə ayrı-ayrı dillər

---

[62] Dünya xalqları. Tarixi-etnoqrafik ensiklopedik məlumat kitabı / R.H.Zeynalovanın redaktəsi ilə. Bakı: «Azərbaycan ensiklopediyası» NPB. 1998, s.11.

verdi ki, onlar bir-birləri ilə danışa bilsinlər. Söz yoxdur ki, dinə görə ilk bəni-insan Adəm-Əbül-Bəşər olmuşdur və hamı ondan törəmişdir. Lakin zaman keçdikcə insanlar artmış, çoxalmış, ailələr, qəbilə və tayfalar, xalqlar və millətlər yaranmışdır.

Filogenez elmi təsəvvürlərə görə ilk hominidlərin – insanların müxtəlifliyi, məsələn, pitekontropların, sinantropların, neandertal insanların və s. müxtəlif coğrafi məkanlarda yaranması sonradan milli fərqlərin yaranması mənbəyini təşkil edir və elə məhz buna görə də tutaq ki, avropalı ailəsindən çinli dünyaya gəlmir.

Ailədən sonrakı tarixi insan birliklərində, məsələn, qəbilədə endogen münasibətlərdən ekzogen münasibətlərə keçid onların tayfalar şəklində birləşməsinə səbəb olmuşdur. Daha sonra iri tayfa birlikləri xalqlar şəklində formalaşmış, onlara ünsiyyət xidmətini yerinə yetirən dil ailələri yaranmışdır.

Biogenetik və sosiogenetik amillərin təsiri altında insanların bədən quruluşunda, fizionomiyalarında, rənglərində müəyyən fərqlər meydana gəlmişdir və bu da onların irqi ölçülərlə, meyarlarla qiymətləndirilmələrinə səbəb olmuşdur.

Lakin milli-etnik fərqlər irqi fərqlər deyil. Milli-etnik fərqlərin kökündə ESO – etno-sosial orqanizm dayanır. Buraya dil, psixologiya, mədəniyyət, sosial amillər daxildir. Biososial amillərin vəhdətini özündə birləşdirən insan bu xüsusiyyəti müəyyən mənada etnik fərqlər üçün də transfer etmişdir. Yeni etnoslar bir tərəfdən geosferanın, digər tərəfdən isə sosiumun təsiri dairəsindən kənara çıxa bilməmişlər. Ona görə də onun fərqləndirilməsi kökündə bu və ya digər amilin rolunun həddindən artıq şişirdilməsi, digərinin rolunun isə azaldılması faktları elmi sayıla bilməz. Hər iki amil burada iştirak edir və





onlar etnik müxtəlifliyin əsasında dayanır.

Azərbaycanda etnosiyasi proseslərin inkişaf tendensiyası 16 sentyabr 1992-ci il tarixində Azərbaycan Respublikasının Prezidentinin verdiyi «Azərbaycan Respublikasında yaşayan milli azlıq, azasaylı xalq və etnik qrupların hüquq və azadlıqlarının qorunması, dil və mədəniyyətinin inkişafı üçün dövlət yardımı haqqında» fərmanda aydın göstərilmişdir[63].

Bu mühüm dövlət sənədində milli azlıq, azsaylı xalq və etnik qrupların sosial-mədəni problemlərinin həll edilməsi, maddi və mənəvi mədəniyyətlərinin, dil və dinlərinin, adət və ənənələrinin qorunub saxlanması, bu sahədə elmi tədqiqat işlərinin aparılması müvafiq təşkilatlara və eləcə də Elmlər Akademiyasının rəhbərliyinə bir vəzifə olaraq tapşırılmışdır. Fərmanda həmçinin Azərbaycanda yaşayıb-yaradan rus, yəhudi, ləzgi, talış, kürd, avar, udi və başqa etnosların və digər etnik qrupların mədəniyyət mərkəzlərinin açılması, bu etnosların dillərində radioda gündəlik informasiyaların verilməsi, azsaylı etnosların məişətini əks etdirən verilişlərin hazırlanması, azsaylı xalqların dillərində mətbuat orqanının çap edilməsi xüsusi olaraq qeyd edilmişdir[64].

Bu fərmana müvafiq olaraq respublikamızda həm aborigen, həm də müxtəlif vaxtlarda Azərbaycanda

[63] «Azərbaycan Respublikasında yaşayan milli azlıq, azsaylı xalq və etnik qrupların hüquq və azadlıqlarının qorunması, dil və mədəniyyətlərinin inkişafı üçün dövlət yardımı haqqında» Azərbaycan Respublikasının Prezidentinin fərmanı. «Xalq qəzeti». Bakı, 1992, 20 sentyabr.

[64] «Azərbaycan Respublikasında yaşayan milli azlıq, azsaylı xalq və etnik qrupların hüquq və azadlıqlarının qorunması, dil və mədəniyyətlərinin inkişafı üçün dövlət yardımı haqqında» Azərbaycan Respublikasının Prezidentinin fərmanı. «Xalq qəzeti». Bakı, 1992, 20 sentyabr.

məskunlaşdırılmış qeyri-aborigen etnosların tarix və mədəniyyətinin, məişət və həyat tərzinin, eləcə də etnosiyasi problemlərinin araşdırılmasına elmi maraq xeyli artmışdır. Məhz bu fərmandan sonra respublikada müxtəlif etnosların mədəniyyət mərkəzləri açılmışdır. Tədqiqatçılardan V.Piriyev[65], Q.Cavadov[66], R.Hüseynov[67], Ə.Tağıyev[68], Ə.Daşdəmirov[69] və bir çox başqaları etnosiyasi proseslərlə bağlı tədqiqatlar aparmışlar.

Bundan əlavə, 19-20 aprel 1994-cü il tarixində keçirilən Respublika elmi-praktik konfransında məhz milli azlıqların və azsaylı xalqların etnosiyasi problemlərinin öyrənilməsinin vacibliyi qeyd olunmuşdur. Konfransın çap olunmuş materiallarında respublikamızda milli-etnik proseslərin müxtəlif problemləri öz əksini tapmışdır. Respublikamızın aparıcı alimləri, digər kateqoriyadan olan ziyalılar konfransın işində iştirak etmişlər[70].

Konfransı Azərbaycan Respublikası Prezidenti Aparatının Milli Siyasət şöbəsi keçirmişdir ki, bu da dövlət strukturlarının bu mühüm problemə diqqətlərinin xeyli artırmasına səbəb olmuşdur.

Milli azlıqların, eləcə də respublikamızda yaşayan bütün

[65] Buduqlu (Piriyev) V. Buduq və buduqlular. Bakı: Sabah, 1994, 137 s.
[66] Cavadov Q.C., Hüseynov R.Ə. Udilər (Tarixi-etnoqrafik tədqiqat). Bakı: Azərbaycan nəşriyyatı, 1996, 240s.
[67] Yenə orada.
[68] Tağıyev Ə.M. Etnik siyasət. Bakı: İnam plüralizm mərkəzi, 1997, 28 s.
[69] Дашдамиров А.Ф. Национальная идея и этничность. Баку: Азернешр, 2001, 154 с.
[70] Azərbaycan Respublikasının milli siyasəti: problemlər, perespektivlər // Respublika elmi-nəzəri konfransının materialları. Bakı 19-20 aprel 1994-cü il. Bakı: «Azərbaycan» nəşriyyatı, 1994, s.1-94.





etnik qrupların hüquqları qorunur. Respublikamızda belə təminat dövlət səviyyəsində verilmişdir. Belə ki, 12 noyabr 1995-ci il tarixində qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında göstərilir ki, Azərbaycan xalqı vahiddir. Azərbaycan xalqının vahidliyi Azərbaycan dövlətinin təməlini təşkil edir. Azərbaycan Respublikası bütün Azərbaycan Respublikası vətəndaşlarının ümumi və bölünməz vətənidir[71]. Konstitusiyanın «Əsas hüquqlar, azadlıqlar və vəzifələr» bölməsində əsas insan və vətəndaş hüquqları və azadlıqlarına aid təsbit olunmuş maddələrin demək olar hamısı respublikamızın bütün vətəndaşlarına, o cümlədən milli azlıqlara və etnik qruplara şamil olunur. Məsələn, Konstitusiyanın 25-ci maddəsinin 3-cü bəndində qeyd olunur ki, «Dövlət irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, dil, cinsi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır»[72].

Milli-etnik mənafelərin optimal şəkildə uzlaşdırılması günümüzün ən vacib reallıqlarından biridir. Azərbaycan çoxmillətli ölkədir və bu qəbildən olan başqa dövlətlərdə olduğu kimi, burada da millətlərarası münasibətlər siyasi həyatımızın mühüm hissəsi, milli siyasət isə bütövlükdə dövlət siyasətinin üstün istiqamətlərindən biridir. Ona görə də milli

[71] Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2001, s.9.
[72] Yenə orada, s.4.

siyasət, onun prinsipləri, milli məsələnin həlli yolları, milli azlıqlar və s. xüsusi diqqət tələb edən problemlərdəndir. Sosial münasibətlərin spesifik formalarından biri olan milli münasibətlər mürəkkəb sosial, siyasi və mənəvi münasibətlərin bir cəhəti kimi təzahür edir.

Milli münasibətlərin spesifikliyi isə milli xüsusiyyətlərdən irəli gəlir. Milli münasibətlər sistemində həlledici rol siyasi amillərə məxsusdur. Bu hər şeydən əvvəl, millətin formalaşması və onun inkişafının mühüm amili olan dövlətin əhəmiyyəti, milli və sosial-siyasi proseslərin daxili əlaqəsi ilə şərtlənir. Milli münasibətlərin milli özünüdərketmə, milli və ümumbəşəri mənafelərin əlaqələndirilməsi, millətlərin hüquq bərabərliyi, milli dillərin və mənafelərin inkişafı üçün şərait yaradılması, milli kadrların hazırlanması və hakimiyyət stukturlarında onların təmsil edilməsi və s. kimi məsələlər bilavasitə siyasət sahəsinə daxildir. Real həyatda millətlərin və xalqların qarşılıqlı münasibətlərinin bütün cəhətləri siyasi səciyyə daşıyır.

Bəşəriyyət tarixində millətlərarası münasibətlərin təkmilləşdirilməsi problemi heç bir dövrdə bugünkü qədər aktual əhəmiyyət kəsb etməyib. Əvvəla, bu ilk növbədə zəmanəmizdə gedən ictimai-siyasi proseslərlə sıx bağlıdır, yəni real həyat özü bu problemin öyrənilməsi, yaxşılaşdırılması və təkmilləşdirilməsi yollarını irəli sürüb. Digər tərəfdən, keçmiş Sovetlər Birliyi dövründə yığılıb qalmış, obyektiv, həm də subyektiv mülahizələr səbəbindən həll olunmayan, elə buna görə də getdikcə artan və milli münaqişələrə, millətlərarası müharibələrə gətirib çıxaran bəzi məsələlər diqqətlə, həssaslıqla araşdırılmalı, xalqların və millətlərin bərabər hüquq əsasında yaşamalarını





təmin edən sosial-iqtisadi, sosial-mədəni zəmin hazırlanmalıdır.

Təcrübə göstərir ki, millətlərarası münasibətlərin xarakteri onların mövcud olduğu siyasi sistemdən asılıdır. Məsələn, keçmiş SSRİ-də formalaşmış inzibati-amirlik sistemi cəmiyyətin həyatının bütün tərəflərinə mənfi təsir göstərmiş, ictimai tərəqqi siyasi institutların geriliyi və bürokratlaşması ilə getdikcə daha da sıxışdırıldı. Millətlərin həyatının qurulması barədə demokratik ideyaların köməyi ilə hakimiyyətə gələn bolşeviklərin qurduqları siyasi sistemdə bu ideyalar inkar edilmişdir. Mövcud siyasi sistem digər sahələrdə olduğu kimi, milli-etnik münasibətlər sahəsində də böhranın qarşısını almaq, yaxud aradan qaldırmaq imkanında olmamışdır. Məhz bütün bunlara görə də həyat özü Sovet cəmiyyətinin sosial-siyasi təşkilində milli respublikaların və onlarda yaşayan xalqların müstəqil inkişafını, onların potensialının tam açılmasına imkan verən fundamental keyfiyyət dəyişikliklər barədə məsələni ortaya qoymuşdur. Bu baxımdan əsas vəzifələrdən biri millətləri siyasi proseslərin mərkəzinə keçirmək, hakimiyyət və idarəetmə sistemində onların rolunu bərpa etmək, qarşılıqlı etimad və milli dəyərlərə hörmət prinsipləri əsasında bərahüquqlu əməkdaşlığın möhkəmlənməsi üçün şəraitin təmin edilməsidir.

R.Mehdiyevin fikrincə, milli münasibətlər sahəsində siyasi sistemin islahatı aşağıdakı problemləri əhatə etməlidir:

- bütün milli azlıqların hamısına eyni hüquqların təmin edilməsi, hər bir millətin, milli-etnik qrupun spesifik maraqlarının ödənilməsi;
- milli dil və mədəniyyətlərinin azad inkişafı üçün şəraitin yaradılması;

- vətəndaşların milli əlamətə görə hüquqlarının pozulmasını istisna edən təminatların möhkəmləndirilməsi;

- millətlərarası ünsiyyətdə hər bir xalqın tarixi ənənələrinə və milli spesifikasına qarşılıqlı hörmət və ehtiramlarının, iqtisadi və mənəvi maraqlarının nəzərə alınmasının təsdiq edilməsi[73].

Xalqların və millətlərin sosial-iqtisadi, sosial-mədəni həyatında yığılıb qalmış problemləri öyrənmədən, milli xüsusiyyətləri nəzərə almadan, millətlərarası münasibətləri doğuran səbəbləri dərindən araşdırmadan, ümumiləşdirib obyektiv nəticə çıxarmadan milli münasibətlərin tənzimlənməsini, sabit qaydada inkişafını təmin etmək çətindir.

XX əsr öz ömrünü milli münaqişələrin toqquşmasından irəli gələn amansız müharibələrlə başa vurdu. İstər respublikamızda, istərsə də dünyanın bir sıra regionlarında milli münaqişələrin artması nəticəsində minlərlə insan tələfatı, nəsillərin, millətlərin soyqırımı, iqtisadiyyatın, şəhərlərin, kəndlərin, yaşayış məskənlərinin dağıdılması, məhv olması baş verdi. Dünyanın mütərəqqi fikirli adamları, humanizm və demokratiya mövqeyində duran bir sıra təşkilatlar bütün qüvvələrini, bacarıq və səylərini milli zəmində baş verən müharibə ocaqlarının söndürülməsinə, onları doğuran səbəblərin araşdırılmasına sərf edirlər. Bu, çox mütərəqqi, xalqlara və millətlərə dərin inam və ümid hissi aşılayan bir missiyadır.

İkinci Dünya müharibəsindən sonra dinc, əmin-amanlıq şəraitində yaşayan xalqlar və millətlər bu gün qarşıdurma,

[73] Мехтиев Р.А. Межнациональные отношения на исходе XX столетия: проблемы теории и политики.Баку: Азернешр. 1995, с.98.





səfalət, sabaha inamsızlıq, çox vaxt alçaldılmış, təhqir olunmuş bir vəziyyətdə həyat sürürlər. İqtisadi əlaqələrin pozulması, siyasi sabitsizlik, yaranmış inflyasiya və böhran, işsizliyin adi normaya çevrilməsi, mövcud qıtlıq, qiymətlərin durmadan artması bütövlükdə həyata keçirilən sosial-iqtisadi, sosial-mədəni siyasətin ümumi keyfiyyətinə, həm də millətlərarası münasibətlərin təkmilləşdirilməsi sahəsində qarşıya çıxan, daha doğrusu, məqsədyönlü şəkildə qoyulan, nəzərdə tutulan ümdə proqramın yerinə yetirilməsinə mənfi təsir edir.

Təcrübə göstərir ki, əleyhdarlarımız belə vəziyyətdən bacarıqla istifadə etməyə çalışırlar. Onlar öz məqsədlərinə çatmaq naminə xalqları və millətləri qızışdırır, bir-birinə qarşı qoyur, çox vaxt milli-demokratik prosesin genişlənməsindən sui-istifadə edərək ərazi, dil, milli muxtariyyət məsələlərini ön plana çəkir, eyni ərazidə uzun illər boyu qardaş kimi yaşayan xalqların və millətlərin sadəlövh, dünyagörüşcə məhdud, təcrübəsiz, burnunun ucundan uzağı görə bilməyən ayrı-ayrı nümayəndələrinin məsuliyyətsiz və düşünülməmiş hərəkətləri üzündən onların mənəviyyatını zəhərləyir, aralarına nifaq toxumu səpirlər. Sonra isə kənarda dayanıb onları istiqamətləndirir, hətta lazım gələrsə, maddi vəsaitlə təmin edirlər ki, qarışıqlıq yaratsınlar, cəmiyyətin ümumi ahəngini pozsunlar və bununla da öz mənfur məqsədlərinə nail olsunlar.

Milli istiqlaliyyətimizin getdikcə daha da möhkəmlənməsi, dünya ölkələri ilə bərabərhüquqlu bir dövlət kimi bütün sahələr üzrə müstəqil danışıqların aparılması yaxın gələcəkdə keçmiş ittifaq ərazisində, habelə Şərqdə yeni, qüdrətli bir dövlətin meydana çıxacağını duyan həm keçmiş ittifaqın rəhbərliyi, həm də onların bəzi tərəfdarları Azərbaycanda yeni milli

münaqişələrin yaranması üçün əllərindən gələni əsirgəməmişlər.

Müasir dövrdə xalqların və millətlərin milli oyanışı ölkədə, eləcə də dünyada gedən milli-demokratik prosesin qanunauyğun nəticəsidir. Milli oyanış, milli özünüdərketmə hər bir xalqın və millətin ümumi inkişafında mütərəqqi bir hadisədir. Milli oyanış, milli özünüdərketmə heç də milli eqoizmə, milli fərdiyyətçiliyə aparmamalıdır. Bu, çox qorxulu haldır. Çünki milli eqoizmin mövcud olduğu yerdə bütün mütərəqqi xüsusiyyətlər arxa plana keçir, onların yerini sırf millətçilik meyllərindən irəli gələn, həm başqa millətlərə və xalqlara, həm də elə həmin millətin özünə xas olmayan yabançı xüsusiyyətlər tutur ki, bu da millətlər və xalqlar arasında milli nifaqın yaranmasına səbəb olur.

Bu haqda respublikamızda 21-24 aprel 1999-cu il tarixində «Milli özünüdərketmə» mövzusunda keçirilmiş beynəlxalq elmi kollokviumda ətraflı danışılmışdır[74].

Millilik və millətçilik arasında bir addım məsafə olsa da, məzmun, mahiyyət etibarilə bu məfhumların hər ikisi bir-birinə ziddir. Öz milli xüsusiyyətlərini saxlayıb, qoruyub inkişaf etdirmək hər bir xalqın qanuni borcudur. Millilik olmayan yerdə heç bir özünüdərketmə, kökə qayıdış, milli oyanış ola bilməz. Lakin bu millilik ifrat millətçilik səviyyəsinə çatdıqda cəmiyyətdə xoşagəlməz bəlalar törədə bilər, xalqları yaxınlaşdırmaq əvəzinə bir-birindən daha da uzaqlaşdırar, aralarında milli nifaq, ədavət yarada bilər.

90-cı illərin əvvəllərində Azərbaycanda gedən milli-demokratik prosesin boğulmasında xüsusi marağı olan bəzi

[74] Milli özünüdərketmə. Beynəlxalq elmi kollekviumun tezisləri. 21-24 aprel 1999-cu il. Bakı: Azərnəşr, 1999, s.1-260.





qüvvələr azsaylı xalqlar barəsində antidemokratik, antihumanist siyasət yeridirdilər. Respublikamızda gah kürd, gah talış, gah da ləzgi probleminin ortaya atılması bütövlükdə Azərbaycan dövlətini parçalamaq, qarşıdurmanı gücləndirmək, müstəqilliyimizi zəiflətmək məqsədi daşıyırdı. Bu işdə xüsusi marağı olan bədnam qüvvələr çox vaxt Azərbaycan ərazisində güya həmin xalqların, digər etnik azlıqların hüquqlarının tapdanmasını, hətta dillərinin, mədəniyyətlərinin inkişaf etdirilmədiyini, əksinə bu hüquqların onların əllərindən alındığını, assimilyasiyaya məruz qaldıqlarını iddia edirdilər.

Vətənimizdə yaşayan azsaylı xalqlar azərbaycanlılar kimi nəinki öz milli mənsubiyyətlərini qoruyub saxlamış, onlar Azərbaycan xalqının ayrılmaz tərkib hissəsi kimi bütün hüquqlardan bərabər səviyyədə istifadə etmiş, həm də çox mühüm əhəmiyyət kəsb edən başqa bir keyfiyyətə yiyələnmişlər. Hər bir xalq öz milli xüsusiyyətlərini saxlamaqla bərabər, ərazimizdə yaşayan digər xalqların və millətlərin, etnik azlığın həyat tərzində, məişətində, adət və ənənəsində, mədəniyyətindəki bir çox mütərəqqi xüsusiyyətləri əxz etmiş və onları qarşılıqlı şəkildə inkişaf etdirmişdir. Ümumi birgə yaşayış qaydalarına əməl olunan zamanlarda bu xalqlar bir-birinə daha çox yaxınlaşmışlar. Bunun da nəticəsində Azərbaycanda yaşayan etnik azlıqların demək olar ki, hamısı öz müstəqil dillərini, milli-etnik xüsusiyyətlərini saxlamışlar və bu gün də onları inkişaf etdirirlər.

Demokratik qüvvələrin hakimiyyət başına gəlməsi ilk vaxtlar Azərbaycanı düşdüyü bu ağır böhranlı vəziyyətdən, daha doğrusu, parçalanmaqdan xilas etdi. Keçmişdə milli münasibətlər sahəsində buraxılmış nöqsanların tədricən aradan

qaldırılmasına, bu sahədə müəyyən məqsədyönlü işlərin aparılmasına, hər bir xalqın, millətin milli inkişaf meyllərinə qayğı ilə yanaşılmağa başlanıldı. Adi bir həqiqət dərk edildi ki, respublikanın düşdüyü bu ağır vəziyyətdə millətlərarası münasibətlərin yaxşılaşdırılmasında təkcə dövlət deyil, həm də bütün xalq iştirak etməlidir. Çünki bu sahədə öz sözünü qanun, fərman şəklində deyən dövlətin siyasətini həyata keçirən xalqdır. Xalq özü insanlar, millətlər arasında tarixən mənəvi körpü rolunu oynayır, münasibətlərin tənzimləyicisi kimi çıxış edir. Bu baxımdan Azərbaycan ərazisində yaşayan xalqlar, etnoslar və etnik qruplar əsrlər boyu məskunlaşdıqları bu vahid, ümumi evi birgə qorumalı, saxlamalı parçalanmağa qoymamalı, milli əlahiddəliyə doğru çağırışları yekdil mövqedən dəf etməlidirlər. Xalqları qarşı-qarşıya qoymaq, süni ziddiyyətlər yaratmaq məqsədilə törədilən fitnəkarlıq halları qətiyyətlə ifşa edilməlidir, bu mühüm, dövlət əhəmiyyətli işdə mütləq xalqların öz qüvvəsindən istifadə olunmalıdır.

Fransanın Azərbaycandakı keçmiş fövqəladə və səlahiyyətli səfiri Jan Perrən respublikamızda gedən milli-demokratik prossesə öz münasibətini bildirərkən milli münasibətləri zəif binaya bənzətmişdir. Onun fikrincə, bu binanın bir daşı götürülərsə tikili uça bilər.

Lakin bir qədər sonra özlərini demokrat adlandıran bu qüvvəllər ölkədə elə bir vəziyyət yaratdılar ki, Azərbaycanın müstəqilliyi, dövlətçiliyimiz yenidən təhlükə altına düşdü.

Bu dövrdə respublikamızda etnik prinsiplərə əsaslanaraq yaradılan və fəaliyyət göstərən siyasi partiyalar heç də milli demokratik prosesin üstünlüyü kimi qələmə verilməməlidir. Çünki etnik prinsiplərə əsaslanan partiyaların yaradılması





siyasi inkişafda geriyə baxmağın nəticəsi kimi ortaya çıxır. Dünya dövlətlərinin bu sahədə siyasi təcrübəsinə istinad etsək, aydın görərik ki, heç bir sivlizasiyalı ölkədə dövlətin parçalanmasına zəmin hazırlayan, etnik prinsipləri əsas götürən siyasi partiyanın yaranmasına imkan verilmir. Çünki belə addım demokratiyaya, milli-demokratik prosesin gedişinə, demokratiya ruhuna, başlıcası isə geniş xalq kütlələrinin hüquqlarına ziddir. ABŞ-ın təcrübəsi göz qabağındadır. Əgər burada yaşayan milli etnik qruplar, yaxud xalqlar siyasi partiyaların yaradılmasında həmin prinsipdən istifadə etsəydilər, onda ölkəni etnik prinsiplərə əsaslanan partiyalar bürümüş olardı. Lakın bunun siyasi demokratiyaya zidd bir hərəkət olduğunu dərk edən Amerika xalqı bu yolla getməmiş, həm dövlətin gələcəyi, həm də xalqın hüquqları nəzərə alınmışdır.

Məsələn, XX əsrin 90-cı illərinin əvvəllərində yaradılmış Azərbaycan Talış Xalq Partiyasının bəyanatında talışçılıq ideyasının təbliğ olunmayacağı, Azərbaycanda yaşayan bütün xalqlar arasında həqiqi dostluğun təbliğ ediləcəyi, vahid, bölünməz, müstəqil Azərbaycan uğrunda mübarizə aparılacağı fikri irəli sürülsə də, etnik prinsiplərə əsaslanan belə partiyanın yaranması istər-istəməz hamını narahat etməyə bilmirdi.

Respublika ərazisində yaşayan milli azlıqların, azsaylı xalq və etnik qrupların ümummədəni inkişafına dövlət səviyyəsində göstərilən yüksək diqqət, aydın məsələdir ki, millətlərarası münasibətlərin yaxşılaşdırılmasını istəməyən, xalqlar arasında ayrı-seçkilik, düşmənçilik toxumu səpən bəzi üzdəniraq, antidemokratik qüvvələr imperiya ambisiyası, habelə yaranmış qarşıdurmadan öz şəxsi mənafeləri üçün istifadə edən müəyyən

qüvvələri təmin etmirdi. Onlar hər vəchlə azsaylı xalqlar, etnik qruplar arasında qarışıqlıq salmağa, milli-demokratik prosesin bu xalqlar və etnik qrupların inkişafı üçün açdığı geniş imkanlardan öz mənafelərindən ötrü istifadə etməyə çalışırdılar.

Bu cəhətdən "Sadval" adı altında Dağıstanda Ləzgi Xalq Hərəkatının millətlərarası münasibətlərin yaxşılaşdırılmasına qarşı apardığı geniş antidemoktarik fəaliyyətini, habelə də Azərbaycan ərazisində "İkinci Qarabağ" törətməyə ümid edən digər qüvvələri qeyd edə bilərik[75]. "Ləzgistan" dövləti yaratmaq ideyasını həyata keçirməyi qarşılarına məqsəd qoyan "Sadval" təşkilatının liderinin Yuxarı Qarabağı Azərbaycan ərazisindən qoparmağa çalışan erməni qəsbkarlarından yalnız bir fərqli cəhət ayırırdı. Ermənilər bu işi silah gücünə, "sadvalçılar" isə məqsədini dinc yolla həll etmək istəyirdilər. Məqsəd isə birdir – ərazi bütövlüyümüzü parçalamaq, respublikada sabitliyin yaranmasına imkan verməmək, müstəqillik yoluna qədəm qoymuş respublikanı asılı vəziyyətə salıb istiqlalıyyətini boğmaq və bununla da əvvəlki kimi onun sərvətlərinə sahib olmaq.

SSRİ-nin dağılması nəticəsində xalqların öz milli-etnik xüsusiyyətlərinə qayıtmalarına meyl göstərmələrini başa düşmək heç də çətin deyil. Çünki xalqlar öz etnik xüsusiyyətlərini inkişaf etdirmək, onları nəsildən-nəslə ötürmək üçün çox geniş bir imkan əldə etmiş oldular. Belə şəraitin yaranmasını gözləyən hər bir xalq, millət, etnik qrup tərkibində yaşadığı respublikanın ümumi milli mənafeyini də mütləq

[75] Cavadov Q.C. Azərbaycanın azsaylı xalqları və milli azlıqları (Tarix və Müasirlik), Bakı: Elm, 2000, s.270-274.





diqqət mərkəzində saxlamalı, respublikanın milli birliyinə xələl gətirən heç bir fəaliyyətə yol verməməlidir.

Görkəmli Azərbaycan filosofu, professor Ramiz Mehdiyev millət və millətlərarası münasibətlər anlayışlarını təhlil edərək göstərir ki, bu anlayışların məzmununda dil amilinin və etnik mənsubiyyət şüurunun böyük rolu var. Onun fikrincə, millət və millilik anlayışları arasındakı fərq belə bir fikri deməyə əsas verir ki, millət bir sosial mahiyyətə malikdir[76].

Müasir dünyada milli siyasət dövlətin yeritdiyi ümumi siyasətin tərkib hissəsi olub həqiqi dövlətin mahiyyətini və xarakterini üzə çıxarır.

Politoloji ədəbiyyatda verilən tərifə görə, milli siyasət millətlər və xalqlar arasındakı qarşılıqlı münasibətlərin dövlətin müvafiq sənədlərində və qanunvericilik aktlarında təsbit olunmuş şəkildə tənzim olunması üzrə məqsədyönlü fəaliyyətidir.

Milli siyasətin konseptual müddəalarına aşağıdakılar aid edilir:

- xalqların bərabərliyi;
- bütün xalqların mənafe və dəyərlərinə qarşılıqlı hörmət, onlar arasında qarşılıqlı faydalı əməkdaşlıq;
- millətçiliyin neqativ təzahürlərinə qarşı barışmazlıq;
- başqa xalqların mənafelərinin tapdanması hesabına öz xalqı üçün rifah yaratmaq cəhdlərinin siyasi və əxlaqi mühakiməsi və s.

Bundan başqa, milli siyasət coğrafi, demoqrafik amilləri, tarixi xüsusiyyətləri, əhalinin milli tərkibini, yerli və gəlmə əha-

[76] Мехтиев Р.А. Межнациональные отношения: Анализ проблем и поиск решений. Баку: Азернешр, 1992, с.122.

linin nisbətini, dini mənsubiyyəti, milli psixologiyanın xüsusiyyətlərini, milli adətləri və s. nəzərə almalıdır[77].

Milli siyasət konstruktiv və destruktiv olmaqla iki hissəyə bölünür.

Beynəlxalq hüquq aktlarına görə, habelə BMT-nin 16 oktyabr 1948-ci il tarixli "Milli azlıqlar" haqqındakı qətnaməsinə görə bütün millətlər və xalqlar öz müqəddəratlarını özləri təyin edə bilərlər[78].

Lakin burada bir cəhət mütləq nəzərə alınmalıdır. Başqa xalqın, millətin ərazisinə tarixin müəyyən mərhələsində köçürülərək məskunlaşdırmış hər hansı millətin sonradan həmin xalqa, yaxud millətə qarşı öz millətçilik ambisiyasını diqtə etməyə heç bir siyasi haqqı yoxdur. Burada söhbət ermənilərin vaxtilə Azərbaycan ərazisinə köçürülərək məskunlaşdırılmasından və onların xalqımıza qarşı həyata keçirdikləri bədnam milli siyasətin əsassızlığından gedir. Əgər dünya dövlətləri bu siyasəti dəstəkləyərsə, bu, o deməkdir ki, Rusiya Federasiyasında, eləcə də dünyanın böyük dövlətlərində bir çox milli qurumların yaranmasına şərait yaranar. Bu isə dünyanın siyasi xəritəsinin yenidən çəkilməsinə, dövlətlərin parçalanmasına səbəb ola bilər.

Yuxarıda adı çəkilən sənəddə göstərildiyi kimi, böyüklüyündən və kiçikliyindən asılı olmayaraq, bütün millətlər və xalqlar bərabərdir. Bütün münaqişə problemləri böyük dövlətlərin iştirakı ilə dünya ictimaiyyəti və ictimai təşkilatların işə qarışması ilə həll olunur. Hər bir ölkədə hakim millətdən əlavə xırda millətlər və azlıq təşkil edən etnik azlıqlar da vardır. Bunlar isə elə qruplardır ki, onların özlərinə məxsus

[77] Şirəliyev H., Əhmədov Ə. Politologiya, Bakı: «Təbib», 1997, s.140

[78] Beynəlxalq müqavilələr toplusu. Bakı: Elm, 1998, 51 s.





dilləri, adət-ənənələri və özlərini başqalarından fərqləndirmək xüsusiyyətləri olur. Bütün ölkələrin böyük xalqları isə onların hüquq və azadlıqlarını təmin etməyə borcludur. Məsələn, Azərbaycan Respublikasının Prezidentinin 16 sentyabr 1992-ci il tarixli fərmanı ilə Azərbaycan Respublikasında milli azlıqların hüquqlarının qorunması haqqında ciddi məsələlər qarşıya qoyulur. Onlara dil azadlığı, qəzet nəşr etmək, cəmiyyətlər yaratmaq imkanı verilir. Lakin onların bəziləri mədəni muxtariyyətlə razılaşmır, ərazi muxtariyyəti tələb edirlər. Onlar xarici ölkələrdə bədxahlarımız tərəfindən qızışdırılır və bunların nəticəsində yeni münaqişə ocaqları yaradılır.

Milli-etnik və milli azlıq problemlərinin həlli işi çox mürəkkəb problemlərdir. Burada assimiliyasiya siyasəti deyil, əksinə, milli çoxluq təşkil edən xalqla birlikdə onların vahid ailədə yaşamasını təmin etmək əsas götürülür.

Azərbaycanda milli etniklərin problemlərinin həllinə xüsusi diqqət yetirilir. Çünki respublikamızda bir sıra milli azlıqlar, etnik xalqlar yaşayır və fəaliyyət göstərirlər. Azərbaycan onların hamısının vahid Vətənidir. Vətənin azadlığı və müstəqilliyini qorumaq, onun tərəqqisi və inkişafına nail olmaq bu xalqların, etnik qrupların ümdə vəzifəsidir. Bu mənada respublikanın bütün yerli xalqları üçün Azərbaycan torpağı müqəddəs bir yurd olub heç bir parçalanmaya məruz qala bilməz və ayrı-ayrı adamların və qrupların ambisiyalarına qurban verilə bilməz.

Təəssüf ki, Azərbaycan beynəlxalq aləmdə öz nüfuzunu artırdıqca xalqımıza, dövlətçiliyimizə qarşı aparılan siyasi-ideoloji təxribatların coğrafiyası get-gedə genişlənir. Buraya yalnız ermənilər deyil, habelə digər azsaylı xalqlar da cəlb

edilməyə səy göstərilir. Tez-tez güya Azərbaycanda rusların "təqib olunması", ləzgilərin, kürdlərin, talışların, tatların və digər azsaylı xalqların hüquqlarının tapdalanması haqda əsası olmayan iddialar irəli sürülür.

Azərbaycanın müstəqilliyinə qarşı çıxan qüvvələr Azərbaycanda siyası sabitliyi pozmaq və milli qarşıdurma yaratmaq üçün azsaylı xalqlar kartından bəhrələnməyə çalışırlar.Bu qüvvələr Azərbaycan ərazisində yeni bir "Lor problemi" meydana gətirməyə, bununla da Qarabağ cəbhəsindən diqqəti yayındırmağa səy göstərirlər[79].

Azərbaycan türklərini milli azlıqların problemlərinə biganə münasibət bəsləməyinə görə qınayanlar unudurlar ki, son dövrlərədək bu millət respublika daxilində böyük millətin istifadə etməli olduqları hüquqlardan əslində məhrum olmuşdur. Azərbaycan xalqı saysız-hesabsız problemlərini həll etməyə qadir olmadığı bir vaxtda ərazisində yaşayan hər hansı bir milli azlığı, etnik qrupu narahat edən bu və ya digər problemi necə həll edə bilərdi. Yalnız müstəqil dövlətçiliyimiz möhkəmləndikdən sonra ölkə ərazisində yaşayan bütün xalqlara və millətlərə qayğı ilə yanaşmaq dövlət səviyyəsində həyata keçirilə bilər. Buna baxmayaraq, Azərbaycan dövləti ən çətin vaxtlarda belə milli azlıqların hüquqlarını müdafiə etməyi, onlara lazımi yardım göstərməyi öz milli siyasətinin tərkib hissəsi sayır və öz fəaliyyətini bu istiqamətdə qurur.

Belə ki, Azərbaycan Prezidentinin 16 sentyabr 1992-ci il fərmanı respublikamızda azsaylı xalqların, milli azlıqların dil və mədəniyyətlərinin inkişafı qarşısında real perspektivlər

[79] Qurbanov A. «Saman altından su yeridən». «Azərbaycan» qəz., Bakı, 1998, 1 avqust.





açmışdır. Bu fərmanın əsl mahiyyətini təhrif edən bəzi bədnam dairələr verilən mədəni muxtariyyət hüquqlarını, təəssüf ki, ərazi muxtariyyət hüquqları ilə qarışıq salırlar. Onlar əslində respublikanı bir neçə milli regiona parçalamaq xətti tuturlar. Onlar respublika rəhbərliyinin yeritdiyi ardıcıl konstruktiv, bütün xalqların və millətlərin mənafeyinə cavab verən milli siyasətdən başqa nəticə çıxarmağa çalışırdılar. Keçən əsrin 90-cı illərinin əvvəllərində həyata keçirilən bu bədnam siyasətin tərəfdarları unudurdular ki, Azərbaycan ərazisində məskunlaşmış müxtəlif xalqlar və millətlər əsrlər boyu birgə yaşamış, çətinliklərə bir yerdə sinə gərmiş, xoş günləri bir qarşılamışlar. Onların arasında düşmənçilik toxumu səpmək istəyənlər düşmən dəyirmanına su tökürlər.

Yeni milli münaqişə ocaqlarının yaradılaraq genişləndirilməsi strateji əhəmiyyəti olan bir sıra problemin həllini qarşıya qoyur. Onlar müstəqillik yoluna qədəm qoymuş gənc Azərbaycan Respublikasına qarşı həyata keçirilən erməni təcavüzündən diqqəti yayındırmaq, başqa xalqların nəzərində azərbaycanlıların vəhşi və barbar obrazlarını yaratmağa nail olmaq, "Qarabağ problemi" deyilən qondarma və süni problemi daha da dərinləşdirmək və yeni-yeni belə problemlər yaratmaq, respublikada gedən demokratik proseslərin qarşısını almaq və onu dünya xalqlarının gözündən salmaq məqsədi güdürlər.

Hazırkı şəraitdə Azərbaycanda yaşayan xalqların və millətlərin həyat fəaliyyəti onların azsaylı, yaxud çoxsaylı olmalarından asılı olmayaraq, hamının hüquq bərabərliyi əsasında və vahid qardaşlıq prinsipləri üzərində qurulmalıdır, onların maddi və mənəvi tələbatı bərabər şəkildə ödənilməli,

xalqlar və millətlər arasında maddi və mənəvi sərvətlər mübadiləsini artırmalı, cəmiyyətdə sosial yekcinsliyin güclənməsinə, mədəniyyətdə, əxlaqda və məişətdə ümumi cəhətlərin yaranıb inkişaf etməsinə, xalqlar və millətlər arasında dostluğun daha da möhkəmlənməsinə əsaslanmalıdır.

Milli azlıqlar problemi ilə əlaqədar milli münasibətlər sahəsinə diqqət yetirərkən o əsas tutulmalıdır ki, yeni cəmiyyət quruculuğunda əldə edilən uğurlar ictimai inkişafda millətə aid ümumi və xüsusi cəhətləri düzgün əlaqələndirməklə bağlıdır. Çünki milli münasibətlər daima inkişaf edən, yeni-yeni problemlər və vəzifələr irəli sürən reallıqdır. Hazırkı şəraitdə Azərbaycanda milli məsələ bütün ölkənin və ayrılıqda hər bir xalqın mənafe və marağının eyni dərəcədə gözlənilməsi şərtilə qoyulmalı və həll edilməlidir.





## 1.3. Azərbaycanda milli azlıqların və azsaylı xalqların inkişaflarının sosial dinamikası və xarakterik xüsusiyyətləri

Azərbaycanda tarixən müxtəlif millətlər, azsaylı xalqlar, milli azlıqlar və etnik qruplar yaşayıb yaradıblar. Onlar bugün də bu ərazidə yaşamaqdadırlar. Tarixi təcrübə göstərir ki. Azərbaycanda heç bir xalqa və millətə qarşı ayrıseçkilik münasibəti olmamışdır. Buna görə də burada yaşayan etnosların heç biri özünü yad etnos hesab etmir, özünü digərlərinə qarşı qoymur. Yalnız ermənilərdən başqa.

Azərbaycanda məskunlaşmış müxtəlif etnik qruplar arasında ortaq əlamətlər, birləşdirici xüsusiyyətlər formalaşmışdır, onlar etnik qruplara xas olan fərqləndirici əlamətlərlə və keyfiyyətlərlə müqayisədə həmişə üstünlük təşkil etmişdir. Ərazi ümumiliyi, din birliyi, maddi və mənəvi mədəniyyət yaxınlığı, birgə yaşayış tərzi Azərbaycanda etnik qarşıdurmanın qarşısını alan, vahid Vətən idealını inama çevirən amillərdəndir. Azərbaycan dili bu ərazidə yaşayan bütün etnosların ünsiyyət vasitəsinə çevrilib, ümumxalq dili rolunu oynamışdır. Elə buna görə də böyük rus mütəfəkkirləri M.Y.Lermontov, Bestujev Marlinski XIX əsrdə Azərbaycan dilini Ön Asiyada və Qafqazda təsir dairəsinə görə Avropada fransız dilinin rolu ilə müqayisə etmişlər.

Göründüyü kimi, etnosu formalaşdıran və mövcudluğunu, yaşamasını təmin edən bu amillər tarixən Azərbaycanda ixtilafdan, münaqişədən daha çox birliyə, həmrəyliyə real obyektiv zəmin yaratmışdır. Biz bununla heç də etnosun əsl əlamətlərindən birinin – etnik özünəməxsusluğun mövcudluğunu arxa plana keçirmək fikrində deyilik. Sadəcə

olaraq, demək istəyirik ki, ortaq əlamətlərin, birləşdirici keyfiyyətlərin, mənafe eyniliyinin sayəsində Azərbaycanda aparıcı xalqın etnik qruplara, azsaylı etnoslara qarşı ayrı-seçkilik, düşmənçilik münasibəti olmayıb və yoxdur.

Keçmiş İttifaqın hakim ruslaşdırma milli siyasətinə qurban verilən azsaylı xalqlar, milli azlıqlar illər boyu ciddi təqibə məruz qalmış, öz keçmişlərini, soyköklərini itirmək təhlükəsi ilə qarşılaşmışlar. SSRİ-də 90-a qədər xalqın tarix səhnəsindən silinməsi buna canlı sübutdur. Vahid "Sovet xalqı" ideyasının tərənnümü, bir çox xalqların, ilk növbədə milli azlıqların varlığına son qoyulması naminə kiçik xalqları, ümumiyyətlə, xatırlamamaq, yada salmamaq sətti yeridilirdi. Tarix boyu, eləcə də, çarizm dövründə əhalinin siyahıyaalınması zamanı hər bir etnik qrup öz soy adı ilə göstərildiyi halda, Sovet cəmiyyəti buna da son qoydu. Belə ki, 1958, 1970 və 1978-ci illərdə keçirilən əhalinin siyahıyaalınmasında buduqlar, qrızlar, xınalıqlar, talışlar bir etnos kimi qeydə alınmamış, hamısı azərbaycanlı adlanmışlar ki, bu da ədalətsizlik idi. Guya bu xalqlar artıq tarix səhnəsindən silinmiş, yoxa çıxmış, tamamilə assimilyasiya olmuşdular. Bunun əsas səbəbi SSRİ-də vahid Sovet xalqının təşəkkül tapması ideologiyası idi.

Sovet dövründə «sovet xalqı» məfhumunu yeni tarixi birlik forması kimi əsaslandıran bir çox kitablar çap olunmuşdur. Belə ki, Moskvada nəşr edilmiş «Развитие советского народа – новой исторической общности» kitabında bu problemin müxtəlif tərəfləri tədqiq olunmuş və əsaslandırılmışdır. Bu kitabın yazılmasında Azərbaycan alimi Ə.Daşdəmirov da iştirak etmişdir. Onun respublikamızda 1977-ci ildə buraxılmış «Советский народ» monoqrafiyasında yeni tarixi birlik forması





kimi irəli sürülən sovet xalqının inkişafı və təkmilləşməsi, formalaşması problemləri, millət və milli münasibətlər anlayışları təhlil olunur[80].

Professor R.Mehdiyev keçən əsrin 70-80 illərində geniş yayılmış «Sovet xalqı» yeni birlik forması haqqında yazır ki, bu forma həyata keçirilən siyasətin vəzifələrinə uyğun gəlsə də, real milli maraqlara cavab vermirdi. Buna görə də milli sahədə baş verən real prosesi bu forma əks etdirmirdi[81].

Say çoxluğundan asılı olmayaraq hər bir etnik qrupun qorunub-saxlanılması, mühafizəsi hakim millətin, xalqın böyüklüyünün təcəssümüdür. Haqlı olaraq qeyd edilir ki, dövləti etnik azlıqların çoxluğu yox, onların hüquqlarına biganəlik məhv edər. Milli azlıqlardan birinə həsr olunmuş kitabların birində oxuyuruq: "Adı qırmızı kitaba düşən quşların və heyvanların ovlanılmasının dövlət tərəfindən qadağan olunması və bunun qanunda əksi hamımıza yaxşı məlum olduğu halda, kiçik etnik qrupların taleyinə niyə biganə qalmalıyıq?" Bəli, belə biganəçiliyə yol vermək olmaz və bu münasibət cəmiyyətə xeyir gətirməz[82].

Azərbaycan müstəqillik qazandıqdan sonra milli münasibətlər sahəsində görülən tədbirlər, həyata keçirilən işlər gələcəyə ümid gözü ilə baxmağa əsas verir. Ləzgi, talış, kürd, tat və s. mədəniyyət mərkəzlərinin fəaliyyətə başlaması, milli azlıqların dillərində məktəblərin açılması, mətbuatın meydana gəlməsi, radio və televiziya verilişlərinin hazırlanması və s. işlər

[80] Дашдамиров А.Ф. Советский народ. Баку: Азернешр, 1977, с.1-156 .
[81] Мехтиев Р.А. Межнациональные отношения на исходе XX столетия. проблемы теории и политики.Баку: Азернешр, 1995, 222 с.
[82] Buduqlu (Piriyev) V. Buduq və buduqlular. Bakı: Sabah, 1994, s.4-5.

bu sahədəki inamı daha da artırır. 2002-ci ilin ortalarına qədər fəaliyyət göstərmiş Milli Münasibətlər İnstitunda "Azərbaycanın azsaylı xalqlarının tədqiqi" şöbəsinin xəttilə respublikamızda yaşayan ayrı-ayrı etnik qrupalar, xalqlar barədə elmi tədqiqat işlərinin aparılmasını onların dillərinin, adət-ənənələrinin araşdırılmasını bu sahədə mühüm addım hesab etmək olar. Xüsusilə "Azərbycan Respublikasında yaşayan milli azlıq, azsaylı xalq və etnik qrupların hüquq və azadlıqlarının qorunması, dil və mədəniyyətinin inkişafı üçün dövlət yardımı haqqında" 16 sentyabr 1992-ci il tarixli Prezident fərmanı bu sahədə görüləcək işlərin müvəffəqiyyətinə təminat vermiş, həmin xalqların hüquqlarının qorunması mexanizmini əks etdirmişdir. Fərmanda Azərbaycanın ali məktəblərində azsaylı xalqların tarixini, mədəniyyətini öyrənən şöbə və kafedraların açılması, azsaylı xalqların nümayəndələrinin ali və orta ixtisas məktəblərinə güzəştli qəbulu, dillərində radio verilişlərinin təşkili, azsaylı xalqlara milli təzyiq göstərilməsinə qarşı ciddi mübarizə aparılması və s. kimi məsələlər öz əksini tapmışdır[83].

Etnik qrupların mühafizəsi üçün dövlət tərəfindən həyata keçiriləsi tədbirlərlə yanaşı, hər bir qrupu təmsil edənlərin bu sahədəki fəaliyyəti də nəzərdən qaçırılmamalıdır.

Azərbaycan cəmiyyəti çoxmillətli tərkibə malikdir. Burada azərbaycan türkləri olan aparıcı etnosla yanaşı, bir sıra subetnik birliklər də yaşayır. Bunların içərisində ruslar xüsusi

[83] «Azərbaycan Respublikasında yaşayan milli azlıq, azsaylı xalq və etnik qrupların hüquq və azadlıqlarının qorunması, dil və mədəniyyətlərinin inkişafı üçün dövlət yardımı haqqında» Azərbaycan Respublikasının Prezidentinin fərmanı. «Xalq qəzeti». Bakı, 1992, 20 sentyabr.





yer tutur. Öz birliklərini yaradan rus icması digər etnik birliklərdən öz statusuna görə fərqlənirdi. Bu birlik hətta müəyyən mənada müstəsna hüquqlara da malik idi. Çünki rəsmi olmasa da, ruslar keçmiş SSRİ ərazisində "Böyük qardaş" statusunu daşıyırdılar. Əslində bu ənənə Çar Rusiyasından süzülüb gələn "hakim millət" anlayışının başqa formada ifadəsinin məntiqi nəticəsi idi.

Lakin SSRİ dağıldıqdan sonra Cənubi Qafqazda müstəqil respublikaların yaranması, sonrakı sosial-siyasi və iqtisadi proseslər rus əhalisinin tədricən həmin regionu tərk etməsi ilə müşayiət olunur. Bunun da nəticəsində rus icması əvvəlki nüfuzunu və sayını itirməklə yanaşı, mövqelərini də tədricən əldən verməkdədir. İstər siyasi, istərsə də kulturoloji sahələrdə rus diasporunun mövqelərini təhvil verməsi artıq bir reallıqdır və bu etnosiyasi proses Rusiyanın hakim dairələrini narahat etməyə bilməz. Çünki bu, Rusiya üçün hər şeydən əvvəl, siyasi geopolitik problem kimi qarşıya çıxır. Ona görə də bugünkü Rusiya Qafqaza münasibətdə ikili siyasət yeritməyə məcburdur. Bir tərəfdən o, müstəqillik hərəkatı ilə barışmağa çalışır, mütərəqqi bəşəriyyətin təsiri altında dünyada genişlənməkdə olan demokratikləşməni qəbul edir, ikinci bir tərəfdən isə Qafqaza olan əvvəlki imperiya ambissiyalarından əl çəkmək istəmir, həmin regionun geopolitik vəziyyəti bunu etməyə imkan vermir. Ona görə də siyasi manevrlər yolu ilə əvvəlki nüfuzunu bərpa etmək istəyir. Bu yolda ona kömək edəcək vasitələrdən ən başlıcası respublikalarda yaşayan ruslar və rusdilli əhalidir. Onun istər kəmiyyəti, istərsə də keyfiyyəti bu gün çox böyük deformasiyalara uğrayıb və öz əvvəlki hakim vəziyyətini itirib.

Deməli, hazırkı şəraitdə Cənubi Qafqazda öz diasporundan məhrum olan Rusiya istər-istəməz bu regionda mövqelərini də itirməyə başlamışdır. Halbuki, 70-ci illərdə həmin regionun rus əhalisinin sayı artıq bir milyonu keçmişdi. Keçmiş SSRİ zamanında, 50-70-ci illərdə Rusiya öz əhalisinin bir qismini bu respublikalara bir növ «ixrac» edirdi. O zamanlar yeni yaranmaqda olan sənaye müəssisələrində, şəhərlərdə, SES-də və AES-də, habelə kənd təsərrüfatının müxtəlif sahələrində Rusiyanın ayrı-ayrı guşələrindən gəlmiş adamlar yerləşdirilirdi. Bu gəlmələrin əksəriyyətini gənc qızlar təşkil edirdilər. Onlar yerlilərlə qaynayıb qarışmalı və yerlərdə rus "dayaq nöqtələri"nin yaranmasına səbəb olmalı idi. Gəlmə kadrlar ən yaxşı mənzillərlə təmin edilir, onların sosial ehtiyacları birinci növbədə ödənilirdi. 1959-1978-ci illərdə RSFSR dörd milyondan çox belə kadr ixrac etmişdi.

70-ci illərdə Cənubi Qafqaza rusların miqrasiyası öz zirvəsinə çatmışdı, daha doğrusu, sayda bir milyonu keçmişdi.

XIX əsrin əvvəllərindən başlanan bu miqrasiya Qafqazın Rusiya imperiyası tərəfindən işğalına təsadüf edir. Əlverişli coğrafi şəraitə malik olan Qafqaz, eləcə də Azərbaycan yeni rus mühacirələrinin əsas məskunlaşma yerlərindən biri olmuşdu. Rus mərkəzi hakimiyyəti tərəfindən təqib olunan malakanlar, duxaborlar və pyatidesyatniklər bura axışıb gəlirdilər.

XIX əsrin sonunda neft sənayesi çoxlarını Azərbaycana cəlb edirdi. Mütəxəssis mühəndislər və fəhlələr də köçüb iş dalınca buraya gəlirdilər. Məhz bu səbəblərdəndir ki, rus icması üzvlərinin sayına görə Azərbaycan Cənubi Qafqazda həmişə aparıcı yer tutmuşdu. Onların Azərbaycana gəlməsi tarixi müəyyən mərhələlərdən ibarətdir. Sonrakı dövrlərdə, məsələn,





İkinci Dünya müharibəsi illərində işğal olunmuş Sovet ərazilərindən qaçıb gələnlər, dövlət tərəfindən evakuasiya olunanlar, bundan xeyli əvvəllər xaricə qaçmış ağqvardiyaçıların böyük bir qisminin geri qaytarılıb Bakıda və Azərbaycanın digər bölgələrində yerləşdirilməsi, 60-70-ci illərdə isə yeni sənaye rayonlarında işləmək üçün rus və rusdilli kadrların buraya gətirilib ən yaxşı mənzillərdə və vəzifələrdə yerləşdirilməsi ruslaşdırma siyasətinin bariz nümunəsi idi.

60-cı illərdə Azərbaycandakı rus icması üzvlərinin sayı artıq 550 min nəfər təşkil edirdi. 1999-cu il siyahıyaalınmasına görə isə Azərbaycanda rusların sayı 141,7 min nəfər təşkil edirdi[84].

Ölkədə rusların sayının belə azalması keçən əsrin 80-ci illərin axırı və 90-cı illərin əvvəllərində Azərbaycanda yaranmış ictimai siyasi vəziyyətlə əlaqədardır. Xüsusilə Dağlıq Qarabağ münaqişəsi ətrafında qaldırılan və heç bir əsasa malik olmayan təxribatçılıq hay-küyləri Azərbaycandan rusların köçməsinə böyük təsir göstərmişdir. Bundan əlavə, 1990-cı il 20 Yanvar hadisəsindən sonra Azərbaycanda yaşayan ruslar arasında Mərkəzin apardığı təbliğatın da burada böyük rolu olmuşdur. Məlum olduğu kimi, həmin dövrdə ruslara belə bir fikir aşılanırdı ki, guya Azərbaycan xalqı 20 Yanvar qurbanlarının hayıfını ruslardan alacaqdır. Bacardıqca tez köçüb qurtarın.

Həyat göstərdi ki, Azərbaycan xalqı öz ərazisində yaşamış başqa etnik qrupa qarşı heç vaxt pis addım atmamışdır. Bu uydurulmuş siyasət ancaq müəyyən hakim dairələrin törətdikləri cinayətlərin üstünün ört-basdır edilməsinə xidmət edən bir siyasət idi.

[84] Azərbaycan Respublikası əhalisinin siyahıya alınması. 1999-cü il, IV hissə, Bakı: Statistika Komitəsi, 2000, s.8-9.

Respublikamızda ruslaşdırma siyasətinin aparılması ilə yanaşı, rus dili də geniş intişar tapırdı. Azərbaycanda ilk rus məktəbləri hələ XIX əsrin 30-cu illərindən yaranmağa başlamışdı. Rus məktəbləri ilə yanaşı, rus-tatar məktəbləri də yaranıb möhkəmlənirdi. İmperiya üçün rus dilinə, rus elminə və həyat tərzinə yiyələnmiş yerli kadrlar yetişdirilməli idi. Yeni yaranmış belə məktəblər Rusiyanın həyata keçirdiyi siyasətin Azərbaycanda aparılmasında böyük rol oynayırdı. Belə məktəblərdə təhsil alanlar həm də Rusiya mənafelərinin yerlərdə ifaçılarına çevrilirdilər.

Hazırda rus diasporunun ən böyük dayaq nöqtələri Bakıdadır. Onlar Bakının əsasən Serebrovski, Bayıl, Bakıxanov qəsəbəsi və başqa yaşayış sahələrində yaşayırlar. Bu gün Azərbaycanda rus mədəniyyət mərkəzi, Rus Dram teatrı, Slavyan Universiteti, Rus Pravoslav Kilsəsi, rus dilli məktəblər, ali məktəblərdə rus şöbələri fəaliyyət göstərir.

Bundan əlavə, Azərbaycanda radio və televiziyada rus dilində verilişlər, kino-teatrlarda rus dilində filmlər geniş nümayiş etdirilir, əhalinin rus dilinə olan ehtiyacını ödəmək üçün müxtəlif mərkəzlər yaradılır.

Bu faktın özü göstərir ki, Azərbaycanda əvvəllərdə olduğu kimi rus dilinə bu gün də böyük əhəmiyyət verilir. Təsadüfi deyil ki, Rusiya Federasiyasının Prezidenti Rusiyada Azərbaycan günləri ilə əlaqədar tədbir zamanı Azərbaycanda rus dilinə və mədəniyyətinə böyük əhəmiyyət verildiyini qeyd etmişdir.

Rus dili müasir azərbaycanlı üçün də dünya elm və mədəniyyət sərvətlərinə yiyələnməyin başlıca vasitələrindən birini təşkil edir.





Azərbaycan müstəqillik əldə etdikdən sonra rus dilinin Respublikada işlənmə dərəcəsi və əhəmiyyəti demək olar ki, aşağı düşməmişdir. Böyüməkdə olan gənc nəsil rus dilini istəyindən asılı olaraq öyrənməyə cəhd edir.

Azərbaycanlıların bir qisminin iş dalınca Rusiyaya üz tutması, orada yaşayıb çörək pulu qazanmaq üçün məhrumiyyətlərə dözməsi, onların həm də rus dilini öyrənmələrinə səbəb olur. Digər tərəfdən, Azərbaycan ziyalılarının tarixən Rusiyaya mehriban qonşuluq münasibətləri, Avropa elmlərinə yiyələnməkdə Rusiyanın rolu və başqa amillər Rusiyaya olan müsbət meyli saxlamaqdadır.

Rus şovinizminin xalqımıza qarşı apardığı müstəmləkəçilik siyasəti sadə rus xalqına olan etimadımızı aradan qaldırmamışdır. Həmin səbəblər üzündən Azərbaycan xalqı yüksək qonaqpərvərlik və humanistlik göstərərək, Azərbaycanda yaşayan ruslarla öz xoş münasibətini saxlayır və inkişaf etdirir.

Doğrudur, sosial-iqtisadi çətinliklər, Ermənistanla müharibə, ictimai-siyasi vəziyyət və təbii fəlakətlər Azərbaycandakı rus əhalisinin bir qisminin Rusiyaya mühacirət etməsinə səbəb olmuşdur. Lakin Ermənistandan və Gürcüstandan mühacirət edən rusların sayı ilə müqayisədə bunlar ölkəmizdə azlıq təşkil edir.

Deyilənlərdən belə bir nəticə çıxarmaq olar ki, Azərbaycan xalqının rus icması ilə ikitərəfli əlaqələri qarşılıqlı qonşuluq və dostluq münasibətlərinə əsaslanır və inkişaf edir. Bütün bunların rus sosial şovinist siyasəti ilə heç bir əlaqəsi yoxdur. Qafqazda və eləcə də Azərbaycanda marağı olan mafioz xarici qruplaşmalar həmin əlaqələrin istiqamətini dəyişdirib özləri üçün əlverişli olan məcraya salmağa, tarixən formalaşmış və

təkmilləşmiş Rus-Azərbaycan münasibətlərinə başqa don geyindirməyə səy göstərirlər. Rus-Azərbaycan münasibətlərinin pozulmasında marağı olan həmin qüvvələr bu münasibətlərdəki hər hansı boşluqdan öz mənafeləri naminə istifadə etməyə çalışır və beləliklə, regionda siyasi vəziyyəti gərginləşdirməyə ümid bəsləyirlər. Lakin son illərdə Azərbaycan iqtidarının, ümummilli liderimiz Heydər Əliyevin və Prezidentimiz İlham Əliyev cənablarının yeritdiyi milli siyasət və bu sahədə həyata keçirilən mühüm tədbirlər respublikada məskunlaşan ruslar və bütün xalqlar tərəfindən rəğbətlə qarşılanmaqdadır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 19 avqust 2005-ci ildə İsmayıllı rayonun İvanovka kəndinə bir neçə əsr əvvəl Rusiyadan köçərək məskunlaşmış əhali ilə görüşmüşdür. Prezident demişdir: «Çoxmillətli ölkədə yaşamaq böyük xoşbəxtlikdir. Yalnız bir millətin nümayəndələrinin yaşadığı ölkədə insanlar özlərini çox şeydən məhrum edir, mədəniyyətlərin qarşılıqlı təsirindən, bir-birini zənginləşdirməsindən zövq ala bilmir, xalqlar arasında dostluğun nə demək olduğunu başa düşə bilmirlər»[85].

Azərbaycanda XIX əsrin 30-40-cı illərindən yaşamağa başlamış etnoslardan biri də ermənilərdir. Rus alimlərindən S.Qlinka[86], Veliçko[87] və bir çox başqaları ermənilərin Azərbaycana İrandan və Türkiyədən köçürülərək məskunlaşmaları barədə ətraflı yazmışlar.

[85] Əliyev İ. İvanovka kəndinin sakinləri ilə görüş. «Respublika» qəz., Bakı, 2005, 21 avqust.

[86] Глинка С.И. Описание переселения армян азербайджанских в пределы России. Баку: Элм, 1990, 144 с.

[87] Величко В.Л. Кавказ. Русское дело и междуплеменные вопросы. Баку: Элм, 1990, 224 с.





1979-1989-cu illər arasında ermənilərin sayı Azərbaycanda 400 mindən 500 minə çatmışdır. Yuxarı Qarabağ ətrafında baş verən hadisələr nəticəsində ermənilərin bir qismi respublikamızı tərk etmişlər. Nəticədə indi respublikada 120 minədək erməni qalmışdır. Onların əsas hissəsi Yuxarı Qarabağda, az hissəsi Bakıda və respublikanın digər bölgələrində yaşayır[88]. Ermənilər daima öz avantürist ideoloqları ilə respublikamızda özlərinə süni problemlər yaratmışlar.

Ermənilər Azərbaycanın aborigen əhalisi deyildir. Onların Azərbaycanda yaşaması tarixi də burada yaşayan digər yerli xalqlar qədər qədim deyildir. Onlar XIX əsrdə Rus-İran və Rus-Türk müharibələrindən sonra Azərbaycanın bir sıra rayonlarında məskunlaşdırılmışlar. 1828-ci ildə Çar I Nikolay Azərbaycan xanlıqları ərazisində İrəvan vilayətinin yaradılması haqqında fərman vermiş, bununla da regionda mühüm etnik dəyişikliklər yaranmışdır.

İrandan və Türkiyədən gəlmiş ermənilər zorla və rus generallarının birbaşa köməyi ilə Azərbaycanın İrəvan və Qarabağ ərazisində yerləşdirilmiş, təqiblər və təzyiqlər nəticəsində yerli əhalinin xeyli hissəsi öz doğma yurdlarını tərk etmişlər. Akademik T.Köçərli ermənilərin Azərbaycan ərazisində məskunlaşmasına aid məqaləsində ermənilərin Qafqazın müsəlman torpağında yerləşməsi xəttinin Rus imperatoru I Pyotr dövründə başladığını qeyd edir[89].

[88] Azərbaycan Respublikası əhalisinin siyahıya alınması. 1999-cü il, IV hissə. Bakı: Statistika Komitəsi, 2000, s.8-9.

[89] Köçərli T. Qarabağ əhalisinin sayı və etniki tərkibi məsələsinə dair. «İqtisadiyyat» qəz., Bakı, 1999, 29 sentyabr; Köçərli T. Qarabağ əhalisinin sayı və etniki tərkibi məsələsinə dair. «İqtisadiyyat» qəz., Bakı, 1999, 3 oktyabr.

Çar Rusiyası Azərbaycanı işğal edənə qədər burada əhalinin cəmi 10%-ni ermənilər təşkil etmiş, 1828-ci ildən sonra bu rəqəm ermənilərin xeyrinə olaraq 25%-ə çatmışdır. 1830-cu ilədək adı çəkilən ərazilərə artıq 200 mindən çox erməni köçürülmüşdür. Ermənilərin bu yerlərdə sərbəst yerləşmələri üçün Çar hökuməti onları 5 il bütün vergilərdən azad etmiş və əlavə olaraq onlara 50 min gümüş pul yardım ayırmışdır. Bu problemdən bəhs edən o vaxtkı bütün müəlliflər bu tarixi prosesin bütün XIX əsr boyu davam etdiyini qeyd edirlər.

1877-1878-ci illər Rus-Türk müharibəsindən sonra Qarabağın dağlıq hissəsinə köçən ermənilərin sayının artması hesabına burada artıq etnik bərabərlik yaranır və onlar tədricən yerli əhalini sıxışdırmağa başlayırlar.

Azərbaycanda yaşayan ən böyük etnik birliklərdən biri də ləzgilərdir. Onlar Azərbaycan Respublikasının şimal-şərqində, Samur çayı vadisində məskunlaşmışlar. Ləzgi etnosunun nümayəndələri respublikada 1979-cu ildə 158,1 min, 1989-cu ildə 171,4 min, 1999-cu il siyahıyaalınmasında isə 178 min nəfər olmuşdur. Onlar bütövlükdə respublika əhalisinin bu illərdə müvafiq olaraq 2,6% 2,4% və 2,2%-ni təşkil etmişlər[90].

Qusar rayonu əhalisinin 80%-ni təşkil edən ləzgilər bu rayondan başqa, Quba, Xaçmaz, İsmayllı, Şəki, Oğuz və Qəbələ rayonlarında da yaşayırlar.

Ləzgi dili Qafqaz dilləri ailəsinə mənsubdur. Bu dildə zəngin mədəniyyət nümunələri mövcuddur. Yetim Emin və Süleyman Stalski tərəfindən yaradılan poeziya bütün Qafqaz xalqları arasında geniş yayılmışdır.

[90] Azərbaycan Respublikası əhalisinin siyahıya alınması. 1999-cü il, IV hissə. Bakı: Statistika Komitəsi, 2000, s.8-9.





Tarixən ləzgi xalqı Azərbaycan türkləri ilə bir dindaş, bir sirdaş, bir qardaş olaraq qaynayıb-qarışmış, qarşılıqlı nikahlar onları qohum edib, birləşdirmişdir.

Əsrimizin əvvəllərində ermənilərin azərbaycanlılara qarşı Qubada yeritdikləri soyqrımı zamanı ləzgilərin apardığı mübarizə artıq tarixi fakta çevrilmişdir.

Qardaş ləzgi ziyalılarının son vaxtlar yaratdıqları "Samur" cəmiyyətinin Ləzgi-Azərbaycan dostluğu istiqamətində apardıqları məqsədyönlü fəaliyyəti də təqdirəlayiqdir. Hazırda «Qusar» və «Samur» qəzetləri, Qusarda Ləzgi Dövlət Dram teatrı fəaliyyət göstərir. Samur-Ləzgi milli mədəniyyət mərkəzi açılmışdır. Həmçinin ləzgi dili Qusar və onların sıx yaşadığı digər bölgələrin orta məktəblərində tədris olunur. Habelə Qusar Pedaqoji Texnikumda ləzgi dilini tədris edən müəllimlər də hazırlanır. Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev Qusar rayonunun sakinləri ilə görüşdə demişdir: «Azərbaycan çoxmillətli dövlətdir. Bu, bizim xoşbəxtliyimizdir. Millətlərin müxtəlifliyi, mədəniyyətlərin müxtəlifliyi bizi zənginləşdirir. Azərbaycanda millətlər arasında tam mənada qardaşlıq hökm sürür. Bu, bizim xoşbəxtliyimizidir, bizim sərvətimiz və bizim siyasətimizdir»[91].

Azərbaycan Respublikasının cənub-şərqində — Lənkəran. Astara, Masallı və Lerik rayonlarında talışlar məskunlaşmışlar. 1989-cu il siyahiyaalınmasına görə onların sayı 21,2 min, 1999-cu il siyahıyalınmasına görə isə 76,8 min nəfər olub, respublika

[91] Əliyev İ. Qusar şəhərində H.Əliyev bağında rayon sakinləri ilə görüş. «Respublika» qəz., Bakı, 2005, 29 iyul.

əhalisinin 1%-ni təşkil edirlər[92]. Dilləri İran dil qrupuna aiddir. Azərbaycanın azsaylı xalqları arasında xüsusi yeri olan talışların təsərrüfat həyatı rəngarəngdir. Onlar tarixən çəltik becərməklə, heyvandarlıqla, balıqçılıqla və ovçuluqla məşğul olmuşlar.

Azərbaycanlılar ilə qaynayıb-qarışdıqlarından onları çox yerdə hətta milli əlamətə görə ayırmaq çətinliyi yaranır. Regionda ikidillilik və ikitərəfli qarışıq nikahlar geniş yayılmışdır. Buna baxmayaraq talış dili məişətdə, istehsalatda, təhsildə və mətbuat orqanlarında da müəyyən işlənmə dairəsinə malikdir.

Hazırda Lənkəranda «Talış Mədəniyyət Mərkəzi» fəaliyyət göstərir, «Talışın səsi» («Tolışi sədo») qəzeti çap olunur, radio ilə talış dilində verlişlər verilir və s. Talış xalqı özünü Azərbaycan xalqının tərkib hissəsi sayır və düşmən qüvvələr tərəfindən irəli sürülən mürtəce iddiaları cəsarətlə dəf edir.

Tanınmış tarixçi, etnoqraf alim Q.Cavadov Azərbaycanda gedən milli-etnik prosesləri yüksək qiymətləndirərək yazır: «...Bugün Azərbaycanda xalqlar onların sayca azlığı, çoxluğu prinsiplərinə görə deyil, vətəndaşlarına, bu torpağın bərabərhüquqlu övladları olmalarına görə qiymətləndirilirlər. Üstəlik sayca bir neçə milyondan artıq olub, respublikanın aparıcı etnosu sayılan türkdilli azərbaycanlılar, sayı bir neçə mindən artıq olmayan Qafqazdilli qrızları, buduqları, xınalıq və udiləri, ingiloy və avarları, saxurları, irandilli tatları, kürdləri və talışları, bir sözlə, bu ərazidə yaşayan bütün etnosları özünə doğma sayır, onların dillərinin, etnik mənliklərinin, maddi və

[92] Azərbaycan Respublikası əhalisinin siyahıya alınması. 1999-cü il, IV hissə, Bakı: Statistika Komitəsi, 2000, s.8-9.





mənəvi mədəniyyətlərinin qorunması və bununla da onların dünyanın etnik xəritəsindən silinməməsi qayğısına qalır. Azərbaycanlıların bir xalq kimi humanistliyi, insanpərvərliyi bizə görə həm də ondadır ki, əsrlər boyu bu azsaylı etnik qrupları qoruyub saxlaya bilmişdir»[93].

Şəki-Zaqatala rayonunda yaşayan avarlar bu regionda sayca Azərbaycan türklərindən sonra ikinci yeri tutur.

Avarlar 1979-cu il siyahıyaalınmasına görə 36 min, 1989-cu ildə 44,1 min və 1999-cu ildə 50,9 min nəfər olmuşlar. Onlar müvafiq surətdə respublika əhalisinin say göstəricilərində 0,6%-i təşkil etmişlər[94].

Onlar əsasən respublikanın Balakən və Zaqatala rayonlarında məskunlaşmışlar. Avar dili Qafqaz dil ailəsinin ləzgi dil qrupuna daxildir. Tarixən Car-Balakən camaatlığı tipində 1830-cu iləcək mövcud olan siyasi qurumları mövcud olmuşdur. Məişədə və idarəetmədə Azərbaycan dilindən geniş surətdə istifadə olunur. İbtidai təhsilin ana dilində həyata keçirilməsi, milli-mədəni təsisatların yaranması avar xalqının öz milli mədəni irslərini yaşatmağı qarşısında geniş üfüqlər açır.

Saxurların da əsas hissəsi Zaqatala rayonunda yaşayır. Saxurlar 1979-cu ildə 8,5 min, 1989-cu ildə 13,3 min, 1999-cu ildə isə 15,9 min nəfər olmuşdur[95]. Saxurların müəyyən bir hissəsi də Qax rayonunda yaşayır. Onların bu ərazilərə gəlişi haqqında müxtəlif fikirlər mövcuddur. Onların Dağıstan ərazisindən Azərbaycana (XIX əsr) keçmələri haqqında

[93] Cavadov Q.C. Talışlar. Bakı. Elm, 2004, s.15.
[94] Azərbaycan Respublikası əhalisinin siyahıya alınması. 1999-cü il, IV hissə, Bakı: Statistika Komitəsi, 2000, s.8-9.
[95] Yenə orada.

fikirlərdən tutmuş qədim alban tayfalarından biri olması haqqındakı fikirlər də mövcuddur[96].

Əldə olunan məlumatlara əsasən demək olar ki, bu regionda məskunlaşan etnosların əksəriyyətinin formalaşmasında albanların böyük rolu olmuşdur. Bu etnosların yayılma arealı təkcə Azərbaycanla bitmir, habelə Cənubi Dağıstanı da əhatə edir. Tarixi mənbələrə əsasən demək olar ki, Samur çayının vadisində 400 il bundan əvvəl Saxur kəndi mövcud olub. Bu kənddən çıxanlar Qafqaz sıra dağlarını aşaraq böyük tarixi abidələrilə məşhur olan Sarıbaş kəndinin əsasını qoymuşlar. Sonralar onların yayılma arealı genişlənmişdir. Onlar İlisu kəndində məskunlaşmışlar. O vaxtlar İlisu sultanlığı Car-Balakən camaatından asılı idi. Əvvəllər sultanlığın mərkəzi Qaxda idi, sonralar isə İlisuya köçmüşdulər. Burada onun bəzi tikililərinin qalıqları hələ indi də durmaqdadır. Sultanlığın əsas əhalisi Azərbaycan türkləri idi, lakin orada onlarla yanaşı saxurlar və ingiloylar da yaşayırdılar. Saxurlar əsasən heyvandarlıqla və əkinçiliklə məşğul idilər. Maddi-məişət və mədəniyyət sahəsində Azərbaycan türkləri ilə çox yaxındırlar. Qarşılıqlı nikahlar və sosial-siyasi əlaqələr saxurları Azərbaycan türklərinə bağlayan amillərdəndir.

Azərbaycanın qərbində – kiçik Qafqaz dağlarında kürdlər yaşayırlar. Onların sayı 1979-cu ildə 5,7 min, 1989-cu ildə 12,2 min, 1999-cu ildə 13,1 min nəfər olmuşdur[97]. Kürdlərin çoxu Laçın və Kəlbəcər rayonlarında yaşayırlar. Dağlıq Qarabağ

[96] Cavadov Q.C. Azərbaycanın azsaylı xalqları və milli azlıqları (Tarix və Müasirlik), Bakı: Elm, 2000, s.296-304.

[97] Azərbaycan Respublikası əhalisinin siyahıya alınması. 1999-cü il, (V hissə, Bakı: Statistika Komitəsi, 2000, s.8-9.





münaqişəsi zamanı kürdlər də bu rayonları tərk etmiş və respublikanın müxtəlif rayonlarına səpələnmişlər. Kürdlər arasında assimiliyasiya prosesi digər azsaylı xalqlara nisbətən daha sürətlə getmişdir. Kürd dili İran dilləri qrupuna daxildir. Azərbaycanda yaşayan kürdlərin əksəriyyəti İslam dininə ibadət edir. Onların bir qismi sünni, digəri isə şiədir. İçərilərində bəzi sektalar, məsələn, yəzdilər və əli-allahilər də vardır.

Kürdlərin Azərbaycana gəlmə tarixi hələ tam öyrənilməmişdir. Lakin ayrı-ayrı tarixi faktlara əsasən onların Azərbaycana gəlişi tarixi XI əsrdən başlayır, amma XIX əsrdən etibarən kütləvi xarakter alır[98]. Kürdlərin əsas məşğuliyyəti heyvandarlıq və kənd təsərrüfatıdır. 1990-cı ildə Bakıda «Ronayi» adlı kürdlərin mədəniyyət mərkəzi yaradılmış, dil və mədəniyyətlərinin inkişafı üçün müəyyən tədbirlər görülmüşdür[99].

Bəzi müəlliflər "Kürd məsələsi"nin Azərbaycana təsir edə biləcəyindən ehtiyat edərək Kürd amillərindən bəzi qüvvələrin və xüsusən, PKK-nın istifadə edə biləcəyi ehtimalını istisna etmirlər. Onlar bu məsələdə azərbaycanlıları daha ehtiyatlı davranmağa çağırırlar.

Dağ yəhudilərinin mənşəyi, onların Azərbaycana gəlişi və burada məskunlaşması məsələləri alimlər arasında hələ də mübahisəli məsələlərdən sayılır. Bu sahədə bir sıra suallar indi də elmi ictimaiyyətin diqqət mərkəzindədir. Güman edilir ki, irandilli bir etnos olmaq etibarı ilə onlar yəhudi dinini

[98] Vəliyev (Baharlı) M.H. Azərbaycan. Bakı: Azərbaycan, 1993, s.59

[99] Cavadov Q.C. Azərbaycanın azsaylı xalqları və milli azlıqları (Tarix və Müasirlik), Bakı: Elm, 2000, s.157.

sonradan qəbul etmişlər, yaxud uzun sürən qarşılıqlı təsir nəticəsində yəhudilər irandilli bir tayfaya çevrilmişlər.

Tarixi mənbələrə istinad edən alimlər hər iki baxışa dair fikirlərini əsaslandırmağa çalışırlar. Amma hər iki halda onlar yəhudilərin İran şahı I Yəzdəgird tərəfindən (309-381-ci illər) Azərbaycanın şimal-şərq rayonlarına köçürüldüklərini təsdiq edirlər[100].

Dağ yəhudilərinin kütləvi şəkildə yaşadıqları zonalarda özlərinə daimi məskən kimi kənd, qəsəbə və yaxud şəhər salmaları haqqında Qubalı Hüseynəli xana müraciətləri xoş məramla qarşılanmış və bunun nəticəsində də indiki Quba rayonundakı Qırmızı qəsəbə meydana gəlmişdir.

Hazırda onlar Qubada, Bakıda və respublikanın digər rayonlarında yaşayırlar[101]. Son illərin sosial-siyasi hadisələri dağ yəhudilərinin İsrailə və eləcə də digər xarici ölkələrə mühacirətini sürətləndirmişdir.

Məsələn, 1979-cu il siyahıyaalınmasında onların sayı 35,5 min, 1989-cu ildə 30,8 min olduğu halda indi onların sayı 8,9 minə enmişdir[102]. Dağ yəhudilərini azərbaycanlılar ilə birləşdirən ümumi cəhətlər çoxdur. Maddi-məişət, iqtisadi-siyasi və mədəni əlaqələr bu xalqların bir-birindən çox şeylər əxz etmələrinə səbəb olmuşdur. Onlar həmişə mehriban qonşuluq şəraitində yaşamış, biri-digərinin milli-mənəvi dəyərlərinə hörmətlə yanaşmışlar.

Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev Qırmızı

[100] Vəliyev (Baharlı) M.N. Azərbaycan. Bakı: Azərbaycan, 1993, s.57-58.
[101] Azərbaycan Respublikası əhalisinin siyahıya alınması. 1999-cü il. IV hissə, Bakı: Statistika Komitəsi, 2000, s.8-9.
[102] Yenə orada.





qəsəbə sakinləri ilə görüşdə demişdir: «Azərbaycan bütün xalqların böyük, gözəl ailəsidir. Azərbaycanda heç vaxt dini, milli, etnik zəmində ayrıseçkilik olmamışdır və olmayacaqdır. Bu, Azərbaycan dövlətinin siyasətidir»[103].

Azərbaycanda yaşayan etnik qruplardan biri də tatlardır. Tatlar irandilli xalqdır, fars dilinə yaxın dialektlərtdən birində danışırlar. VI əsrdə Sasani şahları tərəfindən Xəzər sahillərinə köçürülmüşlər. Çox güman ki, burada məqsəd türk mənşəli xəzərlərin və qıpçaqların Albaniyaya daxil olmasının qarşısını almaq olmuşdur.

Hazırda tatlar Dəvəçi, Xızı, Quba, Şamaxı, İsmayıllı, Abşeron rayonlarında kompakt halda yaşayırlar. "Tat" termini etnik məna kəsb etmir. Azərbaycanda yaşayan irandilliləri digərlərindən fərqləndirmək üçün işlədilir. Tat etnosuna Azərbaycanda yaşayan farslar (Bakının Balaxanı və Suraxanı qəsəbələrində), lahıclar (İsmayıllı rayonunun Lahıc kəndində) və s. aiddir. Onu da deyək ki, bəzi etnik türk maldar və çoban ailələrini də "Tat" adlandırırlar. Çünki «tat» sözünün bir mənası yerli deməkdir.

Azərbaycanın qərbində yaşayan dağlıq rayonların əhalisi özlərinə yaxın aran zonasının adamlarını "Tat" adlandırırlar. Habelə elat tərəkəmə camaatı da özlərindən olmayan yerli əhalini "Tat" adlandırırlar. Deməli, "Tat" sözünün mənası çox vaxt heç də onun ilkin mənasında işlədilmir.

1999-cu il siyahıyaalınmasına görə tatların Azərbaycanda

[103] Əliyev İ. Qırmızı qəsəbə sakinləri ilə görüş. «Respublika» qəz., Bakı, 2005, 26 iyul.

ümumi sayı 10,9 min nəfər olmuşdur[104]. Halbuki 1979 və 1989-cu il siyahıyaalınması zamanı tatların çoxu özlərini azərbaycanlı kimi qeyd etdirmişdir. Görünür, bu axırıncı siyahıyaalınmada dil amili xüsusi rol oynamışdır.

Tatlar özlərini Azərbaycan xalqının tərkib hissəsi sayır, Azərbaycan dilində danışıb, onlarla qaynayıb qarışmışlar.

Azərbaycan Respublikasının Qəbələ və Oğuz rayonlarında udilər məskunlaşmışlar. 1989-cu il siyahıyaalınmasına görə onların 4465 nəfəri Qəbələ rayonunun Nic kəndində, 100 nəfəri isə Oğuz rayonunun mərkəzində yaşayırlar[105]. Udilərin dili Qafqaz dil ailəsinin ləzgi dil qrupuna daxildir.

Udilər qədim Albaniyanın uti tayfasının nümayəndələridir. Utilərin adı hələ antik mənbələrdən məlumdur. Antik dövr müəlliflərinin verdikləri məlumatlara görə, udilərin nümayəndələri b.e.ə. V əsrdə İran şahı Kserks tərəfindən yunanlara qarşı müharibədə iştirak etmişlər. Udilər xristian dininə mənsubdurlar. 1836-cı ildə isə onların bir hissəsi Qriqoryan təriqətini qəbul etmişlər[106]. Əsasən Nicdə yaşayırlar. Onların dil və adət-ənənələrinin, maddi və mənəvi mədəniyyət nümunələrinin qorunub saxlanılması üçün hazırda böyük imkanlar yaranmışdır. Həm də 2003-cü ilin əvvəllərində udilər özlərinin xristian dinini bərpa etmişlər.Udilər çox sahədə özlərini azərbaycanlı sayırlar. Öz mahnılarını Azərbaycan dilində

[104] Azərbaycan Respublikası əhalisinin siyahıya alınması. 1999-cü il, IV hissə, Bakı: Statistika Komitəsi, 2000, s.8-9.

[105] Cavadov Q.C., Hüseynov R.Ə. Udilər (Tarixi-etnoqrafik tədqiqat). Bakı: Azərbaycan nəşriyyatı, 1996, s.28.

[106] Мамедова Ф.Д. Политическая история и историческая география Кавказской Албании (III в. до н.э – VIII в. н.э.). Баку, Елм, 1986, с.238-239.





oxuyur, Azərbaycan dilində təhsil alır, Azərbaycan ali və orta məktəblərində işləyir, hətta onların içərisindən çıxmış tanınmış alimlər Akademiya sistemində çox səmərəli fəaliyyət göstərirlər.

Onlardan professor V.L.Qukasyan Azərbaycan elminə qiymətli töhfələr vermişdir. Hazırda udi dilinin özü tədqiq olunur, bu dildə yaranmış bədii ədəbiyyat Azərbaycan və dünya dillərinə tərcümə olunur, həm də bu dildə dərsliklər yazılmaqdadır.

Udilərin «Orayin» (bulaq) adlı milli mədəniyyət mərkəzi yaradılmış və onlara udi xalqının qədim mədəniyyətini yaşatmaq üçün əlverişli şərait yaradılmışdır. Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev Qəbələ rayonunun Nic kəndində udilərlə görüşündə demişdir: «Azərbaycanın ən böyük nailiyyətlərindən, sərvətlərindən biri odur ki, bizim ölkəmizdə milli və dini baxımdan həmişə mehribanlıq olubdur. Azərbaycanda yaşayan bütün xalqlar ölkəmizin bütün yerlərində özünü doğma evindəki kimi hiss edir»[107].

Qafqaz sıra dağlarının qərb ətəklərində – Azərbaycanın Şimal qərbində yerləşən Şəki-Zaqatala regionunda Azərbaycan türklərinin, avarlar və saxurların əksəriyyət təşkil etdikləri ərazilərdə ingiloylar yaşayırlar. İngiloyların mənşəyi haqqında elmdə müxtəlif fikirlər mövcuddur[108]. Hazırda Balakən, Zaqatala və Qax rayonlarında məskunlaşmış ingiloyların dili gürcü dilinin şərq dialektlərindən birinin əsasında formalaşmışdır. Görünür, onlar uzun illərin qarşılıqlı əlaqələri

[107] Əliyev İ. Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin Qəbələ, Oğuz və İsmayıllı rayonlarına səfəri. «Respublika» qəz., Bakı, 2005, 20 avqust.

[108] Cavadov Q.C. Azərbaycanın azsaylı xalqları və milli azlıqları (Tarix və Müasirlik), Bakı: Elm, 2000, s.231-246.

nəticəsində bu dialekti özlərinə dil seçmişlər. Onların əksəriyyəti İslam dininə mənsubdur. İngiloy Azərbaycan dilində "yengi yol" deməkdir ki, bu da onların İslam dinini qəbul etmələri ilə əlaqədardır.

Çarizmin Qafqazı işğal etməsi ilə əlaqədar olaraq rus hakimiyyəti Qafqazda xristianlığın yayılmasına çalışır və xristianlığı qəbul edənlərə müəyyən güzəştlər tətbiq edir, onları vergilərdən azad edir, onların təhsil almaları üçün şərait yaradırdı. Ona görə də əhalinin bir qismi həmin dövrdə xristianlığı qəbul etmişdir.

Lakin sonradan İslam dininə yenidən qayıdanlar olurdu və onları "İngiloy" (yengiloy) adlandırırdılar. Onların İslam dininə itaət edənləri özlərini azərbaycanlı, xristianlığı qəbul edənlər isə özlərini gürcü adlandırırdılar.

Azərbaycanlı hesab olunan ingiloylar respublika əhalisinin istifadə etdiyi bütün hüquqlardan bəhrələnirlər. Təhsil sahəsində onlara hətta müəyyən güzəştlər də olunur, onların sosial-iqtisadi inkişaflarına şərait yaradılır.

Bu regionda yaşayan digər xırda xalqlar kimi ingiloylar da özünün təsərrüfat və məişət həyatına görə azərbaycanlılara çox yaxındır və onlarla qaynayıb-qarışmağa meyllidir. Ona görə də onların əksəriyyəti əhalinin 1989-cu il siyahıyaalınmasında özlərini azərbaycanlı kimi qeyd etdirmişlər.

İngiloy amili Azərbaycan-Gürcüstan münasibətlərində müəyyən əhəmiyyət kəsb edir, daha doğrusu, bu xalqı öz tərəfinə çəkmək uğrunda müəyyən mübahisəli məsələlər ortaya qoyur. Məsələn, Gürcüstanda Qamsaxurdiyanın prezident olduğu dövrdə ingiloylardan Azərbaycana qarşı bir kart kimi istifadə etmək cəhdləri olmuşdur. Hazırda bu problem aradan





qalxmış, Gürcüstan-Azərbaycan münasibətləri öz normal məcrasına düşmüşdür.

Şahdağ qrupu xalqlarının nümayəndələri əsasən Azərbaycan Respublikasının Quba, Xaçmaz, qismən İsmayıllı rayonlarında yaşayırlar. Bu etnik qruplara bəzən biraullu xalqlar da deyilir. Onlara buduqlar, xınalıqlar, qırızlar, hapıtlar, ceklər, əliklər daxildir. Göründüyü kimi, onlar sakinləri olduqları Buduq, Qırız, Xınalıq, Hapıt, Cek və Əlik adlı kəndlərinin adları ilə adlanırlar. Bu kiçik etnik qruplar tarixi ədəbiyyatda "Şahdağ etnik qrupları" adlandırılır. Onların dili Qafqaz dil ailəsinin ləzgi dil qrupuna daxildir. Qədim Alban tayfalarından sayılırlar[109]. Buduq, Qırız, Hapıt, Cek dilləri həm də ləzgi dili ilə yaxınlıq təşkil edir. Xınalıq dili isə bu cəhətdən müstəsna yer tutur. Bu dillərin daşıyıcıları üçün Azərbaycan dili də ana dili sayılır. Başqa sözlə, Şahdağ etnik qrupları ikidillidirlər.

Xınalıq dilinin şivə və dialektləri yoxdur. Onlar Azərbaycan dilindən geniş şəkildə istifadə edirlər. Qırız etnik qrupu haqqında Sovet hakimiyyətinə qədər məlumat verilməmişdir. Eyni sözləri buduqlar haqqında da demək olar. Tarixçi V.Piriyevin buduqlar haqqında yazdığı monoqrafiya onların dili, məişəti, mədəniyyəti, təsərrüfat həyatı haqqında müfəssəl məlumat verir. Son vaxtlar bu kiçik etnik qruplar geniş tədqiqatlara cəlb olunur, onların dilləri, mənşəyi və mədəniyyət nümunələri öyrənilir.

Professor V.Piriyev yazır: "Doğma Azərbaycanımızın müasir etnik mənzərəsinə diqqət yetirsək, rəngarəng naxışları ilə dünya şöhrəti qazanmış xalçalarımızı, min bir ətir saçan tər

[109] Cavadov Q.C. Etnik tariximizin açılmamış səhifələri. "Təkamül" jurnalı. 1999, №3, s. 58-68.

çiçəklərlə bəzənmiş gülzarlarımızı xatırladar. Onun hər bir güşəsində, hər bir səmtində məskunlaşmış etnik qruplar, xalqlar "Azərbaycan" adlı xalçamızın naxışları, gülzarın çiçəkləridir. Hər hansı bir naxışı pozulmuş xalça, çiçəyi solmuş gülzar öz təravətini itirdiyi kimi, bir etnik qrupun da yoxa çıxması Azərbaycan adının ululuğuna xələl gətirmiş olar. Azərbaycanın hüdudları çərçivəsində yaşayan müxtəlif xalqlar, qruplar – talışlar, kürdlər, ləzgilər, avarlar, yengiloylar, rutuliar, saxurlar, qumuqlar, darginlər, laklar, tabasaranlar, tatlar, tatarlar, udilər, yəhudilər, Şahdağ qrupu xalqları əsrlər boyu türklərlə çiyin-çiyinə yaşamış və indi də yaşamaqdadırlar. Onların bəziləri sayca yüz minlərlə adamı birləşdirsə də, digərlərinin sayı bir neçə mindən artıq deyildir. Azərbaycanın şimal-şərqində məskunlaşmış Şahdağ qrupuna daxil olan xalqların – xınalıqların, buduqların, qrızların, haputların, ceklərin hər biri də təxminən 10-20 min nəfəri birləşdirir"[110].

Yuxarıda deyilənləri nəzərə alsaq və respublika əhalisinin etnik tərkibi haqqında verilmiş cədvəlləri təhlil etsək, görərik ki, Azərbaycan Respublikasında yaşayan azsaylı xalqların və milli azlıqların özünəməxsus yeri vardır. Həm də onların azərbaycanlı etnosu ilə münasibətlərində ümumi və xüsusi – spesifik xüsusiyyətlər mövcuddur. Bunlar respublika daxilində milli etnik proseslərin bir neçə xarakterik xüsusiyyətlərini aşkara çıxarır:

Birincisi, Azərbaycan ərazisində yaşayan etnosların əksəriyyəti dini inam baxımından təkdildirlər, yəni onların çoxusu islam dininə etiqad edənlərdir.

İkincisi, dil amili baxımından bu etnosların əksəriyyəti

[110] Buduqlu (Piriyev) V. Buduq və buduqlular. Bakı: Sabah, 1994, s.3.





Azərbaycan dilindən ünsiyyət vasitəsi kimi istifadə edir, türk dili onların dillərini zənginləşdirən və inkişaf etdirən mənbə rolunu oynayır;

Üçüncüsü, təsərrüfat – məişət nöqteyi-nəzərindən bu xalqların həyatında ümumi cəhətlər yaranıb inkişaf etmişdir;

Dördüncü, tarixi tale ümumiliyi bu xalqları əsrlərlə bir-birinə yaxınlaşdırmış, onlara vahid Vətəni birlikdə müdafiə etmək kimi müqəddəs bir vəzifə həvalə etmişdir;

Beşinci, mədəni-psixoloji sahələrdə bu xalqlarda yaranmış ümumi dəyərlər onları birlikdə inkişaf etdirib qorumaq zərurətini yaratmışdır;

Altıncı, siyasi-geopolitik vəziyyət, yeni dünya qaydalarının yaranması bu xalqların maraq və mənafelərinin bir nöqtədə birləşdirilməsi zərurətini yaratmışdır.

# II FƏSİL.
# MİLLİ-ETNİK PROBLEMLƏRİN NİZAMLANMASININ SİYASİ-HÜQUQİ ASPEKTLƏRİ

*«Azərbaycan bütün xalqların böyük, gözəl ailəsidir. Azərbaycanda heç vaxt dini, milli, etnik zəmində ayrı-seçkilik olmamışdır və olmayacaqdır. Bu, Azərbaycan dövlətinin siyasətidir».*[1]

***İlham Əliyev***

***Azərbaycan Respublikasının Prezidenti***

## 2.1. Milli azlıqların hüquq və azadlıqlarının təmin olunması xüsusiyyətləri

Çoxmillətli ölkələrdə keçid dövründə demokratiya həqiqətən imtahan qarşısında qalır. Çünki demokratik proseslərin həyata keçirilməsi bu ölkələrdə məskunlaşan azsaylı xalqlarda və etnik qruplarda belə bir yanlış təsəvvür yaradır ki, guya onların hamısı ayrılıb ayrıca bir milli respublika yarada bilərlər. Halbuki millətlərin və xalqların öz müqəddəratlarını təyin etmək kimi təbii hüquqlar heç də başqasının xeyrinə həyata keçirilməməli, illərlə mövcud olmuş dövlət sərhədlərinin və ölkə bütövlüyünün pozulmasına xidmət etməməlidir. Bu mənada böyüklüyündən və kiçikliyindən asılı olmayaraq bütün xalqların nümayəndələri çoxmillətli dövlətin bərabərhüquqlu vətəndaşlarıdır və onların hüquq və azadlıqlarının dövlət səviyyəsində qorunması, şəxsiyyət hüquqlarının müdafiə olunması beynəlxalq sənədlərdə göstərilən müddəalara tam uyğun şəkildə həyata keçirilməlidir. Bu baxımdan milli





azlıqlara dair bəzi beynəlxalq və regional sənədlərin nəzərdən keçirilməsi zərurəti ortaya çıxır.

Xalqların hüquq bərabərliyi və onların öz müqəddəratını təyin etməsi müasir beynəlxalq hüququn hamı tərəfindən etiraf edilmiş prinsiplərindən biridir.

Hər bir xalq suverendir və bütün xalqlar hüquqca bərabərdirlər. Onlar sərbəst surətdə öz dövlətlərini yaratmaq və istədikləri kimi onu idarə etmək hüququna malikdirlər. Hal-hazırda dünyada 3 minə yaxın millət və formalaşmaqda olan potensial millət, 10 min etnik qrup var. Bu haqda Viktor Zotov yazır: "Ayrılmaq və müstəqil dövlət yaratmaq hüququnu bütün xalqlar həyata keçirsələr, bütün beynəlxalq münasibətlər dağılar"[111].

BMT-nin keçmiş baş katibi Butros Butros Qali də bu məsələ ilə əlaqədar öz narahtığını bildirərək demişdir: "Əgər hər hansı bir etnik, din və linqivistik qrup dövlətçilik tələb etsə, onda bölgünün həddi olmayacaq və dünyada sülhün, təhlükəsizliyin və iqtisadi firavanlığın əldə edilməsi daha çətin olacaqdır"[112].

Müharibədən sonrakı dövrdə BMT Nizamnaməsi xalqların hüquq bərabərliyi və öz müqəddəratının azad təyin etməsi prinsipinin dövlətlərin dinc, mehriban, dostluq münasibətlərinin əsası elan edir və prinsipin ümumi icbari norma olmasını etiraf edir. Xalqların hüquq bərabərliyi və öz müqəddəratını azad təyin etməsi prinsipi əsasında xalqlar arasında dostluq münasibətlərini inkişaf etdirmək tələbi BMT Nizamnaməsinin 1-ci maddəsinin 2-ci bəndində təşkilatın əsas

---

[111] Зотов В. Международное право. М.: Наука, 1994, с.48

[112] Yenə orada, s.48.

məqsədlərindən biri kimi göstərilir. BMT Nizamnaməsinin 13,55,76-cı və bir sıra digər maddələrində milli, irqi, dini və s. mənsubiyyətindən asılı olmayaraq, hamı üçün əsas insan hüquq və azadlıqlarına hörmət edilməsi və onlara riayət edilməsi ilə əlaqədar olaraq xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyin etməsi prinsipi də qeyd edilir.

BMT Nizamnaməsində bu prinsip ümumi beynəlxalq sülhün və təhlükəsizliyin qorunması və təyin edilməsi üçün ən mühüm şərt olduğu göstərilir. Xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipi sonrakı dövrün bir sıra beynəlxalq hüquqi aktlarında da təsdiq edildi. BMT Baş Məclisinin 1948-ci ildə qəbul etdiyi «İnsan Huquqları bəyannaməsi»ndə, 1965-ci ildə «irqi ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqına saziş»də, 1960-cı il tarixli "Müstəmləkə ölkələrinə və xalqlarına istiqlaliyyət verilməsi haqqında bəyannamə»də, 1966-cı ildə «İnsan hüquqları müahidələri»nin 1-ci maddəsində BMT Nizamnaməsinə uyğun olaraq dövlətlər arasında dostluq münasibətlərinə və əməkdaşlığa aid olan beynəlxalq hüquq prinsipləri haqqında 1970-ci il bəyannaməsində, 1975-ci ildə Helsinkidə qəbul olunmuş «Yekun akt»ında və s. mənbələrdə bu prinsip təsdiqlənmişdir. Həmin sənəddə deyilir: "İştirakçı dövlətlər daim BMT Nizamnaməsinin məqsədlərinə, müvafiq beynəlxalq hüquq normalarına uyğun hərəkət edərək xalqların hüquq bərabərliyinə və öz müqəddəratını təyin etmək hüququna hörmət bəsləyəcəklər"[113].

[113] Demokratiya: Gediləsi uzun bir yol. Antologiya. / Tərtib edən H.Hacızadə. İctimai və siyasi araşdırmalar mərkəzi, Bakı: «Azərbaycan», 2001, s.330.





Xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyin etmək hüququ prinsipinə əsasən bütün xalqların öz daxili və xarici siyasi statusunu kənardan müdaxilə olmadan tam müstəqillik şəraitində istədiyi vaxt və istədiyi kimi müəyyən etmək, öz siyasi, iqtisadi, ictimai və mədəni inkişafını öz arzusu baxımından həyata keçirmək hüququ vardır.

İştirakçı dövlətlər təsdiq edirlər ki, xalqların hüquq bərabərliyinə, öz müqəddəratını təyin etmək hüququna hörmət bəslənilməsi və bunların səmərəli şəkildə həyata keçirilməsi onların arasında, eləcə də bütün dövlətlər arasında dostluq münasibətlərinin inkişafı üçün ümumi əhəmiyyətə malikdir.

Beləliklə, xalqların hüquq bərabərliyini və onların öz müqəddəratını təyin etməsini etiraf və təsdiq edən BMT Nizamnaməsinin, habelə sonrakı mühüm beynəlxalq hüquqi aktların ən qısa xülasəsindən aşkar görünür ki, həmin prinsip təkcə rəsmi-siyasi bəyanat deyil, indi o, icbari xarakterli beynəlxalq hüquqi normadır, müasir beynəlxalq hüququn mühüm bir prinsipidir.

Hər bir dövlət yarandığı ilk gündən, xalqların öz müqəddəratını təyin etmək hüququnu özünün milli siyasətinin əsas prinsipi olduğunu elan etməlidir. Həm də hamı tərəfindən qəbul olunmuş, beynəlxalq, eləcə də dövlətlərin ərazi bütövlüyünə əməl edən hüquq normaları prinsiplərini əsas götürərək bu prinsipi həyata keçirmişdir.

Bütün xalqların öz müqəddəratını təyin etməsi hüququn pozulması əsassız olaraq hər hansı bir etnik icmanın öz müstəqilliyini özbaşına elan etmək və başqa dövlətin tərkibinə daxil olmaq hüququ kimi pərdələnir. Öz müqəddəratını təyin etmək hüququnun bu cür pozulması dövlətin suverenliyi və

ərazi bütövlüyü prinsipləri ilə kəskin ziddiyyət təşkil edir. Bu hüququ mütləqləşdirmək sahəsində hər hansı bir cəhd qarşısıalınmaz münaqişələrə gətirib çıxarır[114].

Avropa Şurası tərəfindən 1995-ci ilin 18 aprelində Strasburqda qəbul olunmuş "Milli azlıqların müdafiəsinin hədləri Konvensiyası"nda göstərilir ki, milli azlıqların hüquqlarının gözlənilməsi beynəlxalq əməkdaşlığın sahəsi olmaqla dünyada insan hüquqlarının qorunmasının tərkib hissəsidir. 32 maddədən ibarət olan bu sənəd ümumdünya miqyasında milli azlıqların sosial-iqtisadi, siyasi-mədəni hüquqlarının qorunmasına, onların azadlıqlarının və hərtərəfli inkişaflarının qorunmasına təminat verir. Avropa Şurası ölkələri başçılarının 1993-cü ilin 9 oktyabrında Vyanada qəbul etdikləri Konvensiyasının qərarlarına uyğun olaraq adı çəkilən Konvensiyada milli azlıqların dil, din, mədəni və etnik özgünlüyü kimi qurulmasına nəinki təminat verilir, habelə bu ölkələrin iqtidarlarından tələb olunur ki, onlar milli azlıqların özgünlüyünü qorumağa və inkişaf etdirməyə məsuldurlar. Bununla belə, göstərilən Konvensiya hər bir ölkənin Konstitusiya hüquqlarının və ərazi bütövlüyünün pozulmazlığını da zəruri hesab etmişdir. Daha doğrusu, etnik mülahizələr heç də dövlətin ərazisini parçalamağa xidmət etməməli, dövlətin ərazi bütövlüyü üçün təhlükə törətməməlidir. 29 iyun 1990-cı ildə imzalanmış «Kopenhagen sənədi»nə görə ölkələr öz üzərlərinə milli azlıqların qorunması təhüdlərini götürməklə heç də öz ölkə ərazilərini parçalamağı və onların ayrı-ayrı məhəllələrə ayırıb bu etnik birliklərə

[114] Sosial-siyasi problemlər. Toplu. VI buraxılış. Bakı: ADPU, 2001, s.134.





verməyi nəzərə tutmurlar. Eləcə də Haaqa və Oslo sənədləri. Deməli, milli azlıqların hüquqlarının qorunmasında beynəlxalq sənədlər müəyyən məhdudiyyətin olmasını istisna etmirlər. Bu sənədlərə görə hər bir milli azlıq öz müqəddəratlarını təyin edərkən yaşadıqları ölkənin ərazi bütövlüyünə və Konstitusiya qanunlarına ciddi hörmət etməlidirlər[115]. Bu sənədlərdən irəli gələn müddəaları nəzərə alan Azərbaycan Respublikasının rəhbərliyi özünün qəbul etdiyi sənədlərdə milli azlıqların və onların nümayəndələrinin şəxsi azadlıqlarının, sosial-siyasi, iqtisadi-mədəni inkişaflarının qarşısında böyük prespektivlər açmış və onları hüquqi sənədlərdə əks etdirmişlər. Məsələn, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında yaşayan milli azlıq, azsaylı xalq və etnik qrupların hüquq və azadlıqlarının qorunması, dil və mədəniyyətlərinin inkişafı üçün dövlət yardımı haqqında" 16 sentyabr 1992-ci il tarixli 212 saylı fərmanında deyilir: "Azərbaycan Respublikasının ərazisində yaşayan milli azlıq, azsaylı xalq və etnik qrupların nümayəndələrinin Azərbaycan Respublikasının Konstitusiyasında müəyyən edilən siyasi, iqtisadi, sosial, mədəni hüquqlarını və azadlıqlarını qorumaq, onların həyata keçirilməsinə yaxından kömək göstərmək məqsədi ilə nazirlik və idarələrin fəaliyyət çərçivəsində milli münasibətlərlə bağlı məsələlərə, bu fərmandan irəli gələn vəzifələrə hərtərəfli baxılsın"[116].

[115] Azərbaycanda milli azlıqlar: sosial-iqtisadi və siyasi şərait. Demokratik islahatlar uğrunda cəmiyyəti. Bakı: 2000, s.10.

[116] «Azərbaycan Respublikasında yaşayan milli azlıq, azsaylı xalq və etnik qrupların hüquq və azadlıqlarının qorunması, dil və mədəniyyətlərinin inkişafı üçün dövlət yardımı haqqında» Azərbaycan Respublikasının Prezidentinin fərmanı «Xalq qəzeti». Bakı, 1992, 20 sentyabr.

Fərmanda daha sonra deyilir:

"Milli azlıq, azsaylı xalq və etnik qrupların nümayəndələrinin peşə hazırlığına uyğun olaraq və heç bir ayrı-seçkiliyə məruz qalmadan bərabər hüquqlara malik olmasını nəzərə alaraq, həmin hüquqların həyata keçirilməsi üçün hərtərəfli şərait yaradılsın, onların pozulmasına yönəldilmiş hər hansı bir hərəkətin, yaxud hərəkətsizliyin qarşısı alınsın, ərizə və şikayətlərin baxılmasına və vətəndaşların qəbulunda həmin məsələlərin həllinə diqqət artırılsın[117]. Fərmanda Azərbaycan Respublikasının Prezident Aparatına, Azərbaycan Respublikası Nazirlər Kabinetinə, Azərbaycan Respublikasının nazirliklərinə və idarələrinə, yerli icra hakimiyyəti başçılarına aşağıdakı istiqamətlərdə dövlət yardımının və hökumət siyasətinin həyata keçirilməsi bir vəzifə kimi tapşırılır:

- milli azlıq, azsaylı xalq və etnik qrupların mədəni, dil və dini özgünlüyünün qorunub saxlanılması və inkişaf etdirilməsi;
- milli ənənə və adətlərə əməl, dini mərasim və ayinlərin tam azad icra edilməsi, ibadət yerlərinin qorunub saxlanılması və onlardan istifadə edilməsi;
- milli sənətkarlığın, peşəkarlıq və özfəaliyyət yaradıcılığı və xalq sənətlərinin sərbəst inkişaf etdirilməsi;
- bütün millətlərin tarix və mədəniyyət abidəlirinin qorunması;
- əhali üçün əhəmiyyətli olan yerlər, qoruqlar, parklar və

[117] «Azərbaycan Respublikasında yaşayan milli azlıq, azsaylı xalq və etnik qrupların hüquq və azadlıqlarının qorunması, dil və mədəniyyətlərinin inkişafı üçün dövlət yardımı haqqında» Azərbaycan Respublikasının Prezidentinin fərmanı. «Xalq qəzeti». Bakı, 1992, 20 sentyabr.





digər təbiət obyektlərinin mühafizə olunub saxlanılması[118].

İnsan hüquqları ilə milli azlıqların hüquqları arasında elə bir demarkasiya xətti olmasa da, onlar eyni də deyillər. İnsan hüquqları geniş anlayış olsa da son onillikdə Beynəlxalq təşkilatlar bu hüquqlarla müqayisədə azlıqların hüquqlarının qorunması sahəsində daha çox tədbirlər işləyib hazırlamış və kəmiyyət etibarilə daha çox sənədlər qəbul etmişlər. Bu onunla əlaqədardır ki, müasir dünyanın etnik-siyasi xəritəsi polietnik xarakter daşıyır. Daha aydın desək, müasir dünya xəritəsi antroposferanın mozaik forması olan etnoposferadan ibarətdir.

16 dekabr 1996-cı il tarixdə qəbul olunmuş "Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq müqavilə"də deyilir: "Bütün xalqlar öz müqəddəratını təyin etmək hüququna malikdirlər. Bu hüquqlar əsasında onlar öz siyasi statusunu və öz iqtisadi sosial və mədəni inkişafını sərbəst təyin edirlər"[119]. Lakın bu hüquqların həyata keçirilməsi naminə vahid dövlətin parçalanması BMT-nin başqa bir qətnaməsinə və eləcə də Helsinki müşavirəsinin yekun aktı ilə qəti qadağan edilir. Daha aydın desək polietnik zəmində milli azlıq öz müxtariyyətini yalnız vahid ölkə daxilində reallaşdıra bilər.

Milli azlıqlar haqqında hamı tərəfindən ümumı qəbul edilmiş tərif yoxdur. Lakin milli azlıqları müəyyən etmək üçün müxtəlif meyarlar var:

1) obyektiv meyarlar: bənzərsiz etnik xüsusiyyətlər, onun sayca azlıq təşkil etməsi, hakim mövqe tutmaması, onun üzvlərinin dövlətin vətəndaşı olması; 2) subyektiv meyarlar:

[118] Yenə orada.

[119] Azərbaycanda milli azlıqlar sosial-iqtisadi və siyasi şərait. Demokratik islahatlar uğrunda cəmiyyət. Bakı: 2000. s.35.

qrup üzvlərinin öz xüsusiyyətlərini qoruyub saxlamağa can atması.

1918-1920-ci illərdə mövcud olmuş və fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyəti bütün islam şərqində və türk dünyasında yaradılmış respublika tipli ilk dövlət qurumu idi. Lakin bu respublikanın ömrü çox az oldu. Müxtəlif xarici və daxili amillər onun mövcudluğuna son qoydu.

Lakin bu respublikanın əkdiyi toxumlar səmərəsiz də olmadı. Millətin ictimai-siyasi həyatında və tarixi yaddaşında həkk olunmuş azadlıq ideyaları bir də yenidən baş qaldırdı. Xalqımız XX əsrin sonunda bir daha müstəqillik əldə etdi və onu hüquqi aktlarla əbədiləşdirdi.

1991-ci ilin 18 oktyabrında "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" tarixi akt qəbul edildi. Yeni yaranan müstəqil respublika təntənəli surətdə elan etdi ki, o, əvvəlki müstəqil Cümhuriyyətin, yəni AXC-nin (bir sıra mənbələrdə bu respublika ADR kimi qeydə alınmışdır) tarixi və hüquqi varisi olmaqla Azərbaycan xalqının çoxillik arzu və istəklərinin məntiqi nəticəsi kimi meydana gəlmişdir.

Məlumdur ki, hüquqi dövlətin yaranması prosesi onilliklərlə davam edir. Ona görə də belə bir dövlətin əsas hüquqi aktının qəbul edilməsi sadəcə bir iş deyildir. Bu, ağır zəhmətin, gərgin əməyin, sivil dövlətlərin təcrübəsinin öyrənilməsinin və ümumləşdirilməsinin nəticəsidir. Belə ki, 1995-ci il noyabrın 12-də yeni Azərbaycan Konstitusiyasının qəbul edilməsi onun istər beynəlxalq aləmdə, istərsə də daxildə təsbit olunması demək idi. Ölkənin yeni konstitusiyası respublikanın sosial-siyasi quruluşunun əsaslarını, onun gələcək inkişaf istiqamətlərini və meyllərini müəyyənləş-





dirmişdir.

Dünya ölkələrinin təcrübəsinə əsaslanan konstitusiya hakimiyyətin bölünməsini qanunverici, icra və məhkəmə hakimiyyətlərini, əhalinin hüquq və azadlıqlarını, onların məsuliyyət və vəzifələrini aydın şəkildə əks etdirir. Konstitusiya sosial, daxili və xarici siyasət, milli, dini, dil və mədəniyyət problemləri sahəsində insanları maraqlandıran və narahat edən əsas məsələlərə aydın cavab verir. Konstitusiya insan azadlıqları və hüquqları sahəsində əldə edilmiş təcrübələrdən istifadə etməklə onlar arasında dəqiq sərhədlərin müəyyən edilməsi nümunəsidir.

Keçid dövründə Azərbaycan cəmiyyəti üçün əldə tutula biləcək fundamental prinsiplərin hamısı konstitusiyada öz əksini tapa bilmişdir. Yuxarıda göstərilən hüquqi aktlar hər bir respublika vətəndaşı üçün universaldır.

Azərbaycan xalqının dövlətçilik ənənələrinin kökləri tarixin qədim dövrələrinə gedib çıxır. Xalqımızın qədim və zəngin tarixini yaradan ulu babalarımız özlərindən sonrakı nəsillərə şanlı tarix qoyub getmişlər. Hətta qəddar cahangirlərin, böyük imperiyaların canlı hökmranlığı belə Azərbaycanı siyasi və etnik bir varlıq kimi yer üzündən silə bilməmişdir. Zamanın ən sərt sınaqlarından çıxan Azərbaycan xalqı müxtəlif dövrlərdə özünün müstəqil, güclü dövlətlərini yaratmış və inkişaf etdirmişdir.

XX əsrin sonunda sovet imperiyasının 70 il ərzində xalqımıza qarşı ədalətsiz siyasətinə etiraz edən Azərbaycan xalqı öz müstəqilliyini bərpa etməyə nail oldu.

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycan Respublikasının dövlət müstəqilliyi

haqqında" Konstitusiya Aktını qəbul etdi və bu sənəd 1991-ci ilin dekabrın 30-da keçirilən ümumxalq səsverməsində mütləq səs çoxluğu ilə təsdiq edildi. Bu Konstitusiya Aktı yenicə müstəqilliyini qazanmış respublikamızın öz dövlətçiliyini yaratması və inkişaf etdirməsi yönümündə ilk dövrlərdə böyük əhəmiyyət kəsb edirdi.

Zaman keçdikcə respublikamızda yaranan ictimai-siyasi vəziyyət bu sahədə dövrlə ayaqlaşan daha mükəmməl qanunun yaradılmasının vacibliyini bariz şəkildə göstərdi. Dövlət quruculuğunun bu sahəsində ən əlamətdar hadisə "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında əks olunan prinsiplər əsasında ölkənin ictimai, siyasi, iqtisadi quruluşunun əsasını, idarəetmə formasını və dövlət quruluşunun formasını, şəxsiyyətin hüquqi vəzifəsini, mərkəzdə və yerlərdə hakimiyyət idarəetmə orqanlarının təşkili qaydasını və səlahiyyətini, ədalət mühakiməsinin, seçki sisteminin təşkilini və əsas prinsiplərini təsbit edən dövlətin əsas qanunu olan Konstitusiyamızın xalq tərəfindən referendum yolu ilə qəbul edilməsi olmuşdur.

Respublikamızın Ali Qanununun qəbulu demokratik dəyərlərin reallaşmasına, hakimiyyət bölgüsünün əsas mexanizmlərinin hüquq və vəzifələrinin müəyyənləşməsinə, xalqın maddi təminat və rifah halının yaxşılaşması üçün hüquqi bazanın yaradılmasına böyük təkan verdi. Dövlət başçısı Heydər Əliyevin bilavasitə rəhbərliyi altında hazırlanmış müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası milli mentalitet və adət-ənənələrdən qaynaqlanaraq dövlət quruculuğu prosesinin uğurla həyata keçirilməsi işində müstəsna rol oynayır. Konstitusiya siyasi, iqtisadi, hərbi,





mədəni və digər sahələrlə bağlı prinsipləri əks etdirməklə Azərbaycanın gələcək ictimai-siyasi həyatının əsas istiqamətlərini və qarşıda duran tarixi vəzifələrin əhəmiyyətini müəyyənləşdirmişdir. Ali Qanunu hazırlayan komissiyaya rəhbərlik edən Prezident H.Əliyev Azərbaycanın müstəqilliyinin dönməz, əbədi olduğunu qətiyyətlə vurğulamış və bu fikirlər Konstitusiyamızda geniş şəkildə təsbit olunmuşdur. Suveren respublikanın Əsas Qanunu Azərbaycanı dünya dövlətlərinin təcrübəsindən istifadə etməklə beynəlxalq arenada demokratik ənənələrin daşıyıcısı olduğunu və hüquqi dövlət qurmaq üçün demokratik sistemin təkmilləşməsinə təminat verdiyini bir daha bütün aktuallığı ilə qarşıya qoyur.

Milli Konstitusiyamızın tarixi rolunu və dövlət quruculuğu prosesindəki müstəsna əhəmiyyətini nəzərə alan ölkə rəhbəri H.Əliyev hələ 3 oktyabr 1995-ci il tarixində keçirilən Konstitusiya layihəsini hazırlayan komissiyanın iclasındakı çıxışında demişdir: «Bizim yeni konstitusiyamız, şübhəsiz ki, birinci növbədə Azərbaycan Respublikasının dövlət müstəqilliyini, bu müstəqilliyin əbədi olduğunu və dövlət müstəqilliyini qoruyub saxlamaq, yaşatmaq üçün bütün prinsipləri əks etdirməlidir. Yeni Konstitusiyamız demokratik prinsipləri özündə əks etdirməlidir. Yəni dünya demokratiyasının əldə etdiyi bütün nailiyyətlərdən, demokratiya sahəsində inkişaf etmiş dövlətlərin Konstitusiya təcrübəsindən istifadə etməli və Azərbaycan Respublikasının özünəməxsus tarixi, milli ənənələrini əks etdirən prinsipləri özündə cəmləşdirməlidir. Bir sözlə, biz elan etmişik və mən bir daha bəyan edirəm ki, Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı, dünyəvi dövlət qururuq. Demokratik, hüquqi,

sivilizasiyalı dövlət quruculuğu proseslərini və bunu təmin etmək üçün bütün şərtləri, müddəaları Konstitusiya özündə əks etdirməlidir»[120].

Milli azlıqların hüququnun qorunması üçün xüsusi təminat tələb olunur. Azərbaycan Respublikasında belə təminat dövlət səviyyəsində verilmişdir. Respublikanın 1995-ci ilin 12 noyabrında qəbul etdiyi əsas sənəd (Konstitusiya) və digər hüquqi Aktlar buna misal ola bilər. Konstitusiyanın 5-ci maddəsində göstərilir ki, Azərbaycan xalqının vəhdəti onun dövlətinin əsasını təşkil edir. Azərbaycan Respublikasında yaşayan bütün vətəndaşlar üçün bu respublika ümumi və ayrılmaz bir vətəndir[121]. Yenə də həmin sənədin 25-ci və 45-ci maddələrində milli azlıqların hüquqları nəzərdə tutulur. Məsələn, 45-ci maddədə göstərilir ki, hər bir şəxs öz ana dilində, istədiyi xarici dillərdə təhsil almaq və danışmaq hüququna malikdir və heç kim bu hüquqdan məhrum edilə bilməz[122]. Göründüyü kimi, bu sənəddə irəli sürülən hüquq və azadlıqlar ancaq milli azlıqlar üçün nəzərdə tutulmamışdır. Yəni hər bir şəxs öz dilində yazıb oxumaqda, danışmaqda, Kütləvi İnformasiya Vasitələri yaratmaqda, qəzet və jurnal buraxmaqda, tarixi mənbələri öyrənməkdə, öz milli mənşəyini tədqiq etməkdə, milli-mənəvi irsini mənimsəməkdə və s. azaddır. Lakin bütün bunlar milli azlıqların yaşadıqları ölkənin ümumi mənafe və maraqlarına zidd olmamalı, etnotəəssübkeş millətçiliyə xidmət etməməlidir. İkinci bir tərəfdən, onlar ölkədə yaşayan digər millət və xalqların arasında olan dostluğa

120 Əliyev H. Müstəqilliyimiz əbədidir. IV c. Bakı: Azərnəşr, 1997, s.319-320.
121 Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2001, s.5.
122 Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2001, s.16.





və qardaşlığa xələl gətirməməlidir.

1993-cü ildə Azərbaycanın çox ağır bir vaxtında Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlməsi müstəqilliyimizi məhv olmaqdan qurtardı, respublikamızı parçalanmaqdan xilas etdi. Həmin dövrdə Azərbaycanın cənub bölgəsində separatçı qüvvələrin başçısı Əlikram Hümbətovun ifşa olunmasında, bu regionda xalqın milli-etnik birliyinin möhkəmlənməsində Heydər Əliyevin televiziya ilə çıxış etməsinin çox böyük rolu olmuşdur. Böyük öndərin bu çıxışı təkcə həmin dövr üçün deyil, bu günümüz üçün də çox ibrətamiz əhəmiyyət kəsb edir. O, demişdir: «Əlikram Hümbətov və onun ətrafındakı mafioz dəstələr öz çirkin niyyətlərini həyata keçirmək üçün bir məsələ ortaya atmışlar: guya «Talış Respublikası» yaratmaq istəyirlər. Bilirsiniz, bizim Azərbaycan – vahid Azərbaycandır. Onun vətəndaşlarının hamısı eyni hüquqlara malikdir. İndiyədək Azərbaycanda heç vaxt talış-azərbaycanlı, türk və sair söhbəti olmamışdır. Bu, süni surətdə ortaya atılmış şeydir. Talış köklü adamların hamısı azərbaycanlı kimi, Azərbaycanın layiqli vətəndaşları kimi yüz illərlə Azərbaycanın vahid ailəsində yaşamışlar, birləşmişlər, bir-birinə qovuşmuşlar. Onları bir-birindən ayırmaq olmaz. Bu, əti dırnaqdan ayırmağa bərabərdir. Ayrı-ayrı avantüristlərdən savayı, buna heç kəs yol verməz. Ona görə də bizim, şəxsən mənim talış köklü adamların hamısına həmişə böyük hörmətim olub, o bölgənin adamlarına şəxsən mən, nəinki mən, bütün Azərbaycan rəhbərliyi böyük hörmət və rəğbətlə, qayğı ilə yanaşmışıq və bundan sonra da bu davam edəcəkdir.

Bizim birliyimizi heç kəs poza bilməz, bizi bir-birimizdən heç kəs ayıra bilməz. Əlikram kimi şəxslər talış köklü adamlar

üçün təhqirdir və kim onu özünə bir rəhbər kimi, yaxud lider kimi qəbul edirsə, o özünü mənəvi cəhətdən, siyasi, milli cəhətdən təhqir edir. Belələri varsa, onlar da ayılmalıdırlar və məsələləri özləri araşdıraraq bütün bu çirkin işlərdən uzaqlaşmalıdırlar. Nəinki uzaqlaşmalı, həm də etiraz səslərini ucaltmalıdırlar, həmin adamları təcrid etməlidirlər, Azərbaycanın birliyinə kömək etməlidirlər»[123].

Əksər Avropa ölkələrində də ölkənin əsas millətilə yanaşı olaraq etnik azlıqlar da yaşayır. Lakin bu ölkələrin yeritdikləri milli siyasət, habelə həmin azlıqların ölkə qanunlarına olan etimadı bu ölkələrdə milli münaqişələ in yaranıb inkişaf etməsinə zəmin yaratmır. Bu mənada Azərbaycan Respublikasında da bu ölkələrin tarixi təcrübəsindən öyrəniləsi şeylər çoxdur. Bu, həm dövlətə, həm də onun sərhədləri daxilində yaşayan bütün xalqlara aiddir. Halbuki çoxmillətli dövlətlərdə milli azlıqların hüquqlarının tanınması, onlar barədə müəyyən güzəştlərin tətbiqi, onların milli-mədəni muxtariyyətlərinin tanınması və s. faktları heç də onları vahid ölkənin vətəndaşı olmaq vəzifəsindən azad etmir, onların separatizminə haqq qazandırmır. Əksinə, milli azlıqların çoxmillətli dövlətlərdə digər iri etnoslarla birlikdə yaşaması onların sosial-iqtisadi və mədəni inkişafları üçün əlverişli bir zəmin yaradır.

ABŞ-ın BMT-də daimi nümayəndəsi, xüsusi səfir Merris Abram 1993-cü ilin fevral ayının əvvəlində Cenevrədə keçirilən İnsan Hüquqları Komissiyasının iclasında millətlərin öz müqəddəratını təyin etmək hüququnun müasir təfsiri haqda

123 Səmədov A. Azərbaycanın qurtuluş tarixi. III c., Bakı: «Tural-Ə», NRM, 2002, s.196-197.





BMT-nin və ABŞ-ın rəsmi nöqteyi-nəzərini bəyan etmişdir. O bildirmişdir ki, tarixi məlum olan bu ziddiyyətli və mürəkkəb problemin müasir həlli konkret vəziyyətdə suveren dövlətin və millətin mənafelərinin nəzərə alınmasını tələb edir. Bununla belə, milli azlıqların hüquqları həll edilərkən suveren dövlətlərin ərazi bütövlüyünə üstünlük verilməlidir. BMT xartiyasında milli müqəddərat hüququ milli azlıqların vətəndaşlıq və insan hüquqlarının müdafiəsi vasitəsi kimi qiymətləndirilir. Milli azlıqların bu hüquqdan istifadə edərkən ərazilərində yaşadıqları dövlətin torpaqlarına milli xüsusiyyətlərinə görə göz dikməsi, onları parçalamağa səy göstərməsi qətiyyən yolverilməzdir. Öz müqəddəratını təyin etmək hüququnundan istifadə etmək iddiasında olan millətlərin əsas kütləsinin və onların başqa dövlətlərin ərazisində yaşayan etnik icmaların statusunun müxtəlif səviyyəsi hamı tərəfindən qeyd-şərtsiz qəbul edilmişdir. Ona görə də bu icmaların milli və dini əlamətlərə görə ərazi iddiaları ilə çıxış etməyə haqları yoxdur[124].

Burada bir cəhət mütləq nəzərə alınmalıdır. Başqa xalqın, millətin ərazisinə tarixin müəyyən mərhələsində köçürülərək məskunlaşdırılmış hər hansı millətin sonradan həmin xalqa, yaxud millətə qarşı öz millətçilik ambisiyasını diqtə etməyə heç bir siyasi haqqı yoxdur. Burada söhbət ermənilərin vaxtilə Azərbaycan ərazisinə köçürülərək məskunlaşdırılmasından və onların xalqımıza qarşı həyata keçirdikləri bədnam millətçilik siyasətinin əsassızlığından gedir və bu erməni millətçiliyinin bir təzahürü də Azərbaycan torpaqlarının Ermənistan tərəfindən

124 Tağıyev Ə.M.,Şükürov M.A. İki əsrin qovşağında Azərbaycan: milli və millətlərarası problemlərin həlli yolunda. Bakı: «Adiloğlu» nəşriyyatı, 2004, s.99-100.

işğal olunmasıdır.

Keçid dövrünün ictimai-siyasi və sosial-iqtisadi çətinlikləri çoxsaylı problem doğursa da, Azərbaycan dövləti ümummilli lider Heydər Əliyevin rəhbərliyi ılə ardıcıl milli siyasət xətti yeritmiş, insan hüquq və azadlıqlarının təmin edilməsi, milli azlıqların qorunması sahəsində mühüm dövlət tədbirləri həyata keçirmişdir.

Demokratik hüquqi dövlət quruculuğu yolu ilə inamla irəliləyən müstəqil Azərbaycan Respublikasının Konstitusiyasında bütün vətəndaşların, o cümlədən ölkəmizdə milli azlıqların və azsaylı xalqların hüquq və azadlıqlarına dövlət təminatı verilir. Həmin Konstitusiya müddəalarına müvafiq olaraq Azərbaycanda milli azlıqların qorunması sahəsində dövlətin siyasi kursu aşağıdakı istiqamətlərdə aparılır:

- dövlət suverenliyi, milli dövlətçilik və ərazi bütövlüyü prinsipinə dönmədən əməl olunması;
- Azərbaycan Respublikasında yaşayan bütün milli azlıqların hüquq və azadlıqlarının, insan haqqlarının qorunmrası, onların dil və mədəniyyətinin inkişafına dövlət yardımının və qayğısının təmin edilməsi;
- milli azlıqların qorunmrası sahəsində Azərbaycan Konstitusiyasının tələblərinə, eyni zamanda beynəlxalq saziş və müqavilələrə uyğun olaraq siyasi kursun ardıcıl həyata keçirilməsi;
- beynəlxalq standartlara uyğun milli qanunvericilik bazasının yaradılması;
- Azərbaycanın unikal tarixi sərvəti olan etnik rəngarəngliyin qorunub saxlanması, nümunəvi birgəyaşayış qaydalarının, tarixi dostluq və qonşuluq ənənələrinin dirçəldilərək Azərbaycan cəmiyyətinin prioritet yaşayış prinsiplərinə çevrilməsi;
- Azərbaycançılıq, vətənçilik ideyalarının cəmiyyətdə tam bərqərar edilməsi üçün hüquqi-ideoloji, mənəvi-psixoloji bazanın daha da möhkəmləndirilməsi;
- milli-dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşların hüquq bərabərliyinin təmin edilməsi, diskriminasiyaya, milli-irqi ayrı-seçkiliyə, dini dözümsüzlüyə yol verilməməsi[125].

Bir sıra politoloqlar Azərbaycan Respublikasının polietnikliyini nəzərə alaraq pasportlarda millətin göstərilməsini elə də zəruri saymırlar. Onlar "millət" qrafasında "Azərbaycan vətəndaşı"nın yazılmasını daha məqsədəuyğun sayırlar[126]. Xarici ölkələrin bir çoxunda bu, praktikadan keçirilmiş və yaxşı nəticələr əldə olunmuşdur.

Bu, alimlərə və siyasətçilərə görə "Azərbaycan vətəndaşı", yaxud «Azərbaycan Respublikasının vətəndaşı" onun sakinləri arasında baş verə biləcək hər hansı bir qarşıdurmanı aradan qaldırmaqla milli-etnik zəmində baş verə biləcək münaqişələrə son qoya bilər. Azərbaycan vətəndaşlığının dərk olunması onların ümumi vətənləri olan Azərbaycana bağlılığını daha da möhkəmləndirər, bu torpağın birgə qorunması və istifadəsi üçün onların məsuliyyətini artırar, ümumi düşmənə qarşı mübarizədə onları bir cəbhədə birləşdirər.

[125] Orucov H. Azərbaycanda millətlərarası münasibətlərin inkişafı və möhkəmlənməsində Heydər Əliyevin rolu // Dövlət müdriklik məktəbi. Bakı, 2000, s.50-51.

[126] Azərbaycanda milli azlıqlar: sosial-iqtisadi və siyasi şərait. Demokratik islahatlar uğrunda cəmiyyəti. Bakı: 2000, s.35.

1995-ci ildə ümummilli liderimiz H.Əliyev Ləzgi nümayəndələri ilə görüşdə Azərbaycanda yaşayan xalqların bir ad – azərbaycanlı adı altında birləşməsi faktına toxunmuş və demişdir: ««Azərbaycanlı» məfhumu çox genişdir. Ərazimizdə yaşayan azərbaycanlı da, ləzgi də, avar da, kürd də, talış da, udi də, kumıx da, başqaları da – bütünlükdə hamısı azərbaycanlıdır. Bu «azərbaycanlı» sözü bizi həmişə birləşdirir»[127].

Beləliklə, özünün keçid dövrünü yaşayan Azərbaycan cəmiyyətində millətlərarası münasibətlərin keyfiyyətdə yeniləşdirilməsi həyata keçirilən siyasi, sosial-iqtisadi və mənəvi-əxlaqi dəyişikliklər sisteminin tərkib hissəsi olmalıdır ki, bu da cəmiyyətinin dəyişməsinə sistemli yanaşmanın vacibliyini göstərir.

D.M.Qvişianinin qeyd etdiyi kimi, yalnız sistemli yanaşma sosial həyatın yeniləşməsi sistemində onun bir komponenti olan millətlərarası münasibətlər sahəsində keyfiyyət dəyişikliklərinin əhəmiyyətini, onların daxili dinamikasını müəyyən etməyə imkan verir[128].

Digər sahələrdə olduğu kimi, bu sahədə də dərin dəyişikliklərin və islahatların aparılması mövcud deformasiyaların və böhranlı halların aradan qaldırılmasına, bütövlükdə isə ölkədə ədalətli hüquqi dövlət quruculuğu məqsədinin reallaşmasına xidmət etməlidir. Bütün bunlar da millətlərarası münasibətlər sahəsində dövlət siyasəti həm hər bir milli-etnik birliyin daha da inkişafı, həm də bu münasibətlərin humanistləşməsi üçün

[127] Əliyev H. Ölkəmizdə yaşayan hər bir millətin nümayəndələri üçün Azərbaycan doğma vətəndir. «Azərbaycan» qəz., Bakı, 1995, 22 fevral.
[128] Гвишиани Д.М. Системная природа перестройки // Вопросы философии, 1988, № 7, с.9..





şəraitin yaradılması məqsədi ilə qurulmalı, bu siyasətdə ölkədə yaşayan bütün millətlərin tələbatları və maraqları, ictimai inkişaf səviyyəsi nəzərə alınmalıdır[129].

## 2.2. Milli-etnik proseslərdə münaqişəli vəziyyətlər və onların aradan qaldırılması yolları

Konfliktlərin yaranmasının tarixi kökləri olduqca qədimdir. Hələ bizim eradan əvvəl müxtəlif xalqların miflərində, əsatirlərində və rəvayətlərində konfliktlərin yaranması, baş verməsi haqqında söhbətlər açılır və onların həlli yolları ilə bağlı fikirlər söylənilirdi. Sonralar mifoloji dünyagörüşün fəlsəfi dünyagörüşü ilə əvəz edilməsi, elmi biliklərin yaranması və inkişafı cəmiyyətin sosial strukturunun -qrupların, siniflərin, dövlətlərin və millətlərin formalaşması nəticəsində münaqişələr haqqında olan təsəvvürlərimiz daha dəqiq və dərin məzmunda öz əksini tapmağa başlayır. Məsələn, qədim Misir əsatirlərindən sayılan "İsida və Osirisi" haqqında əsərdə insanlar arasında gedən mübarizələrdən və münaqişələrdən söhbət açılır və cəmiyyətdə baş verən bu mübarizənin təbiət hadisələrində də öz əksini tapması fikri irəli sürülür. Qədim Şumerlərə məxsus "Enmerkar və Aratta" mifologiyasında təkcə konfliktlərin baş verməsi halları deyil, həm də dünyada ilk dəfə olaraq onların sülh danışıqları vasitəsilə həlli yolları irəli sürülür. Şumer-Akkad əsatirlərində həmçinin siyasi hakimiyyət uğrunda gedən mübarizədə allahlar arasında baş verən münaqişə təsvir olunur.

[129] Мехтиев Р.А. Межнациональные отношения на исходе XX столетия: проблемы теории и политики.Баку: Азернешр, 1995, с.96.

Zərdüştlüyün müqəddəs kitabı sayılan «Avesta»da kainatda mövcud olan və bir-birinə qarşı zidd, antaqonist mövqedən çıxış edən şər qüvvələrin xeyir qüvvələrə qarşı barışmaz mübarizəsi son dərəcə dəqiqliyi ilə təsvir edilir. Qədim fəlsəfi fikrin yaranmasında əvəzsiz xidmətləri olan və daosizmin banisi sayılan Lao-tzı özünün məşhur "Dao-de-tezin" əsərində cəmiyyətdə son dərəcə amansız şəkildə baş verən siyasi hakimiyyət mübarizəsini və bu zəmində yaranan sosial gərginlik mənbəyini – konfliktlərin başvermə prosesini bütün dolğunluğu ilə açıb göstərmişdir[130].

Qədim yunan fəlsəfəsinin görkəmli nümayəndələrindən sayılan Zenon konfliktlərlə bağlı məsələlərə münasibətdə kənarda qalmamış və hissi idrakın bizdən asılı olmayaraq tədricən münaqişələrə keçməsi fikrini söyləmiş, antaqonist ziddiyyətləri aporiyalar adlandıraraq, onların təsnifatını vermişdir.

Göründüyü kimi, münaqişələr hər yerdə və hər zaman mövcud olur. Qədim zamanlardan dövrümüzədək etnoslar arasında ziddiyyətlər, qarşıdurmalar və münaqişələr olmuşdur.

Məlumdur ki, Yer kürəsində sosial-iqtisadi və mədəni inkişafın müxtəlif mərhələlərində dayanan yüzlərlə millət və xalq yaşayır. Onlar özlüyündə insanların müəyyən tarixi, sosial birlik formalarını əks etdirirlər. Bu sosial birliklərin hər birinin özünəməxsus dili, adət-ənənələri, ərazisi, tarixi keçmişi, dövlət təsisatları, məişət ümumiliyi, psixoloji xüsusiyyətləri vardır.

Müasir etnologiyanın qəbul etdiyi təsnifata əsasən etnoslar tarixən müəyyən inkişaf mərhələləri keçmişlər. İbtidai

[130] Şükürov A. Mifologiya, 5-ci kitab. Bakı: Elm. 1996, s.16.





cəmiyyətdə insanlar qəbilə, tayfa münasibətlərində yaşamışlar. Müxtəlif endogen və ekzogen amillərin təsiri altında qəbilələr tayfalara çevrilmiş, müxtəlif tayfa birliklərindən isə xalqlar meydana gəlmişdir. Ticarət-pul (kapitalist) münasibətlərinin, iqtisadi əlaqələrin, vahid sərhədlərin və gömrük sisteminin meydana gəlməsilə müxtəlif millətlər yaranıb inkişaf etmişdir. Hazırkı dünyanın müxtəlif guşələrində qəbilə quruluşunda yaşayan insan birliklərinə çox az təsadüf olunur. Tayfa və xalq şəklində təşkil olunmuş etnoslar Asiya, Afrika, Cənubi və Mərkəzi Amerika, Avstraliya və Yeni Zelandiya üçün səciyyəvi haldır.

Dövrün ən xarakterik insan birliyi millət sayılır. L.N.Qumilyev hər bir tarixi dövrün mərkəzində müəyyən bir etnosun, yaxud etnik birliklərin dayandığı fikrinə gəlmişdir[131]. Müasir dövrün mərkəzində isə millətlər durur.

Hər bir insan müəyyən bir millətə mənsubdur. Millətsiz insan yoxdur. Millət etnosun inkişafının yüksək formasıdır, yəni millət – etnik inkişafın müəyyən mərhələsinin məhsuludur.

Uzun müddət siyasi proseslərin ziddiyyətli inkişafı milli münasibətlər sahəsində qeyri-sabit vəziyyət yaratmış, milli qapalılıq, yerliçilik, milli təkəbbür hisslərini gücləndirmişdir.

İctimai həyatın demokratikləşməsi hər bir xalqa öz tarixinə, mənəvi dəyərlərinə və adət-ənənələrinə yeni mövqedən yanaşmaq imkanı vermişdir. Bu gün xalqların, millətlərin, ən kiçik insan birliklərinin və qurumlarının dirçəlməsi, ictimai həyatda öz yeri və rolunu dərindən dərk etməsi prosesi gedir. Belə bir şəraitdə digər millət və xalqlara hörmətlə yanaşmaq,

[131] Гумилев Л.Н. Этногенез и биосфера земли. Издательство ЛГУ, 1989, с.47.

millətçilik və şovinizmin təzahürlərinə qarşı ardıcıl mübarizə aparmaq mühüm əhəmiyyət kəsb edir.

Bazar iqtisadiyyatına keçid şəraitində milli-etnik münasibətlərin nəzəri və təcrübi əhəmiyyətinin müəyyənləşdirilməsi təkcə çoxmillətli dövlətlərdə yaranmış problemləri həll etməyə deyil, həm də cəmiyyəti keyfiyyətcə yeniləşdirməyə və təkmilləşdirməyə, millətin potensial imkanlarından istifadə etməyə şərait yaradır.

Yüzilliklər ərzində xalqların həm sosial, həm də milli zülmə düçar olması bir tərəfdən onların iqtisadi, sosial-siyasi və mədəni geriliyinə səbəb olmuş, digər tərəfdən inzibati-amirlik sistemi respublikaların müstəqilliyini məhdudlaşdırmış, suverenlik formal xarakter daşımışdır[132].

XX əsrin 80-ci illərindən etibarən milli münasibətlərin inkişafında bir-birinə əks olan ikili xüsusiyyət özünü büruzə verdi:

1. Xalqların milli həyata və milli hərəkata meyli; 2. Millətlərin bir-birinə yaxınlaşması prosesinin güclənməsi.

Xalqların qarşılıqlı ünsiyyəti və hərtərəfli əməkdaşlığı nəticəsində onların iqtisadi və mədəni səviyyəsində, sosial strukturunda dərin dəyişikliklər baş verdi.

Etnik proseslər forma və məzmununa görə fərqlənir: 1. Etnos, xalq və millətin digər etnik birlik, xalq və millətlə qarışması (konsolidasiya, assimiliyasiya, inteqrasiya); 2. Eyni coğrafi mühitdə yaşayan etnos və xalqların qarşılıqlı əlaqəsi nəticəsində yeni etnik birliyin yaranması və diferensiasiyası.

Vaxtı ilə xalqların öz daimi yaşayış yerlərindən didərgin

[132] Sosial-siyasi problemlər. Toplu. VI buraxılış. Bakı: ADPU, 2001, s.76.





salınması (məsələn, azərbaycanlıların ermənilər tərəfindən 1905-1907, 1918-1920, 1948-1953, 1988-1989-cu illərdə Ermənistandan qovulması), başqa ərazilərdə məskunlaşması (kalmıklar, qaraçaylar, bolqarlar, çeçenlər, inquşlar, krım tatarları, ahiska türkləri, alman kolonistləri, koryaklar, yunanlar, kürdlər və s.), "etnik təmizlənmə" əməliyyatı, müxtəlif millətlərdən olan ziyalıların kütləvi şəkildə məhv edilməsi milli ədavətin və ayrı-seçkiliyin yaranmasına, müxtəlif regionlarda milli zəmində münaqişələrin dərinləşməsinə səbəb olmuşdur (Qarabağ hadisələri, abxaz-gürcü, osetin-inquş və s. qarşıdurması).

Təbii ki, cəmiyyət üzvlərinin öz sosial vəziyyətindən narazılığı, milli siyasətin həyata keçirilməsində buraxılan subyektiv səhvlər, ideoloji tərbiyə işindəki nöqsanlar millətçilik əhval-ruhiyyəsini qidalandırır və onun müxtəlif formalarda təzahürü üçün şərait yaradır: 1. Milli eqoizm, millətpərəstlik; 2. Başqa millət və xalqlarla təcrübə mübadiləsinə lazımi qiymət verməmək; 3. Millətçilik ideologiyasına qarşı mübarizədə fəallıq göstərməmək; 4.Milli spesifikliyə əhəmiyyət verməmək; 5. Saxta vətənpərvərlik və milli nihilizm (məhdudiyyət).

Milli münasibətlərin təkmilləşdirilməsi hakimiyyət və idarəetmə orqanlarında müxtəlif millətlərin nümayəndələrinin çalışmasının yerliçiliyə, kadr hazırlığında milli məhdudluğa qarşı mübarizəni, milli mədəni əlaqələrin genişləndirilməsini və s. nəzərdə tutur[133].

Milli-etnik proseslər çoxşaxəli və mürəkkəb prosesdir. Müasir etnologiya elmində onun iki əsas növünün adı çəkilir:

[133] Sosial-siyasi problemlər. Toplu. VI buraxılış. Bakı: ADPU, 2001, s.77-79.

1) etnoevolyusional; 2) etnotransformasion.

Birinci halda milli inkişaf bir sıra dəyişikliklərə məruz qalsa da, milli şərait əsasən dəyişilməz olaraq qalır;

İkinci halda isə etnos digərinin içərisində əriyir və assimilyasiya olunduğu etnosun bütün keyfiyyətlərini, eləcə də milli şüurunu qəbul edir.

Etnosların inkişafında iki tip proses özünü göstərir:

a) müxtəlif etnosların birləşməsi;

b) eyni bir etnosun bir neçə etnosa parçalanması prosesi.

Məsələn, qədim rus etnosunun – rus, ukrayna, belorus etnoslarına, türk etnosunun isə onlarla müxtəlif etnoslara parçalanması ikinci tipə aid ola bilər. Dil, adət-ənənə, məişət ümumiliyi və yaxınlığına malik olan etnosların birləşib bir millət yaratması isə birinci tipə aiddir. Məsələn, kazakların ruslara birləşməsi, amerikan millətinin yaranması və s. Bu proseslər həm etnoevolyusion, həm də etnotransformasion, həm də qarışıq şəkildə baş verir[134].

Etnosların birləşməsi və ya etnik birləşmə prosesi müxtəlif formalarda həyata keçirilir: etnik fuziya, etnik konsolidasiya, etnik assimilyasiya (konversasiya), etnoslararası inteqrasiya, etnogenetik miksasiya.

Etnik fuziya – bir neçə müstəqil, lakin dil və mədəniyyət etibarı ilə qohum etnosların bir millət halında birləşməsi, məsələn, Azərbaycan xalqının tərkib hissələrini təşkil edən qacar, əfşar, bəydili, türkmən, qarapapax, ayrım və s. etnik qrupların bir millət şəklində – azərbaycanlı kimi birləşməsi;

Etnik konsolidasiya – millətin regional qruplarının (Azər-

[134] Платонов Ю.П. Народы мира в зеркале геополитики: структура, динамика, поведение. Учебное пособие. СПб.: 2001, с.29.





baycanda xanlıqlardan qalma ənənəvi qapalılıq) birləşməsi, dialekt fərqlərinin aradan qalxması, sosial-iqtisadi və mədəni-kultroloji amillərin təsiri altında onların bir vahid halında birləşməsi.

Bu birinci və ikinci tip xarakteristikalar bir-birinə çox yaxındırlar. Onların hansının birinci, hansının ikinci proses olduğunu demək çətindir, çünki birinin qurtardığı yerdən digəri öz başlanğıcını götürür.

Etnik assimilyasiya – xaricdən gələn mühacirlərin yüksək iqtisadi inkişafa malik yerli iri millətlərin içərisində əriməsi prosesidir. Məsələn, Rusiya Federasiyasında yaşayan və işləyən həmyerlilərimizin bir qismi artıq belə assimilyasiyaya məruz qalmışdır. Bu proses etnotransformasion yolla baş verir, yəni əvvəllərdə azərbaycanlı etnosuna məxsus olan bu adamlar öz əvvəlki şüurunu itirib yenisini qazanırlar. Belə halda assimilyasiya edən xalqın etnik şüuru dəyişmir, amma assimilyasiya etdiyi adamların və ya qrupların hesabına daha da zənginləşir. Bu tip etnik birləşmə sayca daha böyük olan etnosların tərkibinə nisbətən kiçik etnosların, etnoteritorial qrupların, subetnosların, etnoqrafik vahidlərin və s. daxil olması prosesi ilə də baş verə bilər. Bu, könüllü, yaxud məcburi ola bilər. Yuxarıda göstərilən xarakteristikalar birinciyə aiddir. Amma çox vaxt çoxmillətli ölkələrdə milli azlıqlar belə zorakılığa məruz qalır, öz dil və mədəniyyətlərindən əl çəkməli olurlar. Azərbaycanda isə milli-etnik proseslərdə bir nizam, qayda qanun hökm sürür. Çünkü burada azsaylı xalqlar və milli azlıqlar dövlətin və cəmiyyətin tam qayğısı ilə əhatə olunmuşlar və onlar barəsində tam hüquq bərabərliyi həyata keçirilmişdir. Azərbaycan Respublikasında gedən milli-etnik

proseslərdən xəbəri olmayan bəzi xarici ölkə alimləri erməni təbliğatının təsiri altına düşərək, bizdəki milli-etnik proseslərin gedişini saxtalaşdırmağa, dünya ictimaiyyətinə onun tam əksini çatdırmağa səy göstərirlər.

Məsələn, Vladimir Derqaçev "Qeopolitika" kitabında güya Azərbaycanda İrandilli talışların, kürdlərin, tatların və başqa xalqların sıxışdırılması, zorla assimilyasiya olunması prosesinin getdiyini, Naxçıvanın və Qarabağın "əzəli erməni torpağı olub" onların Azərbaycana verilməsini Zaqafqaziyadakı əldəqayırma rejimlərin Türkiyə ilə sövdələşmələrinin nəticəsi kimi təqdim edir[135].

Etnoslararası inteqrasiya prosesi – etnoevelyutsion proses olub, ayrı-ayrı etnik birliklərin öz milli şüurlarını, dil və mədəniyyət ünsürlərini saxlamaqla müxtəlif sosial-iqtisadi və mədəni münasibətlərin yaxınlığı əsasında baş verir.

Bu proses etnotransformasion prosesin başlanğıc mərhələsi olmaqla, polietnik cəmiyyətlər üçün belə birləşmə daha səciyyəvi idi. SSRİ-nin dağılması ilə təbii ki, bu proses də dayandı.

Azərbaycan Respublikasında müxtəlif dil qruplarına daxil olan etnosların azərbaycanlılarla qaynayıb-qarışması prosesində öz milli-etnik xüsusiyyətlərini qoruyub saxlaması buna misal ola bilər.

Etnogenetik miksasiya – qohumluq əlaqələri olmayan xalqların birləşməsi və qaynayıb qarışmasıdır. Bu proses etnoslararası inteqrasiya şəklində başa çatır. Müasir Başqırd xalqının formalaşması buna misal ola bilər. Onlar Türk-Monqol və Fin etnoslarının birləşməsi əsasında formalaşmışdr.

[135] Дергачев В. Геополитика. Киев: «Наука», 2000, с. 254.





Yaxud ermənilərlə qaraçıların, aysorların (assuriyalıların son qalıqları), albanların bir qisminin birləşməsi müasir erməni millətini formalaşdırmışdır.

Gürcülərin həyatında da buna oxşar proses getmişdir. Qismən qədim türk-qıpçaqlar və xəzərlər müasir gürcü xalqının etnogeozində iştirak etmişdir.

Etnik ayrılmalar iki yolla baş verir;

a) etnik partiatsiya, b) etnik separtasiya.

Etnik partiatsiya prosesində bir etnos bir neçə yerə bölünür. Bu, etnik fuziyanin əksi kimi çıxış edir. Qədim rus xalqının üç yerə: ruslara, ukraynalılara və beloruslara ayrılması buna misal ola bilər.

Etnik separtasiya – müəyyən bir etnosun bir hissəsinin ondan ayrılıb müstəqil etnosa çevrilməsi prosesidir. Bu, etnik assimilyasiyanın əksi deməkdir. Məsələn, kalmıkların, türk-oyrat tayfalarından ayrılması və müstəqil etnosa çevrilməsi bu qəbildəndir.

Bir sıra etnosların təşəkkül tapıb inkişaf etməsində siyasi amillərin, xüsusən dövlətin xüsusi rolu vardır. Bu mənada "dövlət milləti təşkil edir" tezisi müəyyən hallarda özünü doğruldur. Məsələn, Hollandların Flamandlardan ayrılması, almanların Almaniya və Avstriya dövlətlərindəki rolu, Latın Amerikası ölkələrində etnosların dövlət sərhədləri daxilində fərqlənməsi və s.

SSRİ-nin dağılması gedişində baş verən sosial-siyasi münaqişələrin mərkəzində separatizm hərəkatı dayanırdı. SSRİ-nin bölgələrində baş qaldırmış bu hərəkatlar nəticədə fövqəl dövlət olan Sovetlər Birliyinin süqutunu sürətləndirdi. Dağlıq Qarabağda, Abxaziyada və Osetiyada, Dnestriyanı

ərazidə və b. yerlərdə başlanan separatizm hərəkatı SSRİ-nin dağılması ilə bir reallığa çevrildi və onların dərinləşməsində marağı olan qüvvələr bu hadisələrin alovlanması üçün bütün vasitələri işə saldılar.

Milli-etnik münaqişələrin törənmə səbəbi kimi yaşayış tərzinin, sosial vəziyyətin göstərici olaraq göstərilməsi heç də həmişə özünü doğrultmur. Məsələn, Belçikada, Kanadada, Fransada, Olsterdə, elə ABŞ-ın özündə və Rusiya Federasiyasındakı mövcud həyat səviyyəsi milli-etnik ziddiyyətlərə və qarşıdurmalara əsas vermir. Etnopsixoloq Q.U.Soldatova milli-etnik münaqişələrdəki gərginliyin dörd fazasını göstərir: latent, frustrasiya, konflikt, böhran[136].

Latenti gərginlik fazasında ilk faza da adlandırmaq olar. Bu, çoxmillətli bütün normal cəmiyyətlər üçün xasdır. Bu, müxtəlif etnosların bir-birilə kontaktında yaranan ilk təəssüratlardır.

Frustrasion gərginlik fazası. Bu mərhələdə başqalarına qarşı oyanan millətçilik və emosiyalar məişət səviyyəsindədir. Məsələn, Moskvada Qafqazlıların "qaralar", "kepkalılar", "zurmeki" və s. adlandırılması, onlar haqqında müxtəlif lətifələrin düzəldilməsi və s.

Konflikt gərginlik fazasında tərəflər arasında müxtəlif sosial-siyasi səbəblər üzündən münaqişəli vəziyyətin yaranmasıdır. Bu zaman xalq, vətən, mədəniyyət, tarix təəssübkeşliyi ortaya atılır, qarşıdakı tərəfin düşmən obrazı yaradılır.

Bu zaman etnoslararası mübarizə aktiv fəaliyyətə keçir.

136 Солдатова Г.У. Психология межетнических напряженности, М.: Наука, 1998, с. 48.





Ayrı-ayrı "milli qəhrəmanlar" və "milli ideoloqlar" meydana çıxıb xalqın etimadını qazanır. Əks tərəfə qarşı mübarizə adı altında xalqdan və millətdən müəyyən güzəştlər qoparır.

Böhran gərginlik mərhələsi onda başlayır ki, milli-etnik münaqişələri dinc vasitələrlə həll etmək olmur, onları idarə etmək çətinləşir və onlar nəzarətdən çıxır. Onun əsas fərqləndirici cəhəti qorxu, nifrət və zorakılıqdır. Milli fanatizm öz zirvəsinə çatır, tərəflər bir-birindən zorakılıq üsullarına əl atmaqla "haqq-hesab çəkirlər". Bu proses qaçqınların axını ilə müşaiyət olunur ki, o da öz növbəsində millətçiliyi daha da artırır, "Biz" şüuru "mən" şüurunu üstələyir. Xalqın və eləcə də ayrı-ayrı adamların mif yaradıcılığı ictimai rəyin aparıcısına çevrilir.

Milli-etnik münaqişələrin tipologiyasından danışan etnoloqlar onların SSRİ və MDB ölkələri üçün aşağıdakı tiplərini müəyyən etmişlər.

- Müstəqillik uğrunda mübarizə, SSRİ dövründə müttəfiq və muxtar respublikaların, milli mahalların və s. konstitusiya hüquqlarının bərpası və genişlənməsi uğruna mübarizəsi;
- Milli qurumların ittifaq miqyasında statusların yüksəldilməsi uğrunda mübarizə;
- Etnoərazi münaqişələri, Postsovet məkanında 180 belə münaqişəli məsələ var idi.
- Qruplararası, icmalararası münaqişələr;
- Etnomədəni münaqişələr. Milli dil, mədəniyyət nümunələri, mədəniyyət tarixi və s. məsələlərlə əlaqədar ortaya çıxan

münaqişələr[137].

Milli-etnik münaqişələr bir sıra amillərin təşiri altında etnosiyasi xarakter alır. Elmi ədəbiyyatda etnosiyasi münaqişələrin səbəblərinin, mahiyyəti və təkamülünün analizində iki yanaşma mövcuddur: sosioloji və politoloji.

Sosioloji yanaşma bu münaqişələrin səbəblərini əsas sosial qrup və təbəqələrin etnik parametrlərinin analizi, həmçinin cəmiyyətin sosial stratifikasiyası və əmək bölgüsünün etnosiyasi gərginlik yaşayan regionun etnik xassələri ilə qarşılıqlı əlaqələri və təsirinin tədqiqi əsasında izah edir.

Politoloji yanaşmada isə əsas diqqət etnoslararası gərginlik və onun açıq münaqişə səviyyəsinə çatdırılmasında milli elitaların rolunun izahına yetirilir, əsas məsələ kimi hakimiyyət, ehtiyatların əldə edilməsi imkanları barədə məsələlər tədqiq olunur. Bu yanaşma etnosiyasi münaqişələrin sosial-psixoloji mexanizmlərinin analizini də əhatə edir.

Məsələn, M.Doyç, E.Blek etnosiyasi münaqişələrin səbəblərini modernləşdirmə prosesləri ilə bağlayırlar. Belə ki, modernləşdirmənin qeyri-bərabər keçməsi etnosiyasi arealda etnik qrupların tələbatları və dövlətin öz vətəndaşlarının hüquq və azadlıqlarına təminat vermək imkanları arasında münaqişələrin yaranmasına səbəb olur. Digər tərəfdən isə, modernləşdirmə etnik şüurun fəallaşmasına, milli muxtariyyata yönələn siyasi niyyətlərin yaranmasına səbəb olur[138].

Tədqiqatçılar etnosiyasi münaqişələrin həlli prinsipləri və

137 Этносоциология. Цели, методы и некоторые результаты исследования / Под ред.: И.Д.Ковальченко, М.: Наука. 1984. с.59-60.

138 Дойч М. Разрешение конфликта. Конструктивные и деструктивные процессы // Социально-политический журнал, 1997, № 1, с.54.





yollarına dair yanaşmaları əsasən 3 əsas kateqoriyaya bölürlər:

- operativ qərarlar: əsasən münaqişənin genişlənməsinə yol verməyən birdəfəlik hərəkətlərlə (məs., həyati vacib olan obyektlərin qorunmasının gücləndirilməsi, yaxud silahlı birləşmələrin neytrallaşdırılması hesabına), münaqişənin daha çox hiss olunan nəticələrinin aradan qaldırılması (qaçqınların yerləşdirilməsi, dağılmış binaların, kommunikasiyaların bərpası və s.) ilə bağlı olur; yaxud münaqişənin yaranması riskinin minimuma endirilməsi ilə əlaqədar ola bilər (ixtişaşların təşkilatçılarının cəzalandırılması, informasiya-izahat işlərinin fəallaşdırılması və s.);

- taktiki qərarlar: artıq yaranmış münaqişələrin güc tətbiq etmək yolu ilə, o cümlədən iştirakçılara iqtisadi təzyiq etmək, yaxud danışıqlar prosesinin nizamlanması yolu ilə tənzimlənməsinə yönəlirlər;

- strateji qərarlar: millətlərarası münasibətlərdəki böhranların əvvəlcədən bu proseslərin ağrısız və sivil inkişafı üçün hüquqi, siyasi, iqtisadi və sosial-psixoloji şəraitlərin yaradılması əsasında qarşısının alınmasına yönəlirlər[139].

Bu baxımdan onu da qeyd etmək lazımdır ki, milli-etnik və etnosiyasi münaqişələrin mənşəyi və xarakterini, onun yaranması səbəblərini, onların aradan qaldırılması yollarını araşdıran tədqiqatçılar heç də həmişə obyektivlik prinsiplərindən çıxış etmir, bu tədqiqatlar vasitəsilə açıq-aşkar bəzi maraqlara xidmət edirlər. Etnokonfliktologiya üzrə Rusiya alimlərinin bəzilərinin Dağlıq Qarabağ problemi ilə bağlı yanlış yanaşmalarını göstərmək olar. Belə ki, bu problemlə bağlı olan Ermənistan-

139 Политология / Под. ред. М.А.Василика. М.: Юрист, 1999, с.508-509.

Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin əsasında təcavüzkar Ermənistan Respublikasının Azərbaycana qarşı ərazi iddiası durduğu Azərbaycan torpaqlarının 20 faizinin bu günədək Ermənistanın işğalı altında olduğu halda erməni müəllifləri ilə yanaşı bir sıra Rusiya tədqiqatçıları da özlərinin etnokonfliktologiya svhəsindəki işlərində münaqişəni etnik zəmində yaranmış Qarabağ münaqişəsi kimi təqdim edirlər.

Halbuki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi özünün xarakteri və səciyyəvi xüsusiyyətlərinə görə əsasında Ermənistan dövlətinin «Böyük Ermənistan» yaratmaq ideyasına söykənən təcavüzkar siyasəti duran dövlətlərarası münaqişədir. Bütün bunlara görə, bizim fikrimizcə, bu münaqişənin etnosiyasi münaqişələr sırasına aid edilməsini həm nəzəri, həm də praktiki baxımdan düzgün hesab etmək olmaz.

Dağlıq Qarabağ münaqişənin mürəkkəbliyi həm onun uzunmüddətli, həm də və ən başlıcası, ona müxtəlif tərəflərin cəlb edilməsidir. Tədqiqatçıların qeyd etdiyi kimi, bütün postsovet məkanında ən köhnə olan bu münaqişəyə, burada mövcud olan başqa münaqişələrdən fərqli olaraq, təkcə Ermənistan və Azərbaycanı təmsil edən vuruşan tərəflər deyil, həm də Rusiya, Türkiyə və İran kimi qonşu dövlətlər, habelə aparıcı dünya dövlətləri cəlb edilmişdir. Özü də Ermənistanın təcavüzkar hərəkətləri hələ 1992-ci il mayın 21-də ATƏT-in yüksək vəzifəli şəxslər komitəsinin Helsinkidə keçirilən iclasında dünya birliyi tərəfindən pislənilmiş, Ermənistan Azərbaycanla müharibə edən tərəf hesab olunmuşdur[140].

Məlum olduğu kimi, 1993-cü ildə BMT Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərini dərhal azad etmələri tələbini təsdiqləyən 822, 853, 874 və 884 nömrəli dörd qətnamə qəbul etmişdir. Lakin Ermənistan BMT-nin həmin qətnamələrinə, həmçinin bir çox beynəlxalq və regional təşkilatların (ATƏT-in, İslam Konfransı Təşkilatının və i.a.) iclaslarında qəbul olunmuş sənədlərə məhəl qoymamaqda davam edir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xarici siyasət fəaliyyətinin aparıcı istiqamətlərindən birini təşkil etmişdir. Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Heydər Əliyevin danışıqlar prosesində nail olduğu tərəqqidən istifadə etməklə Azərbaycan dövlətin bu sahədəki fəaliyyətini davam etdirir.

Dünyanın siyasi xəritəsinin qlobal dəyişikliklərə məruz qalması təhlükəsi milli-etnik, demokratik, etnoloji və sosial proseslərlə əlaqədardır. Bu dəyişikliklərin geopolitik xüsusiyyəti müasir bəşəriyyətin vəziyyəti ilə sıx bağlıdır.

Dünya əhalisinin sayı hər il 90-100 milyon nəfərə qədər artır. Bu artım dünya miqyasında heç də bərabər şəkildə deyil, müxtəlif regionlarda müxtəlif səviyyələrdə olur. Bu artan əhalinin tələbatını ödəməkdə çətinlik çəkən dünya özünün qlobal problemlərini həll etmək üçün milli-etnik birlikləri səfərbərliyə almalı olur. Müxtəlif etnoslar isə bu çətinliklərin yaranmasında bir-birini ittiham etməyə başlayır. Biri digərinin ərazisini işğal etməklə bu çətinliklərdən xilas olmağa çalışırlar. Nəticədə, ərzaqdan tutmuş təmiz havayadək hər şey qıtlaşır. Öz əhalisinin bu elementar tələbatlara olan ehtiyacını ödəməkdə aciz qalan milli siyasi liderlər öz qonşularının timsalında düşmən obrazını formalaşdırır, bir növ bu kimi çətinilklərdən

[140] Mehdiyev R.Ə. Azərbaycan: Qloballaşma dövrünün tələbləri. Bakı: XXI-Yeni Nəşrlər Evi,2005, s.237.

özlərini kənara çəkir, diqqəti uzaqlaşdırmağa çalışırlar.

Etnik münaqişələr öz davamlılığına və süəkliliyinə görə başqa münaqişələrdən fərqlənir. Etnik münaqişələrin çoxu heç də etnik qrupların özlərinin mədəniyyətini saxlamaq üçün, başqa qruplar ilə bərabər hüquqlu olmaqdan ötrü və hakimiyyət strukturlarında bərabər təmsil olunmaq üçün baş vermir. Amma bu qrupların ideoloqları, məddahları və liderləri işi elə qələmə verməyə cəhd göstərirlər ki, guya bu adları çəkilən hallar üzrə onların başlıca hüquqları pozulur. Beləliklə, milli-etnik liderlər öz prinsiplərində separatizmlərinə haqq qazandırmağa, ona milli don geyindirməyə səy göstərirlər. Milli-etnik münaqişələrdən öz maraqlarını həyata keçirmək üçün bir vasitə kimi istifadə etməyə çalışan bu qüvvələr milli mədəni muxtariyyət ideyasını ərazi muxtariyyəti ideyasınadək genişləndirirlər.

Sosial münasibətlərin spesifik formalarından biri olan milli-etnik münasibətlər mürəkkəb sosial-siyasi kateqoriyadır. Belə ki, millət öz məzmunu etibarilə sosial-tarixi birlikdir. Milli münasibətlər iqtisadi, siyasi, hüquqi, sosial, mədəni münasibətlərlə, ümumxalq və milli maraqlarla, ictimai şüurun müxtəlif formaları ilə, millətin mənlik dəyərləri və mənəvi psixoloji amilləri ilə vəhdətdədir.

Milli münasibətləri müəyyən mənada sosial münsibətlərin altsistemi kimi nəzərdən keçirmək olar. Millətlər arasında bu cür münasibətləri o zaman sosial təbiətli adlandırmaq olar ki, əgər bu qarşılıqlı əlaqə və münasibətlər sosial məzmun nöqteyi-nəzərindən təhlil edilsin, yəni onlar arasındakı münasibətlər yalnız etnik münasibətlər kimi yox, sosial birliklər kimi nəzərdən keçirilsin.





Hər bir millət özünün iqtisadi və mədəni inkişafının yüksək səviyyəsinə milli mentalitetlərinin təkmilləşməsi əsasında çatır. Onun zənginləşməsi prosesi isə birləşdirici dəyərlər hesabına baş verir. İstənilən cəmiyyətin daxilində inkişaf prosesində təkmilləşən sosial münasibətlər milli münasibətlərin harmonik və ahəngdar inkişafına şərait yaradır.

Hər bir sosial-iqtisadi sistem özlərinin vasitələri ilə xalqların sosial və milli inkişafının problemlərini həll edir. Cəmiyyətdə sosial proseslər maddi istehsalın və mövcud təbəqələr, milli birliklər arasında münasibətlərin dərəcəsi ilə müəyyən edilir. Belə ki, sosial konfliktlər çözülməmiş mövcud sosial-iqtisadi problemlər səviyyəsində baş qaldırır və milli çalarlar alır. Lakin sosial və milli münasibətləri sırf iqtisadi inkişaf səviyyəsinə şamil etmək olmaz.

Milli münasibətlər kifayət qədər müstəqilliyə malikdir və onun düzgün nəzərə alınması cəmiyyətin inkişafının, onun iqtisadi potensialının təkmilləşməsinə şərait yaradır. Cəmiyyətdə sosial və milliliyin hesaba alınmasının zəruriliyi tarixi arenada insanların yeni sosial birliyi kimi millətin meydana gəlməsi ilə bağlıdır. Yeni sosial birlik kimi millət feodalizm cəmiyyətindən burjua cəmiyyətinə keçiddə istehsal vasitələrənin transformasiyası kimi anlaşılırdı. Bu da cəmiyyətin sosial strukturunun dəyişməsi və ayrı-ayrı milli birliklər çərçivəsində yeni sosial münasibətlərin yaranması əsasında baş vermişdir. Yəni istehsal vasitələri, ilk növbədə, öz çərçivəsində xalqların konsolidasiya və milli dövlətlərin yaradılması problemlrini həll edən milli hərəkatların formalaşmasına şərait yaratdı. Milli dövlət birliyinin formalaşması xüsusiyyətləri öz əksini sosial və milli

münasibətlərin qarşılıqlı inkişafında tapır.

Son dövrlər sosial siyasətin rolu əhəmiyyətli dərəcədə artmışdır. Çünki sosial amillər, müəyyən mənada istənilən cəmiyyətin inkişafının göstəricisi kimi çıxış edir. İstənilən birlik sosial proseslərin tənzimlənməsinə xüsusi diqqət yetirir. Bu proseslərə diqqət aşağıdakılarla bağlıdır:

1. Sosial sahədə iqtisadi fəaliyyətin nəticələri realizə edilir. Belə ki, istənilən iqtisadiyyat insanların bütün həyat fəaliyyətində onların mövcudluğu üçün tələbatlarının ödənilməsinə yönəlib. Sosial proseslərdən kənarda iqtisadi fəaliyyətin nəticələrinin həyata keçirilməsi qeyri-mümkündür.

2. Sosial proseslərin humanist təbiəti insana qayğı, onun hərtərəfli və harmonik inkişafı ilə ölçülür və o hər bir demokratik cəmiyyətin tarixi missiyasıdır;

3. Aktiv sosial siyasətsiz siyasi sistemin sabitliyinin təmin edilməsi qeyri-mümkündür[141].

Sosial siyasət cəmiyyətdə vətəndaşların, sosial qrupların və birliklərin tələbatlarını nəzərə alaraq, onlar üçün yaşayış şəraiti yaratmaq sahəsində dövlətin konkret fəaliyyətidir.

Deməli, sosial siyasətin məqsədini şəxsiyyətlərarası münasibətlərin təkmilləşməsi və əhalinin rifah səviyyəsinin yaxşılaşması ilə ölçülən sosial tərəqqi təşkil edir.

Çoxmillətli hüquqi dövlətlərdə bir qayda olaraq, milli-etnik birliklər sayından və ölkənin sosial-siyasi həyatında tutduqları mövqelərindən asılı olmayaraq, həm sosial siyasətin obyekti, həm də onun subyekti rolunda çıxış edirlər, yəni özləri sosial siyasətlə əhatə olunduqları kimi həm də sosial siyasətin

[141] Sosial-siyasi problemlər. Toplu. VI buraxılış. Bakı: ADPU, 2001, s.134.





həyata keçirilməsində, sosial ədalət prinsipinin qələbə çalmasında yaxından iştirak edirlər. Keçid dövrünün məlum çətinlikləri söz yoxdur ki, sosial siyasətin həyata keçirilməsində, milli-etnik birliklərin maraq və mənafelərinin gözlənilməsində, ümumiyyətlə, insan tələbatlarının hərtərəfli şəkildə ödənilməsində müəyyən çatlar vermişdir.

Lakin bu o demək deyildir ki, dövlət insanların sosial ehtiyaclarına biganə münasibət bəsləməlidir. ABŞ İstiqlaliyyət Bəyannaməsinin müəllifi Tomas Ceferson yazırdı ki, dövlətin əsas vəzifəsi öz vətəndaşlarının maddi və mənəvi ehtiyaclarını ödəmək və onların qabiliyyətlərinin üzə çıxmasına şərait yaratmaqdır. Bunları yerinə yetirməyən dövləti xalq nəinki devirməlidir, hətta onu devirmək xalqın bilavasitə vəzifəsi olmalıdır, çünki "Azadlıq ağacı daim tiranların qanı ilə suvarılmalıdır"[142].

Çoxmillətli ölkələrdə, eləcə də Azərbaycan Respublikasında milli-etnik birliklərin arasında heç bir fərq qoyulmadan dövlətin sosial siyasətilə, cəmiyyətin sosial qayğıları ilə əhatə olunması bu dövlətin maddi və mənəvi tərəqqisi üçün müstəsna əhəmiyyət kəsb edir. Dünyanın milli inkişaf praktikası göstərir ki, çoxmillətli dövlətlərdə xalqların "varlı" və "kasıb" kimi qruplara bölünməsi, ölkənin bu regionunun və "seçilmiş" bir xalqın digər regionlara və xalqlara belə münasibəti həmin ölkəni gec-tez milli münaqişələr meydanına çevirər, xalqlar və etnik azlıqların sosial partlayışına gətirib çıxarar. Bu kimi hallara yol verməmək üçün dövlətin əlində düşünülmüş milli sosial proqramı olmalıdır. Dövlət heç

[142] Tağıyev Ə.M. Fəlsəfədən siyasətə. Bakı: Təfəkkür, 2001, s45.

bir regiona, heç bir milli azlığa münasibətdə diskriminasiyaya yol verməməli, "milli ucqar" anlayışını qəbul etməkdən imtina etməli, ölkəni mərkəzi rayonlara və ucqar əyalətlərə bölməməlidir. Sosial problemlərin həllində dövlət onu məskunlaşdıran insanların hamısına özünün həqiqi vətəndaşı kimi yanaşmalı, traybalizmə və klançılığa qarşı daim mübarizə aparmalıdır. Bu mənada dövlətin proqramı "dövlət – insan üçündür" və "insan da dövlət üçündür" prinsipinə uyğun şəkildə tərtib olunmalıdır. Bu prinsiplər ölkənin sosial-siyasi təhlükəsizliyini və sabitliyini təmin edən mühüm amillərdir.

Çoxmillətli ölkələrdə fəal sosial siyasətin yeridilməsi zəruriliyi aşağıdakılarla şərtlənir:

- Sosial siyasət iqtisadi fəaliyyət nəticəsində reallaşır, çünki hər bir iqtisadi inkişafın qarşısında duran əsas vəzifə əhalinin daim artmaqda olan maddi mənəvi ehtiyaclarını ödəmək vəzifələrini qoyur;
- Sosial proseslər humanist xarakter daşıyır, çünki hər bir demokratik cəmiyyətin son məqsədi xalqa xidmət etməkdən ibarətdir;
- Fəal sosial siyasət yeritmədən cəmiyyətdə heç bir siyasi sabitliyə nail olmaq olmaz;
- Sosial siyasət dövlətin məqsədyönlü fəaliyyətdə olub, cəmiyyətdə orta təbəqənin (politiyanın) yaranıb inkişaf etməsinə şərait yaradır;
- Sosial siyasət tərbiyəvi əhəmiyyətə malikdir, çünki sosial tələbatları ödənilmiş cəmiyyətlərdə deqredasiya halları minimuma enir. Adamların təhsillə əhatə olunmasına şərait yaradır;
- Sosial siyasət cəmiyyətin sosial sağlamlığına, fiziki və mənəvi tərbiyə sahəsində irəliləyişlərin əldə olunmasına səbəb olur;
- Sosial siyasət əhalinin işlə təmin olunmasına, yeni iş yerlərinin açılmasına, əhalinin məşğulluq səviyyəsinin yüksəlməsinə gətirib çıxarır. Hüquqi dövlətin mühüm şərtlərindən sayılan bu amillərin ilk nəticələri artıq 90-cı illərin ikinci yarısından etibarən özünü göstərməyə başladı. Daha doğrusu, iqtisadiyyat inteqrasiyasının qarşısını alan əsas iqtisadi-sosial sahələrdə ilk uğurlar əldə olundu.





Prezident H.Əliyevin yeritdiyi konstruktiv siyasət nəticəsində əhalinin sosial vəziyyəti xeyli yaxşılaşmış, bir sıra göstəricilərdə isə MDB ölkələri ilə müqayisədə xeyli üstünlük əldə etmişdir[143].

Çoxmilli tərkibə malik ölkələrdə hüquqi dövlət quruculuğu bu millət və xalqların hüquq və azadlıqlarının təmin olunmasına və bərabər inkişafına əsaslanır. Ölkə daxilində yaşayan müxtəlif etnik birliklərin siyasi-iqtisadi, sosial-mədəni bərabərliyinin faktiki olaraq dövlət tərəfindən tənzimlənməsi hər bir sivil dövlətin qarşısında duran vəzifələrdəndir. Onların hüquqlarının və azadlıqlarının qorunması Azərbaycan Respublikasında hüquqi Aktlarla təsbit olunmuşdur.

Ölkənin 12 noyabr 1995-ci ildə qəbul edilmiş Konstitusiyasında milli azlıqların və azsaylı xalqların hüquq və azadlıqlarının təminatına qarant verilir. Respublikanın iqtidarı bu sahədə mövcud olan beynəlxalq hüquqi sənədlərə, Aktlara da böyük hörmətlə yanaşır və onların yerinə yetirilməsinə çalışır. Bütün bunlar Azərbaycanda yaşayan millət və xalqların

[143] Sosial-siyasi problemlər. Toplu. IX buraxılış. Bakı: ADPU, 2003, s.135

Azərbaycançılıq ideyası ətrafında birləşməsi zərurətini yaratmışdır. Hər bir azərbaycanlı harada yaşamasından asılı olmayaraq, Azərbaycanı özünə Vətən saymalı, onun maddi və mənəvi tərəqqisinə çalışmalıdır. Bunu onların vətəndaşlıq borcu kimi də qavramaq olar. Çalışmaq lazımdır ki, millət-vətəndaş-dövlət ideyası hər bir azərbaycanlının həyat devizinə çevrilsin. Azərbaycan diasporunun I qurultayındakı çıxışında ümummilli liderimiz H.Əliyev cənabları bu mənada azərbaycançılıq ideyasının məqsəd və vəzifələrini açıqlamış, onun ideya-siyasi əsaslarını, əsas istiqamət və meyllərini müəyyən etmişdir.

### 2.3. Milli dövlətçilik ideyası – milli maraqların təminatı kimi

Bəşəriyyət XXI əsrin ilk onilliyində yaşayır. Yaşadığımız dövr keçid dövrüdür. Bu dövrün çox mühüm bir xüsusiyyəti dünya sosializm sisteminin iflasa uğraması, dünyada sosializmin beşiyi sayılan Sovetlər Birliyinin – SSRİ-nin dağılması və onun yerində müxtəlif milli müstəqil dövlətlərin yaranmasıdır. Bu da öz növbəsində dünyanın bir-birindən fərqli olan iki böyük kapitalizm və sosializm cəbhələrinə bölünməsi anlayışını artıq arxa plana keçirmiş oldu. Belə bir şəraitdə ictimai fikirdə və dünyagörüşdə mühüm dəyişikliklər baş vermiş, kommunizmin ideoloji hökmranlığı dünyada aradan çıxmış, sosial həyat hadisələrinin qiymətləndirilməsi problemləri marksizm-leninizm təliminin monopoliyasından xilas olmuşdur. Ona görə də bütün problemlər kimi dövlət problemi, onun funksiyaları, şərhi, qiymətləndirilməsi, təbiəti, mahiyyəti, quruluşu, formaları və s. sahəsində də artıq köhnə stereotiplər aradan qalxmışdır. Sosialist dövlətinin öz





fəaliyyətini dayandırıb, yeni milli dövlət formalarına transformasiyası, sosial-sinfi münasibətlərin dəyişilməsi, sosial-sinfi quruluşda baş verən əsaslı dəyişikliklər, ictimai həyatda hakim partiyaların hegemonluğunun aradan qalxması, əvvəllərdə hakimiyyətdə olmuş zümrənin hakimiyyətdən uzaqlaşdırılması, Qərbin burjua ölkələrində baş verən dərin sosial-iqtisadi, siyasi-mənəvi dəyişikliklər, bu dövlətlərin mürtəce mahiyyəti haqqında verilən qiymətin özünü doğrultmaması və köhnəlməsi, bu ölkələrdəki istismarın xarakterində keçən əsrdəkinə nisbətən köklü dəyişikliklərin baş verməsi və s. kimi bir qrup problemlər bizdən bütün problemlər kimi dövlət məsələsinə də yeni metodologiya mövqeyindən yanaşmağı tələb edir. Bu ondan irəli gəlir ki, müasir dünyanın sosial-siyasi və hüquqi problemləri içərisində dövlət problemi xüsusi yer tutur. Məlum məsələdir ki, müasir dövrün mahiyyətini və xarakterini onda baş verən mühüm sosial-siyasi proseslər və onların qarşılıqlı əlaqələri müəyyən edir. Belə bir şəraitdə dövlət, dövlətçilik, hüquqi dövlət prinsipləri, qanunun aliliyinin təmin olunması və dövlət funksiyalarının öz fəaliyyətlərini bu istiqamətə yönəltməsi müstəsna əhəmiyyət kəsb edir.

Azərbaycan xalqı çox qədim dövlətçilik ənənələrinə malikdir. O tarixən bütün dövlət formalarını və tiplərini yaşamışdır. Qədim Manna, Midiya, Albaniya, Atropatena dövlətlərindən müasir tipli respublikayadək uzun bir tarixi inkişaf yolu keçmiş Azərbaycan dövlətçiliyi bu gün özünün çox ağır, böhranlı, ziddiyyətli, lakin şərəfli müstəqillik yolunu yaşayır. Yeni yaranmış müstəqil respublika özünün konstitusiyasını qəbul etmiş və sübut etmişdir ki, o, dünyanın

azad, suveren, sivil xalqları arasında özünə layiqli yer tutmağa qabil bir dövlət yarada bilər.

Məlum məsələdir ki, "Milli dövlət" ideyası Avropada meydana gəlmişdir. Milli dövlət ideyasının ortaya atılması əslində dövlətin sinfi xarakterini inkar etmək, vahid dövlət sərhədləri daxilində yaşayan bir və ya bir neçə etnosun, xalqın və ya millətin bir amal uğrunda mübarizə aparmalarını təşkil etmək, sinfi mübarizəni, münaqişə və qarşıdurmanı aradan qaldırmaq kimi nəcib məqsədlər güdmüşdür. Qədim filosoflar demişkən, sülh yaratmaq məqsədilə uydurulmuş yalan söz, müharibə törətmək məqsədilə söylənilmiş doğru sözdən daha yaxşıdır. Müasir Avropa dövlətlərinin əksəriyyəti artıq milli dövlət ideyasını tamamilə mənimsəmiş və keçən əsrdəki inqilablar və qrşıdurmalar mərhələsini demək olar ki, arxada qoyub gəlmişlər. İndi S.S.Sanistebana görə, milli dövlətin əsas funksiyaları idarə etmədən və əlaqələndiricilikdən (bunu o, barışdırıcılıq funksiyası da adlandırır) ibarətdir[144].

Dövlət öz daxili və xarici funksiyalarında artıq başqalarını əzmək deyil, onların ümumi rifah halını yüksəltmək yolu ilə "ümumi rifah dövlətinin" yaradılmasına doğru getməlidir. Bu baxımdan müasir Qərb ölkəlrində geniş yayılmış və bizim hazırkı keçid dövrümüz üçün də maraqlı ola biləcək "milli dövlət" konsepsiyasını göstərmək olar.

Milli dövlət – millətin müstəqil yaşamaq ehtiyaclarından yaranır. Ona görə də millət deyərkən, ölkənin heç də ayrı-ayrı adamları, fərdləri, ayrı-ayrı şəxsiyyətləri, klan və tayfaları, etnik birlikləri deyil, bütövlükdə əhalisi, ümumi xalqı nəzərdə

[144] Sanisteban S. Siyasət elminin əsasları. Bakı: Elm, 1992, s.63.





tutulur. Bu mənada Azərbaycan millətini respubilkada yaşayan aborigen xalqların vəhdəti kimi başa düşmək tələb olunur. Azərbaycanda ayrı-ayrı xalqlar (türk, talış, avar, ləzgi, tat, kürd, udi, xınalıq, lak, tabasaran və b. onlarla etnosların rəngarəngliyi) məskundur. Lakin əsrlər boyu müxtəlif sosial-siyasi, iqtisadi-mədəni proseslər nəticəsində onlar bir-biri ilə qaynayıb-qarışmış, qohum olmuş (qarışıq nikahlar və s.) və nəticədə eyni iqtisadi zonada, eyni dövlət sərhədləri daxilində, eyni mədəniyyət ünsürləri zəminində vahid xalq halına düşmüşlər. Azərbaycan dili bu prosesdə inteqrativ rol oynamış, onların hamısını birləşdirən ünsiyyət vasitəsi rolunu yerinə yetirmişdir. Özünün milli mənəvi sərvətləri ilə başqalarından fərqlənən yeni bir tarixi birliyə nail olmuşuq. İlk dəfə Azərbaycanın istiqlaliyyəti məsələsini ortaya atan M.Ə.Rəsulzadə və XX əsrin digər maarifçi mütəfəkkirləri də məsələni bu şəkildə anlamış və qiymətləndirmişlər.

Z.B.Göyalp "Türkçülüyün əsasları" kitabında türkçülüyü üç qismə bölür: 1. Türkiyəçilik; 2. Oğuzçuluq və türkmənçilik; 3. Turançılıq. Göründüyü kimi, Z.B.Göyalp türklərin dövlət mənafelərini daha üstün tutaraq birinci yerə türkçülüyü deyil, Türkiyəçiliyi qoyur. Bu ideyalar sonradan Kamalizmin təməl daşını təşkil etdi. Kamalizm ölkənin rəsmi ideologiyası kimi qəbul olunanda (1936-cı il) etatizm (dövlətçilik) birinci, türkçülük isə ikinci prinsip kimi qəbul olundu. M.K.Atatürk pantürkizmə laqeyd idi. O bilirdi ki, bu ideyalar gənc və yeni müstəqil Türkiyə üçün qəbulolunmazdır. Ona görə də M.K.Atatürkü ilk növbədə Türkiyənin istiqlaliyyəti məsələsi maraqlandırırdı. Bizim respublikada da bu məsələ Türkiyə ilə analogiya təşkil edə bilər. Biz də birinci yerə öz milli

mənafeyimizi, dövlətçilik ənənələrimizi, dövlət sərhədləri daxilində milli inkişafımızın və xalqın birliyinin təmin olunmasını qoymalıyıq.

Elə ölkələr vardır ki, orada milli ideologiyanı konstitusiya əvəz edir. Daha doğrusu, konstitusiya milli mənafelərin ideoloji-siyasi əsası olur. Hazırda bizdə də dövlətin ümumi mənafeyi, dövlətçiliyin saxlanılıb möhkəmləndirilməsi vəzifələri ümummilli vəzifələr kimi ön sıraya çəkilir. Vahid milli dövlət ideologiyasının yaradılması cəmiyyətdə mövcud ideoloji boşluqların doldurulması, milli həmrəyliyin əldə olunmasına, kadrların seçilib yerləşdirilməsində yerliçilik, tayfabazlıq, tərəfkeşlik, qohumbazlıq, etnotəəssübkeşlik və s. kimi neqativ halların aradan qaldırılmasına xidmət etmək məqsədini güdür. Milli ideologiyanın qəbul edilməsi işi, habelə azərbaycanlıların milli idealı olan azadlıq və müstəqilliyin, milli inkişafın təmin olunmasına, respublikanın ərazi bütövlüyünün qorunub saxlanılmasına, xarici təcavüzlərdən etibarlı müdafiə olunmasına və bu işdə etnik mənsubiyyətindən asılı olmayaraq, onun bütün vətəndaşlarının iştirakının təmin olunmasına xidmət edir. Milli ideologiya habelə azərbaycanlıların bir millət kimi formalaşmasının, azərbaycanlı şüurunun bütün vasitələrlə inkişaf etdirilməsinə, Azərbaycan Respublikasına mənsubluq, onun maddi və mənəvi sərvətlərinin tam və bərabərhüquqlu sahibi şüurunun möhkəmləndirilməsi işinə xidmət edir. Bu mənada milli ideologiyanın əsasında Konstitusiyanın özü durmalıdır. Vahid milli ideologiya ümumbəşəri mənəvi dəyərlərlə milli-mənəvi sərvətlərin vəhdətinə, Azərbaycanda məskunlaşmış bütün millət və xalqların bir amal uğrunda mübarizəsinə, onların tam hüquq bərabərliyinə, Azərbaycan





Vətəni üçün onların hamısının öz maddi və mənəvi məsuliyyətlərinin dərk olunmasına əsaslanır. Bu mənada Azərbaycan vətənçiliyi, dövlətçiliyi və xəlqiliyi ideyaları onun əsas qayəsini təşkil edir.

Professor N.Şəmsizadə Azərbaycan ideologiyasının üç təməl üzərində inkişaf etdiyini irəli sürür. Onun fikrincə, türkçülük, islamçılıq və azərbaycançılıq məfkurələri məhz bu ideologiyanın əsasını təşkil edir. O, bu haqda yazmışdır: «Bu üç təməl tarixən vəhdətdə olub, xalq bu vəhdəti həyat tərzində, düşüncəsində, arzusunda, nəğməsində, bayatısında – bir sözlə, ictimai və bədii təfəkküründə qoruyub saxlayıb, qırılmağa, ayrılmağa qoymayıb»[145].

SSRİ dağılandan sonra yerində milli dövlətlər, politologiya elminin dililə desək, etnokratik dövlətlər yaranmağa başladı. Bunu müəyyən mənada bizim respublikaya da şamil etmək olar. MDB məkanında yerləşən digər milli dövlətlər kimi Azərbaycan da problemlərin həllinə başladı. Amma 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Demokratik Respublikasında olduğu kimi, bu respublikada da digər MDB ölkələrindən fərqli olaraq, etnokratiyanı tam həyata keçirmək mümkün olmadı. 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Parlamenti əslində çoxmillətli bir tərkibə malik idi. Onun tərkibində azərbaycanlılarla yanaşı olaraq, ruslar, ermənilər, kürdlər, ləzgilər, talışlar, tatlar, almanlar və b. xalqların nümayəndələri də təmsil olunurdular. İndiki parlamentimiz və hökumətimiz də monomilli tərkibə malik deyil və onun tərkibində də respublikamızda yaşayan müxtəlif

[145] Şəmsizadə N. Azərbaycan ideologiyası.Bakı: Sabah. 1996, s.66.

xalqların nümayəndələri vardır[146]. Lakin fərq başqa şeydədir. Demokratik Respublika dövründə parlamentdə və hökumətdə yerliçilik, klançılıq, tayfabazlıq (traybolizm) əlamətləri nəinki yox idi, hətta belə bir işi görmək istəyənə o zaman sadəcə olaraq gülərdilər.

Milli dövlət quruculuğu yolunda ilk addımlarını atan respublikamızda dövlətçiliyin milli-nəzəri əsaslarının öyrənilməsi də yüksək aktuallıq kəsb edir. Elmi-nəzəri əsaslarının öyrənilməsi vacib olan belə anlayışlardan biri də dövlətin daxili və xarici siyasətinin əsasında duran, onun milli təhlükəsizliyinin mahiyyətini təşkil edən milli maraqlar məsələsidir.

Milli maraqların çoxdan bəri elmi kateqoriyalar bazasına daxil olduğu Qərbi Avropa və ABŞ-dan fərqli olaraq bizdə bu termin əsasən publisistikada istifadə olunub və yalnız son dövrlərdə intensiv nəzəri məna kəsb etməyə başlayıb. Ümumiyyətlə, bu anlayışın elmi məna kəsb etməsi isə XX əsrin 30-cu illərinə təsadüf edir. İlk dəfə 1935-ci ildə "milli maraqlar" anlayışı Oksford Sosial Elmlər Ensiklopediyasına daxil edilib və bununla da vətəndaşlıq hüququ alıb. Onun işlənib hazırlanması isə məşhur amerika teoloqu U.P.Nisbur və tarixçisi Ç.Birdin adı ilə bağlıdır. Milli maraqları bütün beynəlxalq siyasətin nüvəsi və açarı hesab edən P.Nisbur qeyd edirdi: "Milli özünəmaraq bir tərəfdən siyasi situasiyanın mahiyyətindən, digər tərəfdən insanın öz mahiyyətindən yaranır"[147]. Bu məsələyə diqqət II Dünya müharibəsindən

[146] Azərbaycan Xalq Cumhuriyyəti və milli müstəqilliyin ideya-siyasi problemləri. Bakı: Təknur, 2004, s.44-46.

[147] Гаджиев К.С. Геополитика. Министерство Образования, М.: Инфра-М,





sonra xüsusilə artdı. Onun ətrafında başlamış mübahisələri K.Morqentau "yeni nəhəng debatlar" adlandırmışdı. Məhz K.Morqentaunun 1948-ci ildə nəşr olunmuş "Milli maraqların müdafiəsi" kitabında bu konsepsiya daha geniş şəkildə təsvir edilmişdir. Milli maraqlar konsepsiyasının amerika elmində sonrakı inkişafı C.Kennak, Y.Lippman, K.Yolts, E.Ferniks, C.Rozenay və başqalarının adları ilə bağlıdır.

Anlayışın mahiyyətinə gəldikdə qeyd etmək lazımdır ki, milli maraqlar mücərrəd və subyektiv kateqoriyadır. Əvvəla qeyd edək ki, milli maraq anlayışındakı "milli" sözü öz klassik mənasında işlənmir. Belə ki, bu konkret olaraq hər hansı etnosu və ya milləti deyil, dövlətin vətəndaşlarının məcmuyunu ifadə edir. Ümumiyyətlə, beynəlmiləlçilik doktrinasına əsaslanan "sovet dövründə" "milli" sözü uzun müddət zərərli söz kimi qəbul olunmuşdur. Çünki bu terminin geniş yayılması çoxmillətli dövlətin daxilində separatçılıq tendensiyalarının yaranmasına şərait yarada bilərdi. Qeyd etmək lazımdır ki, müasir dünyanın sivil dövlətlərində "millətçilik" termini tədricən öz yerini "vətəndaşlığa" təhvil verməkdədir.

Bu mənada milli maraqlar anlayışı tez-tez dövlət maraqları və milli-dövlət maraqları sözləri ilə paralel olaraq (sinonim kimi) işlənir.

Milli maraqları cəmiyyətin üstün maraqlarına zidd olmamaq şərti ilə dövlətin milli ehtiyatların artırılmasını stimullaşdırmaq ehtiyacı, həmçinin milli təhlükəsizliyə qarşı hər hansı təhlükəyə əks təsiri kimi müəyyən etmək olar[148].

1997, c. 260

[148] Митрохин С.С. Национальный интерес как теоретическая проблема // Полис, 1997 №1, с. 34.

Milli maraqlar dövlətin xarici siyasəti ilə bilavasitə bağlıdır. Bu və ya digər dövlətin xarici siyasəti onun sosial-iqtisadi və ictimai-siyasi inkişafı, ölkənin geosiyası vəziyyəti, onun milli tarixi ənənələri, suverenlik və təhlükəsizliyinin təmini və s. determinatorlarla müəyyən olunur. Bütün bunlar isə ölkənin milli maraqlar konsepsiyasında öz əksini tapır. Xarici siyasət məsələlərinin milli maraqlar kontekstində təyin olunmasının vacibliyini əsaslandıran siyasi realizmin yaradıcılarından olan H.Morqentau yazır: "Əminliklə demək olar ki, universal mənəvi prinsiplərə istiqamətlənmiş və milli maraqları arxa plana keçirən xarici siyasət müasir siyasət və hərbinin şərtlərində milli özünəqəsd siyasətidir – həqiqi və ya potensial"[149].

Müasir politologiyada milli maraqların əsasında iqtisadi, sosiomədəni və geosiyasi amillər durur. Milli maraqların tipologiyasına gəldikdə müxtəlif politoloqlar onun bir neçə növünü göstərirlər. Bunlar içərisində əsas, ikinci dərəcəli və köklü milli maraqlar xüsusi qeyd olunur[150].

Əsas maraqlar millətin həyat fəaliyyətinin daha vacib aspektlərinin təmin olunması, onun hərbi gücü, sabit və dinamik iqtisadi inkişafı, vətəndaşların sosial müdafiəsi, təhsili və tərbiyəsi ilə əlaqədardır.

İkinci dərəcəli maraqlar millətin həyat fəaliyyətinin daha uzaq perspektivli inkişafının reallaşdırılması, ya da onun mövcudluğuna və inkişafına bilavasitə təsir etməyən, lakin

149 Гаджиев К.С. Геополитика. Министерство Образования, М.: Инфра-М, 1997, с.263.

150 Проскурин С.А. Национальная безопасность страны: сущнсть, структура, пути укрепления. М.: Наука, 1991, с.18.





gələcəkdə tarixin və siyasətin subyekti kimi ona zərər gətirə biləcək tərəfləri ilə bağlıdır. Buna misal olaraq, kosmik tədqiqatlarda, arxeoloji axtarışlarda və s. iştirakı göstərmək olar.

Köklü maraqlar isə millətin sosial orqanizmi, vahid sistem kimi mövcudluğu ilə bağlıdır. Buraya əsasən bütövlük, mədəni birlik, təhlükəsizlik məsələləri daxildir.

Müdrik filosofların dediyi kimi, dünyanı ideyalar idarə edir. Tarix boyu bu fikir dəfələrlə özünü təsdiq etmişdir. Müasir dünyada ideologiya məsələləri, xüsusilə də ideoloji mübarizə ciddi aktuallıq kəsb edir. Dünyada nə qədər dövlətlər, siyasi quruluşlar, sosial-iqtisadi fərqlər mövcuddursa, ideoloji fərqlər və mübarizələr olub, var və daim mövcud olacaqdır.

Yeni nəsillərin ümumbəşəri sivilizasiya səviyyəsində təlim-tərbiyəsi, millətlərin sərbəst, müstəqil və azad tərəqqisi, iqtisadi sahədə dünya bazarının və azad ticarətin təşkili siyasi sistemləri, ideologiya müxtəlifliklərinin mövcud olmasına baxmayaraq, ümumbəşəri maraqlar baxımından tənzimləməyə təhrik edir. Ona görə də müasir siyasi strukturlar öz işlərini yeni səviyyələrdə qurur, ideoloji mübarizə isə yeni forma və məna kəsb edir. İdeyalar, sonradan isə ideologiyalar öz-özünə, özbaşına yaranmır. Onlar hər bir millətin ayrı-ayrı adamları, ziyalıları tərəfindən yaradılır və xalqa aşılanır, milli mahiyyət kəsb edir və onu yaradan adamlara məxsusluqdan çıxıb, ümumxalq malına, sərvətinə çevrilir. Əvvəllər milli ideologiyalarda daha çox hərbi amillər çoxluq təşkil edirdi, indi əvvəlkilərdən fərqli olaraq hərbi üstünlüklər sərbəst və düşünülmüş iqtisadi amillərlə əvəz edilir. Texnoloji yarış hərbi sahədə deyil, iqtisadi sahədə ön plana keçirilir.

Bundan başqa mədəni və elmi əlaqələr yeni formada inkişaf etdirilir. Dünyəvi proseslər üfüqi və şaquli vəziyyətdə inkişaf etməkdədir. Ona görə də müasir ideoloji mübarizə öz çoxsahəliyi və çoxtərəfliyi ilə seçilir. Müasir ideologiyalarda iqtisadi faktor üstün rol oynasa da, hərbi, mədəni, siyasi və b. sahələr və tərəflər də özünə yer tapır. Konfrantasiya və qarşıdurmalar, barışmazlıqlar güclənsə də, ideologiya sahəsində güc tətbiq etmək artıq keçilmiş mərhələ hesab olunur. Ümumbəşəri prinsiplərə dayanan siyasətin genişlənməsi dünya siyasətinin özünün də bu məcraya yönəlməsini tələb edir. Lakin bu o demək deyil ki, bütün siyasi sistemlər arasında artıq fərqlər itib gedir, siyasi partiyalara və onların iddialarına son qoyulur. Xeyirli ideologiya yeni mərhələyə qədəm qoyur, ideologiya sahəsində daha sivilizasiyalı, daha təkmil, daha güclü metodlara keçid başlanır. Bu iqtisadi, siyasi, mədəni, elmi və ekoloji sahədə dünya dövlətlərinin qarşılıqlı əməkdaşlığını gerçəkləşdirir.

İdeologiya dedikdə, ilk növbədə yada burjua və sosialist ideologiyaları və onların qarşılıqlı mübarizəsi düşür. İdeologiya uzun müddət iki sistem arasında gedən mübarizəyə uyğun aparıldığına görə, çoxları indiki halda, yəni sosializm sisteminin iflasından sonra onu gərəksiz hesab edir. Məsələyə belə sadəlöhv münasibət kökündən yanlışdır. İdeologiyaya yalnız kapitalizmlə sosializm arasındakı qarşıdurmanın, yarışmanın vasitələri kimi baxmaq düzgün deyil. Hər bir dövlətin, hər bir siyasi qurumun, iqtisadi sistemin, elmin, mədəniyyətin siyasəti mövcuddur və bu siyasətə uyğun olan ideoloji fəaliyyət formalaşır və eyni zamanda ideologiya həmin sahələri tənzimləyir.





Milli ideologiya sahəsində əsaslı tədqiqat aparan professor N.Şəmsizadə belə bir qənaətə gəlmişdir ki, «ideologiya vahid vətən hissi ilə birləşmiş toplumların tarixi birgəyaşayışından və ictimai fəaliyyətindən törənən ideaların vəhdəti zəminində formalaşır. Ona görə də müasir ideologiya sivil ictimai sistemlərə qoşulmaq, onlarla birgəyaşayışa nail olmaq üçün özgünlüklə bərabər talebirgəlik əlamətlərini də ehtiva etməlidir. Çünki o, bütün elm və nəzəriyyələrdən fərqli olaraq bugünün izahı ilə kifayətlənmir, gələcəyin yaradılması haqqında doğru fikir sistemi kimi çıxış edir. Belə bir doğru fikir sistemi kökü Azərbaycan ərazisinin ilk sakininin təbiət qarşısında təəccübdən qidalanan, özündə Şərq və Qərb dəyərlərini sintez edən Azərbaycançılıq ideologiyasıdır»[151].

Göründüyü kimi, N.Şəmsizadə milli ideologiyamızın mahiyyətində Şərq və Qərb dəyərlərinin də durduğunu irəli sürür.

Həqiqətən, bu gün milli ideologiyanı sırf milli çərçivədə götürmək düzgün deyil. O, Azərbaycan ərazisində yaşayan bütün xalqların və millətlərin milli maraqlarını özündə əks etdirən, eyni zamanda Şərq və Qərb dəyərləri ilə çuğlaşmış müasir bir ideologiyadır ki, onun da bu gün cəmiyyətdə formalaşmış variantı kimi Azərbaycançılıq ideologiyasıdır.

Professor R.Mehdiyevə görə azərbaycançılıq milli ideologiyanın konkret spesifik formasıdır. Bu, Azərbaycan dövlətinin möhkəmlənməsi üçün vacib şərtdir[152].

Cəmiyyətin sosial, siyasi, mənəvi mühitində ideologiyanın

[151] Şəmsizadə N. Azərbaycan ideologiyası.Bakı: Sabah. 1996, s.5.
[152] Mehdiyev R.Ə. Azərbaycan: Qloballaşma dövrünün tələbləri. Bakı: XXI-Yeni Nəşrlər Evi,2005, s.114-115.

rolu misilsizdir. Sadəlövhlərin düşündükləri kimi ideologiya yalnız burjuaziyanın, yaxud kommunistlərin ideologiyası deyil. O, ümumi anlayışdan və ictimai münasibətlər sistemində cəmiyyətin siyasi, iqtisadi və digər strukturları ilə sıx bağlıdır. Müstəqil, suveren dövlətdə ideologiyanı xarakterizə edən cəhətlər aşağıdakılardır:

- ideologiya ictimai idrakın bir tərəfidir. Özündə ictimai, siyasi və iqtisadi münasibətləri, eyni zamanda dövlətin aparıcı qüvvələrinin maraqlarını birləşdirir;
- ideologiyanın əsas funksiyası xalqın maraqlarını ifadə etmək, xalqın fikrini elmi-nəzəri baxımdan öyrənmək, sistemləşdirmək və bunu dövlət idarəçiliyinə cəlb etməkdən ibarətdir;
- ideologiya ictimai proseslərlə birbaşa əlaqədar olduğundan, ictimai münasibətlərə fəal təsir göstərir;
- ideologiya xalqla əlaqədir, xalqla dövlətin birliyini təmin edən vasitədir, körpüdür;
- ideologiya dövlətin siyasi strukturu, növü, ictimai mülkiyyət formaları, iqtisadi münasibətləri, siyasi sistemi ilə əlaqədardır;
- ideologiyalar nə qədər sabit və uzunömürlü olsa da, dövrün təsiri ilə dəyişir, yeniləşir, bəzən zəifləyir, bəzən güclənir.

Azərbaycan yeni dövlət quruculuğunun demokratik başlanğıcını, müstəqilliyini, unitarlığını, müasirliyi elan etmişdir. Dövlətin əsas qanunu qəbul edilib, yuxarıda göstərilən bütün prinsiplər bu qanunda (konstitusiyada) əks olunub. Təbii ki, milli dövlətdə, demokratik dövlətdə ilk növbədə ideoloji iş sistemini qurmaq və onu dövlət maraqları baxımından həyata keçirmək lazımdır. Əslində hər şey var:





mexanizmlər sazlanmalı və işə düşməlidir. Burada dünya və Azərbaycan dövlətçiliyi təcrübəsindən faydalanmaq gərəkdir. Tarixi və milli ənənələr mütləq nəzərə alınmalıdır. Çünki tariximizdə milli ideologiyanın təşəkkülü uzun zaman və müasir dünya təcrübəsindən faydalanaraq özünü möhkəmlətməkdədir. Azərbaycan dövləti öz milli zəmininə əsaslanaraq ideologiyasını təkmilləşdirməli və fəaliyyətə keçirməlidir.

Yeni dövlət yeni qanunları ilə tanınır. Ölkə qanunlarla idarə olunur. Müharibə çətinliklərinə baxmayaraq, qanunvericilikdə dönüş yaranmalıdır.

Azərbaycan hazırda keçmiş ittifaqın problemlərini yaşamaq və həll etmək məcburiyyətindədir. Bütün kəskinliklərinə, mürəkkəbliyinə baxmayaraq Azərbaycan keçid dövründə sağlam siyasi bünövrə əsasında dövlət quruculuğu işini başa çatdırmalıdır. Lakin bu dövrdə xüsusilə siyasi ideologiya fəaliyyət göstərməlidir. Xalqa elan edilməlidir və əsaslandırılmalıdır ki, biz necə dövlət qururuq, yolumuz necə olacaq? Dövlət ideologiyasının ən başlıca, ən əsas funksiyalarından biri məhz xalqda dövlətinə inam yaratmaqdır. Xalq öz milli dövlətinə inanmalı, ona arxalanmalı, onun qanunlarından bəhrələnməli, o qanunlara əməl etməli, yaşatmalı və qorumalıdır. Lakin onu da unutmaq olmaz ki, qanun xalqın mənafeyinə uyğun olduqda sevilir, təqdir edilir və qorunur. Qanunların işləməsi dövlətin işləməsi deməkdir. Dövlət siyasətinin və ideologiyasının qurulmasında onun iqtisadi əsaslarının müəyyənləşməsi olduqca vacib şərtdir. Bazar iqtisadiyyatına keçid barədə sonsuz danışıqlardan konkret işə keçilməli, konkret iqtisadi konsepsiyanın işlənməsi və təsdiqi ilə cavab verilməlidir. Mülkiyyət formasının müəyyənləşdirilməsi

və özəlləşdirilmənin həyata keçirilməsi yolunda konkret işlər görülməlidir. Azərbaycanın dövlət və şəxsi mülkiyyətə əsaslanan iqtisadi strukturu müəyyənləşməlidir. Bir sözlə, dövlət ideologiyası dövlət mənafeyi ilə xalq mənafeyinin birliyinə xidmət etməlidir. Bu mənafelər birliyini təmin etməklə səmərəli iş aparılmalıdır. Hər şey başlanğıcını Əsas Qanundan Konstitusiyadan alır. İdeologiyanın sistemi fəaliyyət göstərən Əsas Qanuna görə qurulmalıdır. Dövlət ideologiyasının əsasını dövlətin daxili və xarici siyasəti təşkil edir. Dövlətin təhlükəsizliyi, sərhəd məsələləri, hərbi siyasət, iqtisadi-ticarət əlaqələri, qarşılıqlı kommunikasiya münasibətləri elmi və mədəni mübadilələr və s. vahid siyasi prinsiplərə uyğun qurulur və həyata keçirilir.

Bütün bunların tənzimlənməsi üçün qanunların icra mexanizmləri düzənlənir və işlənir. Əgər vahid prinsiplərə uyğun olan icra mexanizmləri qurulmasa, ideoloji bölmələr arasında əlaqəli iş təmin edilməsə, işin səmərəsindən danışmaq mümkün deyil. Dövlət mülkiyyəti, xalq mülkiyyəti, o cümlədən şəxsi mülkiyyət formaları, dövlət-vətəndaş münasibətləri, qarşılıqlı etibar və təminat məsələləri də vacib məsələdir. Vətəndaş öz dövlətinə arxalanmasa və dövlət vətəndaşın sərbəst, qanunlar çərçivəsində azad yaşama və çalışma imkanlarını təmin etməsə və onların keşiyində durmasa, onda dövlətlə vətəndaşı bağlayan qarşılıqlı etibar telləri getdikcə zəifləyir və hər iki tərəf arasında münasibətlərdə tarazlıq pozulur. (Məs: 1988-89-cu illərdə Azərbaycanda belə şərait mövcud idi). İctimai-siyasi mühitin sağlamlaşdırılması və stabilləşməsi, tarixi ənənələr – milli, dini psixologiyaya və dünya sivilizasiyasına uyğun təlim-tərbiyə sisteminin qurulması





da bu sahədə həlli vacib problemlərdəndir. İctimai mühit nə qədər sabit olarsa, ictimai münasibətlər də bir o qədər sağlam olar.

Azərbaycanın ictimai-siyasi vəziyyətindəki hazırkı mürəkkəb proses bir tərəfdən əvvəlki siyasi sistemin, ideologiya və dövlət strukturlarının dağılması və onun yenisi ilə əvəz olunması, geniş quruculuq işlərinin aparılması, digər tərəfdən isə müharibənin törətdiyi facıələr ilə əlaqədardır. Lakin buna baxmayaraq, ideoloji işi diqqətdən kənarda qoymaq olmaz. Bu dövrün ideologiyası keçid dövrünə və müharibə şəraitinə uyğunlaşdırılmalıdır.

Bu gün Azərbaycan yeni yolun başlanğıcındadır və bu yolda strateji məqsəd kimi biz Azərbaycanın yeni keyfiyyətini – regionda nəhəng intellektual mərkəz olduğunu müəyyənləşdirməliyik. Bu bizə imkan verəcək ki:

a) müstəmləkə altında olan bir çox dövlətlərə xas olan xammal bazası rolundan yaxa qurtaraq;

b) nəhəng beynəlxalq intellektual hakimiyyət mərkəzlərinə daxil ola bilək.

Hər şeydən əvvəl yeni müstəqillik qazanmış Azərbaycana, onun xarakterini, keçmişini, bu gününü və gələcəyini əks etdirən bir ideologiya lazımdır. Bu istiqamətdə onu qeyd etmək olar ki, Azərbaycan dinlərin, inamların və etiqadların, həmçinin mədəniyyətlərin, digər mənəvi dəyərlərinin sintezindən ibarət olub, böyük dünyamızın bütün atributlarını özündə birləşdirən bir dövlətdir.

Azərbaycanı, özünün coğrafi mövqeyinə görə dünyanın elə baş beyninə bənzətmək olar. Təsadüfi deyil ki, təbiətdə olan on bir iqlim tipindən doqquzu Azərbaycan ərazisində özünü

göstərir.

Bütün bunlar bizə deməyə əsas verir ki, Azərbaycan da, onun xalqı da dünya üçün açıq tiplidir və dünyanın elə bir güşəsi yoxdur ki, orada bizim mənəvi qohumlarımız olmasın.

Xalqımızı yalnız türk dünyasına, Rusiyaya, İrana, yaxud hər hansı başqa bir tərəfə bağlamağa cəhd edən siyasət qətiyyən yolverilməzdir. Çünki belə bir siyasət parçalanmaya, öz mənəviyyatımızın genetik strukturunun pozulmaşına, deməli, ölkənin dezinteqrasiyasına gətirib çıxarır.

Belə bir reallığa qarşı biz öz milli ideologiyamızı – Azərbaycançılığı irəli sürməliyik. Yanlız konkret və özünəməxsus ideologiyası olan xalqın milli dövləti ola bilər. Azərbaycançılığın mahiyyəti budur: qəbul olunmuş qanunvericiliyə müvafiq olaraq tarixən dövlət kimi qərarlaşan, bu ərazidə yaşayan hər bir adam irqindən, əqidəsindən, milliyyətindən asılı olmayaraq Azərbaycan vətəndaşı hesab olunur və demokratik dövlətin verdiyi bütün hüquqlarından istifadə edir.

Dünya dinlərinin və yüksək mədəniyyətinin mənəvi varisliyini özündə cəmləşdirən çoxmilyonlu sakinlərindən biri kimi azad respublikanın hər bir vətəndaşı öz "mən"ini, azərbaycanlı iftixarından ayırmır. Və hər kəs öz şəxsi mənafeyi naminə bu suverenliyə, mənəvi qohumluğa, dostluğa xələl gətirərsə, Azərbaycanın şərəfini alçaldarsa, ona Azərbaycanda yer yoxdur.

Tarix və bizim taleyimiz belə yaranıb. Azərbaycan bütün insanları, bütün mədəniyyətləri və dinləri özündə cəmləşdirən böyük dünyanın kiçik mikromodelidir. Elə onun intəhasız gözəlliyinin mahiyyəti də bundadır. Bu kiçik dünyada yaşayan





insanların öz təkrarsızlığı, bənzərsizliyi ilə unikal olan sakinlərin üstünlüyü də bununla səciyyələnir.

Xalqımızın ümummilli lideri Heydər Əliyev dünya azərbaycanlıların I qurultayındakı nitqində çox gözəl demişdir: «Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq. Azərbaycan dilinin inkişafı haqqında qəbul etdiyimiz geniş qərar məhz bu məqsədi daşıyır»[153].

Azərbaycançılıq Azərbaycan xalqının məfkurəsidir, məfkurəçilik bizim əsas siyasi xəttimizdir. Xalqımızın çoxəsrlik cəmiyyət təcrübələri, dini və əxlaqi ənənələrindən qidalanan bu məfkurəçiliyin birinci problemi, çıxış nöqtəsi — "özünə dönmək" (Bilgə xaqan kitabəsi), kökə qayıdış, başqa sözlə istiqlalçılıqdır.

Ümumi ideala çatmaq üçün, yəni insaniyyətə xidmət etmək üçün millətə özünü tanımaq lazımdır. «Bir millət özünü tanımazsa, özü ilə qeyrisinin fərqini düşünməyə qadir olmazsa, xüsusi məsləki dalınca yeriş edə bilməz. Bu yolda yeriş edə bilməzsə, ümummüqəddəs məslək nə olmağını da düşünməz» (N.Nərimanov). Tariximizin bugünkü mərhələsində istiqlalçılığın başlıca şərti ittihadçılıq – birlikçilikdədir.

"Hakim millət" fəlsəfəsi mövcud olan cəmiyyətdə istiqlal mümkün deyil. Türk qövmü heç zaman "hakim millət" təfəkkürü ilə yaşamayıb. Hətta hakim sinif ideologiyası

153 Əliyev H. Dünya azərbaycanlılarının I qurultayında Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi // Dirçəliş XXI əsr, 2003 № 70, s. 185 s.

təliminin banisi F.Engels 1853-cü ildə açıq-açığına etiraf edirdi: "Türkiyədə türkləri hakim sinif adlandırmaq çətindir". Bu sözlər eynən Azərbaycan türklərinə də aiddir, bizdə hakim millət təfəkkürü ümumi səciyyə kəsb etməyib. Biz milli xislət etibarilə bəşəriliyə meyl etmişik.

"Hakim millət" Avropa təfəkkürünün, xristian əxlaqının məhsuludur. "Hakim millət" fəlsəfəsinin ideoloji prinsipini istilaçılıq, işğalçılıq təşkil edir. Burada insana nifrət əsas yer tutur.

Azərbaycançılıq iqtisadi cəhətdən ona yaxın olan üç imperiya ilə münasibətlərin düzgün qurulmasına əsaslanır. Dünyanın təbii cəhətdən və zəngin diyari olan Odlar Yurdu — İran, Rusiya, Türkiyə sacayağının qapantısıdır. İllər boyu müqəddəs odun tüstüsü bizim, istisi onların olub. İqtisadi baxımdan azərbaycançılıq respublikanın xammal ixrac edən ölkəyə çevirməyi nəzərdə tutur. Respublikanı dünya texnologiyası ilə təmin etmək, hərbi sənaye kompleksi, özəl qurumlar, fermer-kəndli təsərrüfatları yaratmaq, respublika qanunları ilə tənzim olunan investisiya qoyuluşunu təmin etmək – milli ideologiyanın iqtisadi tələb və təminatlarındandır.

Cəmiyyəti istiqlaliyyətə, azadlığa çatdırmaqdan ötrü insan özü azad olmalıdır. Bunun üçün təfəkkürün gəncliyi, düşüncənin təravəti lazımdır. İnsan azadlığı ilk növbədə zəkanın, ehkamların büllur sarayından xilası, nəfisdən, tamahdan çirklənmiş "mən"indən sıyrılması sayəsində mümkündür. Əks halda dövlət əxlaqının formalaşdığı "pozğun" dövlət quruluşunda, satqın, acgöz və xudpəsənd adamlar yetişirlər.

Bizim üçün vətən, çörək, Quran qədər müqəddəs bir inam





olmalıdır: Bu, dövlətdir. Dövlətin strukturu milli ideologiyanı həyata keçirməyə imkan verən sistemə malik olmalıdır. Yalnız bu zaman dövlət xalqın nicatı və səadətinə nail ola bilər. Dövlətin siyasəti əxlaqdan kənarda məqbul sayıla bilməz. O, cəmiyyətin əxlaqını qorumalı və inkişaf etdirməlidir. Bu gün xalqın aydınlaşdırılmasına, cəmiyyətin durulmasına ciddi ehtiyac yaranıb. Həmin işi yalnız aydın ideya vasitəsilə icra etmək olar.

Tanınmış politoloq Rövşən Mustafayev azərbaycançılıq ideologiyasına bir qədər fərqli yanaşır. Onun fikrincə, «Azərbaycanlılıq insanların vətəndaşlıq mexanizmi vasitəsilə birləşmək cəhdlərinə, rəqabətin və etnoslararası münaqişələrin insanları bir-birinə yadlaşdırdığı, şəxsiyyətin cırlaşması prosesinin get-gedə kəskinləşdiyi bir şəraitdə onların kollektivə can atması, birləşmək istəyi kimi təbii arzularına əsaslanır. Həmin təlimin əsas iqtisadi postulatlarından biri - ayrı-ayrı fərdlərin şəxsi mənafelərinin birləşərək ümumdövlət mənafelərinə çevrildiyi cəmiyyətdə korporativ münasibətlərin inkişafı postulatı məhz bundan irəli gəlir»[154].

Azərbaycançılıq ünsiyyət birliyi məsələlərini də irəli sürür. Bu birlik vahid dil vasitəsilə həyata keçirilir. Azərbaycanda yaşayan, eyni dinə mənsub olanların vahid dili əsrlərlə birgəyaşayışa xidmət etmiş Azərbaycan dilidir. O, vətənçilik bağlantısı ilə həyat tərzi keçirən bütün etnik qrupların dilləri ilə paralel işlənmiş, qarşılıqlı zənginləşmə tarixi keçirmişdir. Azərbaycan dili ölkəmizin konstitusiya ilə təsbit olunmuş rəsmi dövlət dilidir. Bu ölkədə yaşayan bütün xalqlar və milli azlıqlar

[154] Mustafayev R. Fikir azaddır. Bakı: Təknur, 2000, s.107.

ona hörmətlə yanaşır. Azərbaycan türkləri hakim millət, Azərbaycan türkcəsi hakim dil deyil. Bu milli ideologiyanın – azərbaycançılığın ifadə tərzi, ümumi ünsiyyət vasitəsidir. Onu bilmək və qorumaq Azərbaycanda yaşayan bütün millətlərin vətəndaşlıq borcu və əxlaqi vəzifəsidir.

Sosializmin taleyi göstərdi ki, kütləni hərəkətə gətirmək, ona tarixi problemlərin həllini həvalə etmək, tarixin gedişini sapdırır və ləngidir. Leninin tarix qarşısında ən böyük səhvlərindən biri də azadlıq ideyası ilə kütləni ayağa qaldırması idi.

İşıqlı gələcək eyforiyası ilə psixoz vəziyyətinə gətirilmiş kütlə, azadlıq almaq üçün qan tökdü, mənəviyyatı və mədəniyyəti məhv etdi. Fəqət həmin azadlığı saxlaya bilmədi, çünki kütləyə azadlıq lazım deyildi. O, yalnız yaxşı geyinmək və qidalanmaq istəyirdi.

Sosializmin başlıca cəhəti, daha doğrusu, prinsipi “hər kəsdən qabiliyyətinə görə, hər kəs tələbatına görə” idi. Qəribəsi budur ki, heç vaxt qabiliyyətin meyarı olmayıb, tələbatın meyarı isə dəqiq hesablanırdı. Deməli, maddi tələbatın ödənilməsi sosializmdə azadlığın da, səadətin də meyarı idi. Fərdin özünü kütləyə qurban verməsi, ictimai marağın şəxsi maraqdan üstün tutulması sovet cəmiyyətinin-kütlə azadlığının başlıca məğlubiyyəti idi.

Bu gün ideologiya həyatdan çox ideyaların faciəsini yaşayır. Fəqət onun strateji məqsədləri sabahla yaşamaq, gələcəyi yaratmaqdan ibarətdir.

Azərbaycanda ölkənin tarixi inkişafının düzgün perspektivliyini verən milli ideologiyanın yaradılmasının həlledici şərtlərindən biri Şərqçiliyin və Qərbçiliyin vəhdətdə





nəzərə alınmasıdır. Bu vaxta qədər həm ictimai-fəlsəfi, həm də bədii-estetik düşüncədə Qərbçilik də, Şərqçilik də kosmopolitik səciyyə daşıyırdı. Əslində milli təfəkkürdə Şərqçiliyin sıxışdırılması ona marağı daha da artırıb. Qərbçiliyin, xüsusən də onun slavyan formasının intensiv təbliği, sosialist tipli bir dövlət kimi Azərbaycan üçün Şərqçiliyin yararsızlığını elan edən inkar üzərində qurulmuşdu. Ümumən mənəvi ehkamları ciddi bir mühafizəkarlıqla qoruyan xalqı müxtəlif təbliğat üsulları ilə təsir göstərmək cəhdi əks nəticə vermiş, Şərqə daxili-mənəvi bağlılığı qüvvətləndirmişdir. Əslində bu təbii-tarixi hərəkat olan İslam meydana gəldikdən sonra Şərqdə üç böyük dildə – fars, ərəb və türk dillərində mövcud olan elmi-bədii düşüncəni uğurla sintez edərək vahid ümummüsəlman mədəniyyəti konteksti yaratmışdır. Həmin kontekstdə XIV əsrdən milli özünəqayıdış başlansa da, əslində o, Azərbaycan üçün XIX əsrə – milli zəmində parçalanmaya və rus istilasına qədər davam edib. Bu vaxtdan etibarən Azərbaycan müstəqil dövlət olmadığına görə ölkənin dünya sivilizasiyasına qoşulması əlaməti olan Qərbçilik milli tərəqqiyə deyil, müstəmləkə məqsədlərinə xidmət etmişdir. Qərbçiliyin Azərbaycan ideologiyasına ilkin təsir forması başında tragik M.F.Axundovun dayandığı maarifçilik XX əsrdən başlayaraq həm mənəvi, həm də ictimai tərəqqiyə xidmət edib.

XX əsrin ilk iki onilliyində azərbaycançılığın formalaşması imperiyaçılığa qarşı müqavimət şəraitində baş vermişdir. Azərbaycan həyatının müxtəlif sahələrində H.Z.Tağıyev, Ə.Hüseynzadə, M.Ə.Rəsulzadə, C.Məmmədquluzadə, M.Ə.Sabir, Ü.Hacıbəyov, Ə.Ağayev, H.Cavid kimi şəxsiyyətlərin imperiyaçılığa qarşı birgə fəaliyyəti sayəsində

azərbaycanlığın ilkin mərhələsi yarandı.

Azərbaycan mədəniyyətində, ədəbiyyat və incəsənətdə bu ideya ötən yarım əsr ərzində zəif şəkildə olsa da, həmişə yaşayıb. Çünki bu zaman Azərbaycanda imperiyaçılığa, totalitarizmə xidmət edən sovet mədəniyyəti də mövcud olub Bu həqiqət xalq ədəbiyyatı və incəsənəti idi, çünki o, folklor üstündə köklənmiş, mif qaynağından su içmişdi.

Beləliklə, milli mədəniyyət milli ideologiyanın ideya mənbələrindən biridir. Belə bir faktı da nəzərdən qaçırmaq olmaz ki, mədəniyyət ideologiyanı həm dövlət, həm də kütlə üçün ictimai fəaliyyət amilinə çevirən milli psixologiyanın bədii ifadəsidir. O, milli psixologiya vasitəsilə idarəedici qüvvəyə – milli dövlət siyasətinə çevrilir. Ona görə də milli ideologiya formalaşdırılarkən etnosların psixologiyasını nəzərə almaq zəruridir. Mədəniyyətin ideologiya ilə əsas təmas nöqtəsi tariximizdir. İdeologiyada millilik və bəşəriliyin vəhdəti tarixçilik kontekstində mümkündür. Əslində milli ideologiya mədəniyyət vasitəsilə dünya siyasətinə qoşula bilər. Azərbaycanda yaşayan bütün etnosların bədii vəhdəti olan mədəniyyət ideologiyanın demokratizmini təmin edir.

Milli mədəniyyət dinlə bərabər cəmiyyətin zövqünü və mənəvi mühiti formalaşdıraraq, milli ideologiyanın ictimai fəaliyyətini tənzimləyir.

Milli ideologiyanın təməl daşlarından birini də islam dini və islam amili təşkil edir. Çünki islamın xalqımızın tarixində oynadığı rol onun bir tək dini dünyagörüşü olması ilə məhdudlaşmır. O, habelə həyat tərzinə və düşüncə tərzinə çevrilmişdir.

Azərbaycanda yaşayan milli azlıqların əksəriyyəti islam





dininə etiqad edənlərdir. Ona görə də islam bu xalqları vahid bir dövlətdə birləşdirən inteqrativ amildir. Bu mənada islam dini Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində milli ideologiyanın bir tərəfi kimi məlum məsələdir ki, mühüm əhəmiyyət kəsb edir.

Sosial münsibətlərin özünəməxsus forması kimi çıxış edən milli münasibətlər həmişə özünün mürəkkəbliyi ilə fərqlənmişdir. Onların inkişaf dinamikası daim polietnik dövlətlərin diqqət mərkəzində olub. Milli münasibətlərdə yaranan ziddiyyətlər, münaqişələr dərhal digər sahələrdə nüfuzetmə xüsusiyyətlərinə malikdirlər. Bu münasibətlər sistemində siyasi, sosial, iqtisadi və s. amillərlə yanaşı, mədəni, dini faktorlar da xüsusi rol oynayırlar.

Bu mənada milli münasibətlər sisteminin yeniləşməsi, onun hərtərəfli inkişafı cəmiyyətin mənəvi həyatından, mədəni səviyyəsindən, intellektual potensialından da asılıdır. Qeyd etmək lazımdır ki, millətin mədəni səviyyəsi olmadan yeni cəmiyyət quruculuğu, milli sferada demokratik prinsiplərin təsdiqi qeyri-mümkündür. Ümumiyyətlə mədəniyyətin elementləri ictimai şüuru, dünyagörüşü, mənəvi-əxlaqi prinsipləri formalaşdırır, insanların qarşılıqlı ünsiyyətdə olma bacarığını üzə çıxarır, insanda humanist idealları aşılayır. Bu mənada din həmişə cəmiyyətin mənəvi həyatının tərkib hissəsi kimi çıxış etmişdir və edir. Din, xüsusilə buddizm, xristianlıq, islam bəşəri dəyərlərin qorunub saxlanılmasında, insanların mənəvi paklığında saflığında, insani keyfiyyətlərin təbliğində müstəsna rol oynayır. Bu istiqamətdə islamın rolu əvəzsizdir. “Bütün insanlar Allah qarşısında bərabərdir” şüarını irəli sürən islam cəmiyyətdə ayrı-seçkiliyi rədd edir, insanlar arasında

humanizmi, xeyirxahlığı, ədaləti və digər yüksək keyfiyyətləri təbliğ edir. Ulu Tanrının yaratdığı insanlar arasında isə heç bir fərq yoxdur və ola da bilməz. Məhəmməd Peyğəmbərin fikrincə, hər bir insan elmə yiyələnməli, vətəni qarşısında xidmətlər göstərməli, borcunu yerinə yetirməlidir. Ümumiyyətlə, islam həmişə insanlar arasında sülhü, barışığı təbliğ etmişdir.

Çoxmillətli dövlətdə dinin öz yeri var. O, dövlət üçün münaqişələr ocağına, fəlakətlər mənbəyinə, yaxud insanların milli birliyinin quruculuğuna çevrilə bilər. Siyasi sabitliyə malik olmayan, gərginliklərlə dolu olan ölkədə din bir çox hallarda öz izini sosial sarsıntılarda, inqilablarda da qoyur. Belə hallarda din yalnız din kimi çıxış etmir, siyasi, sosial məzmun alır. İran inqilabı buna misaldır. Müasir dövrdə millətlərarası münasibətlər zəminində dini ziddiyyətlərin mövcudluğu cəmiyyətin möhkəmliyini, qüdrətini sarsıdır. Bu gün dünyanın hər yerində belə ziddiyyətlər var. Hindistanın Kəşmir əyalətində hindularla müsəlmanlar, Filippinin cənubunda xristianlarla morolar, İndoneziyada müsəlmanlar ilə xristianlar arasında və digər yerlərdə silahlı toqquşmalar baş verir. Dini zəmində baş verən konfiliktlər, dini separatizm meyllərinin güclənməsi ölkənin demokratikləşməsinə, sosial-iqtisadi problemlərin həll edilməsinə mane olur. Ölkənin inkişafı isə millətlər və xalqlar arasında dostluğu və birliyi, dini tolerantlığı tələb edir. Çoxmillətli cəmiyyətin əsas norması milli, irqi, dini mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşların hüquq bərabərliyi prinsipinin ardıcıl olaraq həyata keçirilməsidir. Polietnik demokratik dövlət kimi Azərbaycan Respublikası buna misaldır. Ərazisində müxtəlif millətlərin





nümayəndələrinin dinc yaşaması, respublikanın ictimai-siyasi həyatında fəal iştirak etmələri dini, milli tolerantlığı digər ölkələr üçün örnək ola bilər.

Qeyd etmək lazımdır ki, keçmiş SSRİ-də dinə laqeyd münasibət, ateizm, müqəddəs ziyarətgahların dağıdılması, tarixi abidələrin məhv edilməsi xalqların həyatında öz mənfi təsirini göstərmişdir.

Bürokratik ateist təbliğatı "şəxsiyyətin formalaşmasında tarix, mədəniyyət kimi dəyərlərin itməsi ilə əsl ziyalı mədəni şəxsiyyətin tərbiyəsi üçün zəruri olan klassik ənənələrin yoxa çıxması ilə nəticələndi"[155]. Deməli, mədəniyyətin deformasiyası cəmiyyətin, insanın deformasiyasına şərait yaratdı. Belə bir halda inkişafdan danışmağa dəyməz. Çünki cəmiyyətin siyasi, sosial iqtisadi, hərbi inkişaf zəncirində din "həlqəsi" qırılmışdır. R.Veber qeyd edirdi ki, mədəniyyətsiz kütlə asanlıqla lümpen rəhbərləri, inteligent bolşevikləri irəli çəkdi və qərinələrlə toplanılmış mədəniyyətə və dinə zərbə vurdu. İndi biz dinsizləşmiş və kasıb ölkəyə malikik[156]. İ.Kantın təbirincə desək, ölkə əhalisi mədəni ənənələrini mənimsəyən xalqa və mənəvi həyatdan kənarlaşan tör-töküntüyə bölünür[157]. Deməli, "xalqın təhsil səviyyəsi yüksək olmadan, elmin, yüksək əxlaqi prinsiplərin nüfuzu, ədəbiyyat və incəsənətin çiçəklənməsi olmadan biz əsl humanist və azad, xoşbəxt və mənəviyyatca zəngin insanlardan ibarət olan cəmiyyət qura

[155] Мехтиев Р.А. Межнациональные отношения: Анализ проблем и поиск решений. Баку: Азернешр, 1992, с.121.
[156] Yenə orada, s.122.
[157] Проскурин С.А. Национальная безопасность страны: сущность, структура, пути укрепления. М.: Наука, 1991, с.18.

bilmərik"[158]. Bizcə, din amilinin milli münasibətlər sistemində yeri və rolu burada aydın deyilmişdir.

Din millətin əlamətlərindən biridir. H.Zərdabi yazırdı ki, din də dil kimi millətin sütunlarından biridir. Din bütün tarixi dövrlərdə insan cəmiyyətinin mədəni səviyyəsini və sivilizasiyalılıq dərəcəsini müəyyən edən bir amildir. Qədim və antik dövrlərdə çoxallahlılıq mövcud idi və təbiətə qarşı müxtəlif inanclar var idi. İnsanlar müxtəlif sosiokultur mühitdə yaşadıqlarından din onları başqalarından fərqləndirən başlıca amil idi. Sonrakı illərdə millətlərin yaranıb inkişaf etməsi, ictimai-siyasi sferalarda milli amilin güclənməsi, "biz" və "onlar" anlayışını etnik sferaya keçirdi. Artıq bir millətin nümayəndələri digərini "özgə" kimi tanımağa başladılar. Halbuki bu anlayış əvvəllər özgə dinlərin nümayəndələrinə aid idi. Millətin yaranması isə bir dinin daxilində xeyli "özgələrin" yaranmasına səbəb oldu. Hətta elə də olurdu ki, bir etnosun tərkibində bir neçə müxtəlif dinə mənsub olanlar vahid bir millət kimi formalaşırdı. Dini müxtəliflik artıq milli birliyə xələl gətirmirdi. Belə ki, milli birlik uzun illər dini birliklə yanaşı yaşamağa başladı. Amma onlar daim qarşılıqlı əlaqədə və vəhdətdə oldular. Bu gün hər hansı bir milləti dindən ayrı təsəvvür etmək qeyri-mümkündür. Din içərisində yaşadığı millətin mədəniyyət sisteminə daxildir.

Millətin mənəvi həyatını dinsiz təsəvvür etmək olmaz. Məsələn, bugünkü azərbaycanlıların əksəriyyəti İslam dininə o qədər yaxından bağlıdır ki, İslam onlar üçün sadəcə bir din olmayıb, həm də həyat tərzidir. İslamın siyasi-mədəni təsiri

[158] Мехтиев Р.А. Межнациональные отношения: Анализ проблем и поиск решений. Баку: Азернешр, 1992, с.94.





adamları özünə cəlb edən bir qüvvəyə malikdir. Çünki o, özündə reallıqları əks etdirir. Dinlərin heç də hamısı islamdakı belə cazibə qüvvəsinə malik deyil. Ona görə də bugünkü imperialist – təcavüzkar və qərəzli qüvvələr İslama qarşı bir cəbhədə birləşməyə çalışır və qərəzli yollarla gedərək islamı saxtalaşdırır. Ona qarşı böhtanlar və iftiralar yağdırır, onu təməlçiliklə və fanatizmdə təqsirləndirirlər. Bugünkü antiislami qüvvələr islamın getdikcə artan nüfuzundan və gücündən qorxuya düşür, ona qarşı təxribatlar həyata keçirir, islama qarşı onun xaricindən, həm də daxilindən hücumlar edir, onun mövqelərini hər vasitə ilə zəiflətməyə çalışırlar. Azərbaycanda yaşayan yerli aborigen xalqların əksəriyyəti islam dininə etiqad edənlərdir. Doğrudur, müstəqil bir etnos olmaq etibarı ilə bu xalqların hər birinin özünəməxsus müəyyən milli problemləri və maraqları vardır. Amma bu gün İslam dini onları bir nöqtədə birləşdirən güclü amil kimi çıxış edir. Respublikada yaşayan millət və xalqların din seçmək azadlığı, istədiklri dinə etiqad etmək müstəqilliyi vardır.

Hər bir insan, eləcə də hər bir xalq istədiyi dinə etiqad edə bilər. Bundan istifadə edən yabançı ölkələr və qüvvələr özlərinin sosial missionerlik fəaliyyətini xeyli genişləndirmiş və əhalinin bugünkü iqtisadi çətinliklərindən öz mənafeləri istiqamətində bəhrələnməyə çalışmışlar. Hətta onların fəaliyyəti ona gətirib çıxardı ki, respublika əhalisi ciddi narahat olmağa başladı və bunu nəzərə alan Prezident H.Əliyev bu missioner təşkilatların qadağan olunması haqqında 1997-ci ilin yanvar ayında fərman imzaladı. Lakin həddini aşmış belə missioner təşkilatların bir çoxu hələ də öz fəaliyyətlərini gizlin olaraq davam etdirirlər.

Bu gün İslam dini Azərbaycan xalqının zəngin milli mənəvi sərvətləri xəzinəsinə daxildir. Onun qorunması, möhkəmləndirilməsi və təbliğ olunması milli birliyə gedən yolun tapılması deməkdir.

Polietnik tərkibə malik olan ökələrdə milli dövlətçiliyin inkişafı üçün dövlət dilinin rolu xüsusi yer tutur. Milli dövlətin yeritdiyi milli dil siyasəti də dövlətin mədəniyyət siyasəti qədər böyük əhəmiyyətə malikdir. Məlumdur ki, milli dil siyasəti – milli siyasətin tərkib hissəsidir. Öz məzmununa, istiqamətinə və aparılma metoduna görə milli dil siyasəti iki formada həyata keçirilir:

1) mütərəqqi dil siyasəti; 2) mürtəce dil siyasəti. Birinci halda onu konstruktiv dil siyasəti, ikinci halda isə destruktiv dil siyasəti də adlandırırlar.

Mütərəqqi yaxud konstruktiv dil siyasəti milli (xalq, tayfa və s.) dillərin azad və bərabər hüquq əsasında inkişafını nəzərdə tutur. Məsələn, bugünkü Azərbaycan Respublikasında yaradılmış dil siyasəti buna misal ola bilər. Respublika daxilində yaşayan bütün millətlərin və xalqların dilləri tam hüquq bərabərliyinə və sonsuz inkişaf imkanlarına malikdir. Böyüklüyündən və kiçikliyindən asılı olmayaraq, bütün xalqların dilləri konstitusiya ilə eynihüquqlu elan edilmişdir. Onlar dövlət dili olan Azərbaycan dililə eyni hüquqlara malikdirlər.

Mürtəce, yaxud destruktiv dil siyasəti isə əksinə, çoxmillətli cəmiyyətdə hakim dildən savayı yerdə qalan bütün dillərin inkişafını ləngidir. Azlıqda qalan xalqların dillərini ictimai həyat sahəsinə yaxın buraxmır, beləliklə də, bunlar tədricən funksional inkişaf baxımından geri qalırlar.





Dil siyasətinə təsir edən amillər də özlüyündə iki yerə ayrılırlar: 1) obyektiv amillər; 2) subyektiv amillər. Onlar mövcüd cəmiyyətdə dil siyasətini müxtəlif istiqamətlərə yönəldə bilirlər. Subyektiv amillərin səyilə dil siyasəti dil planlaşdırılması və yaxud dil proqnozlaşdırılması formalarında çıxış edə bilir. Stabil qrammatik quruluşa, zəngin lüğət fonduna malik olan milli dillər düzgün yeridilən dil siyasəti nəticəsində bu dillər üçün yaradılmış əlverişli şəraitdən istifadə edib sonsuz inkişaf imkanlarına malik olurlar. Düzgün aparılan dil planlaşdırılması və dil proqnozlaşdırılması isə yaxın və uzaq gələcəkdə milli dillərin inkişaf perspektivlərini müəyyənləşdirmək üçün yaxşı vasitədir.

Azərbaycan Respublikasının Prezidenti H.Əliyev cənabları 18 iyun 2001-ci ildə "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərman imzaladı. Fərmanı dilimizin inkişafı baxımından bir neçə cəhətdən şərh etməyə çalışaq.

Əvvəla, dillərin inkişafında funksional amillərin rolu və əhəmiyyəti məlumdur. Yəni hər hansı bir cəmiyyətdə dövlət və hakim siyasi elitanın yaratdığı siyasi xətt milli dilin inkişafına proqressiv və aqressiv təsir göstərə bilər. Yəni hakimiyyət orqanları milli dilin inkişafı üçün şərt ola bilər. Bu mənada prezident fərmanının əhəmiyyəti böyükdür. Latın qrafikasına keçid Azərbaycanın dünya mədəniyyətinə qovuşdurmaq, onu dünya miqyasında gedən müasir qloballaşma hərəkatına çuğlaşdırma məqsədini güdür.

İkinci bir tərəfdən hər hansı bir milli dilin ictimai funksiya yerinə yetirməsi, onun gələcəkdə də yaşaya bilməsi üçün mühüm sosial-siyasi faktordur. Bu mənada Azərbaycan milli dilinə dövlət tərəfindən müəyyən qarantiya verilir ki, bu da

onun sonrakı inkişafı qarşısında geniş perspektivlər açır.

Üçüncü, Azərbaycan unitar bir dövlətdir və Azərbaycan dili dövlət dili statusuna malikdir. 1995-ci ilin 12 noyabrında qəbul olunmuş Azərbaycan Respublikasının Əsas Qanunu dövlət dililə yanaşı, digər xalqların dillərinin azad fəaliyyət göstərilməsi istiqamətində mühüm müddəalar qəbul etmişdir.

Konstitusiya təsbit edir ki, irqindən və dinindən asılı olmayaraq bütün vətəndaşlar, onların dili və dini bərabər hüquqlara malikdir və onlar azad surətdə fəaliyyət göstərə bilir. Bu mənada konstitusiyanın təsdiqini 16 sentyabr 1992-ci il tarixli fərmanın hüquqi varisi hesab etmək olar. Çünki hər iki sənəddə irəli sürülən və əsaslandırılan müdəalar məntiqi surətdə biri digərini tamamlayır. Hər iki sənəddə respublikada yaşayan bütün xalqların onların dil və mədəniyyətinin azad və bərabər inkişaflarının hüquqi qarantiyası verilmişdir. Azərbaycan dili azlıqda qalan xalqların dillərini zənginləşdirmək və beynəlxalq arenaya çıxmaqda onlara kömək etmək baxımından da əhəmiyyətlidir.





# NƏTİCƏ

Azərbaycan çoxmillətli ölkədir və bu qəbildən bütün başqa dövlətlərdə olduğu kimi, burada da millətlərarası münasibət siyasi həyatımızın mühüm hissəsi, milli siyasət isə bütövlükdə dövlət siyasətinin üstün istiqamətlərindən biridir. Milli siyasət millətlər və xalqlar arasındakı qarşılıqlı münasibətlərin dövlətin müvafiq sənədlərində və qanunvericilik aktlarında təsbit olunmuş şəkildə tənzim olunması üzrə məqsədyönlü fəaliyyətidir. Onun konseptual müddəaları aşağıdakılardır: xalqların bərabərliyi, bütün xalqların mənafelərinə və sərvətlərinə qarşılıqlı hörmət, qarşılıqlı faydalı əməkdaşlıq, başqa xalqların mənafelərinin tapdanması hesabına öz xalqı üçün rifah yaratmağa çalışan adamların siyasi və əxlaqi mühakiməsi və s. Bundan əlavə, milli siyasət coğrafi amili, demoqrafik prosesləri, tarixi xüsusiyyətləri, müvafiq xalqın milli dövlətçilik ənənələrini, əhalinin milli tərkibini, yerli və gəlmə əhalinin nisbətini, dini mənsubiyyəti, milli psixologiyanın xüsusiyyətlərini, milli adətləri və s. nəzərə almalıdır.

Milli siyasətin mühüm funksiyası onun proqnoz və preventiv xarakterindədir. Burada əsas cəhət yalnız vaxtı çatmış ziddiyyətlərin qarşısını almaq deyil, həm də onları qabaqcadan görməkdir.

Milli siyasət dövlət siyasəti səviyyəsində həyata keçirilməli, daha doğrusu dövlətin siyasətinin çox mühüm tərkib hissələrindən birinə çevrilməlidir. Keçmiş SSRİ-ni əhatə etmiş böhran millətlərarası münasibətlər sahəsindən də yan keçməmişdir. Çoxmillətli cəmiyyətdə millətlərin inkişafı və onların yaxınlaşması, inteqrasiyaya ehtiyac duymaları bütün

dünyada baş verdiyi kimi, bu məkanda da baş vermişdir. Sosial, iqtisadi, hüquqi, ekoloji və demoqrafik problemlər nəticəsində azsaylı xalqların mövcudluq məsələləri mürəkkəb düyünə düşmüşdür. Milli inkişafın deformasiyası milli şüurda əksini tapır, inciklik hissi oyadır, xalqlar arasında münasibətlərdə gərginliyə gətirib çıxarırdı. Millətlərin sosial hissi durumunda kütləvi repressiyalar, xalqların öz ənənəvi yaşayış yerlərindən köçürülməsi dərin iz buraxmışdır.

Bu sahədə digər problemlər də mövcuddur: dilin və milli mədəniyyətin inkişafı, ənənələrin saxlanması məsələsi azsaylı xalqların mədəni həyatlarında daha gərgin situasiya yaratmışdır. XX əsrin əvvəlində demək olar ki, 90 azsaylı xalqın dili özlərinin rəsmi funksiyasını itirmiş, bu dillərin daşıyıcısı olan xalqlar dövlət statistikasından silinmişdi. İkinci "ana dili"nin zorla təsdiq edilməsi siyasəti milli mədəniyyətlərin inkişafına mənfi təsir göstərirdi. Milli dil yalnız folklorda, məişətdə reallaşdırıla bilirdi.

SSRİ dövründə milli siyasət sahəsində mövcud olan rəsmi ideoloji doktrina yalnız millətlərin inkişafının konfliktsiz modelindən ibarət idi. Millətlərarası münasibətlərdə anamaliyaların artımı onların əsasında duran mənəvi faktorların müəyyən edilməsini tələb edirdi. SSRİ zamanı dövlətin unitar quruluşunun möhkəmləndirilməsi məqsədi ilə ictimai şüurda milli və beynəlmiləl münasibətlərə xüsusi diqqət yetirilirdi. Mövcud konsepsiya milli şüuru, qeyri-milli beynəlmiləl şüurla əvəz edilməsini nəzərdə tuturdu. Bu konsepsiyanın yeridilməsi və süni surətdə təbliğ olunması millətlərarası münasibətlərdə gərginliyin artması ilə nəticələndi.

Müasir dövrdə postsovet məkanında cəmiyyət haqqındakı





təsəvvürlər dəyişilmişdir. SSRİ-nin dağılması, totalitar sistemin iflası insanların və eləcə də millətlərin azadlığa çıxmasına səbəb olmuşdur. Hazırda onlar müstəqil şəkildə düşünmək, sosial inkişaf problemləri ilə əlaqədar mühakimə yürütmək imkanlarını əldə etmişlər.

Milli münasibətlərin yenidən qurulması, onların harmonizasiyası xeyli miqdarda cəmiyyətin mənəvi simasından, onun mədəni səviyyəsindən, intellektual potensialından asılıdır. Xalqın mədəni səviyyəsini yüksəltmədən, milli sahədə demokratik prinsiplərin təsdiqi, bütövlükdə yeni cəmiyyətin yaradılması qeyri-mümkündür.

Monoqrafiyada azərbaycançılıq ideyasına əsaslanaraq Azərbaycanda milli-etnik və etnosiyasi proseslərin təhlili bizə aşağıdakı nəticələrə gəlməyə əsas verir:

1. Azərbaycan tarixin bütün mərhələlərində polietnik xüsusiyyəti ilə fərqlənən ərazilərdən biri olmuşdur. Azərbaycanda azsaylı xalqların, milli azlıqların və etnik qrupların ətraflı öyrənilməsi, onların dərindən araşdırılması və nəticələrin ictimaiyyətə çatdırılması respublikada yaşayan xalqlar haqqında yalan uydurmalara tutarlı cavab verməyə, milli-etnik zəmində problemlərin yaranmamasına, separatçılıq meyllərin qarşısının alınmasına kömək edər;

2. Torpaqlarımıza göz dikən, onu işğal edən erməni təcavüzkarları SSRİ dövründə milli siyasətin deformasiyasından istifadə edərək öz çirkin niyyətlərini həyata keçirməyə başlamış, Ermənistanın Azərbaycana qarşı bu işğalçılıq siyasəti indi də davam edir. Son on ildə dövlətçiliyimizin möhkəmlənməsi naminə aparılan məqsədyönlü və ardıcıl milli siyasət nəticəsində Azərbaycanda

yaşayan bütün millətlər, xalqlar, etnik azlıqlar vahid amal uğrunda birləşmişlər ki, bu da bundan sonra həmin siyasi kursun davam etdirilməsini zəruriliyini göstərir.

3. Onu da qeyd etməliyik ki, Azərbaycan bu ərazidə yaşayan azsaylı xalqların və etnik qrupların doğma vətənidir. Azərbaycanda milli azlıqların, azsaylı xalqların və etnik qrupların qorunub saxlanması, dövlətin onlara qarant olması respublikamızın ardıcıl surətdə məqsədyönlü milli siyasət yeridən demokratik bir dövlət olmasına əyani sübutdur.

4. Azərbaycan hökuməti bu gün respublikada yaşayan bütün xalqları, etnik qrupları, azsaylı xalqları özünün bərabərhüquqlu vətəndaşları sayır və onların dilinin, dininin, mədəniyyətlərinin qorunması, inkişaf etdirilməsi qayğısına qalır. Bu, 1995-ci il noyabrın 12-də ümumxalq referendumu yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası ilə təsdiq edilmişdir.

5. Dövlətimizin milli siyasətinin özünü göstərən mühüm əlamətlərindən biri də respublikamızda yaşayan azsaylı etnosların mədəniyyət mərkəzlərinin yaradılması, dövlət büdcəsindən bu mərkəzlərə maliyyə yardımının göstərilməsi ölkədə onların sərbəst fəaliyyəti üçün hər cür əlverişli şəraitin yaradılmasıdır.

6. Azərbaycanda insanların dininə, irqinə, dilinə görə deyil, vətəndaşlıq prinsipininə görə yaşamasına şərait yaradılmışdır. Dövlətin məqsədi respublikada demokratiyanın inkişafına, insan hüquqlarının qorunmasına və daha da inkişaf etdirilməsinə nail olmaq olmaqdan ibarətdir.

7. Millələtlərarası münasibətlərin xarakteri ölkənin siyasi sistemindən asılı olmaqla onun islahatı bu münasibətlərin





demokratikləşməsi amili kimi çıxış edir.

Tədqiqatın gedişində aparılan təhlillər və ümumiləşdirmələr aşağıdakı tövsiyələrin irəli sürülməsinə imkan verir:

- milli siyasət konkret zaman kəsiyinə nəzərdə tutulmaqla real yanaşmalara əsaslanmalı, cəmiyyətdə baş verən bütün keyfiyyət dəyişikliklərini nəzərə almalı və cəmiyyətin inkişafının hər bir yeni dönüş mərhələsində yeniləşdirilməlidir;

- dövlətin idarə olunmasında vacib rol oynayan parlamentin daimi komisiyaları milli münasibətlər sahəsində də qanunvericilik və nəzarət funksiyalarını birləşdirməli, milli-etnik proseslərin tənzimlənməsinin hüququ əsaslarını daimi inkişaf etdirilməsinə nail olmalıdırlar;

- milli dövlətçiliyin möhkəmləndirilməsi və inkişafında bütün millətlərin tərəqqisinə mane olan səbəblərin aradan qaldırılması daim diqqət mərkəzində saxlanılmalıdır;

- milli məsələnin həllinə yönələn müasir milli siyasətin elmi-nəzəri əsaslarının ümumi yeniləşmə konsepsiyası çərçivəsində işlənilməsi daha faydalı olardı;

- ölkədə vətəndaş cəmiyyətinin formalaşması prosesinin gedişində, milli maraqların reallaşmasında iştirak edən müstəqil institutlar və münasibətlər sisteminin inkişafı üçün geniş imkanlar yaradılmalıdır.

## ƏLAVƏLƏR

Azərbaycan Dövlət Mərkəzi Statistika Komitəsinin 1999-cu il əhalinin siyahıyaalınması ilə əlaqədar Respublika əhalisinin milli tərkibi, mənsubiyyəti və ana dili haqqında məlumat

Cədvəl 1.1.

### ƏHALİNİN MİLLİ TƏRKİBİ

| | Min nəfər | | |
|---|---|---|---|
| | 1979 | 1989 | 1999 |
| Əhalinin ümumi sayı. | 6026,5 | 7021,2 | 7953,4 |
| Azərbaycanlılar | 4708,8 | 5805,0 | 7205,5 |
| Ukraynalılar | 26,4 | 32,3 | 29,0 |
| Ruslar | 475,3 | 392,3 | 141,7 |
| Türklər | 7,9 | 17,7 | 43,4 |
| Tatarlar | 31,4 | 28,6 | 30,0 |
| Talışlar | -- | 21,2 | 76,8 |
| Ləzgilər | 158,1 | 171,4 | 178,0 |
| Yəhudilər | 35,5 | 30,8 | 8,9 |
| Kürdlər | 5,7 | 12,2 | 13,1 |
| Ermənilər | 475,5 | 390,5 | 120,7 |
| Avarlar | 36,0 | 44,1 | 50,9 |
| Gürcülər | 11,4 | 14,2 | 14,9 |
| Udilər | 5,8 | 6,1 | 4,1 |
| Saxurlar | 8,5 | 13,3 | 15,9 |
| Tatlar | -- | -- | 10,9 |
| Digər Millətlər | 40,2 | 41,5 | 9,6 |





Cədvəl 1.2

### ƏHALİNİN MİLLİ TƏRKİBİ (faizlə)

| | Əhalinin ümumi sayında %-lə | | |
|---|---|---|---|
| | 1979 | 1989 | 1999 |
| Cəmi əhali | 100 | 100 | 100 |
| Azərbaycanlılar | 78,1 | 82,7 | 90,6 |
| Ukraynalılar | 0,4 | 0,5 | 0,4 |
| Ruslar | 7,9 | 5,6 | 1,8 |
| Türklər | 0,1 | 0,2 | 0,5 |
| Tatarlar | 0,5 | 0,4 | 0,4 |
| Talışlar | -- | 0,3 | 1,0 |
| Ləzgilər | 2,6 | 2,4 | 2,2 |
| Yəhudilər | 0,6 | 0,4 | 0,1 |
| Kürdlər | 0,1 | 0,2 | 0,2 |
| Ermənilər | 7,9 | 5,6 | 1,5 |
| Avarlar | 0,6 | 0,6 | 0,6 |
| Gürcülər | 0,2 | 0,2 | 0,2 |
| Udilər | 0,1 | 0,1 | 0,05 |
| Saxurlar | 0,1 | 0,2 | 0,2 |
| Tatlar | -- | -- | 0,13 |
| Digər Millətlər | 0,8 | 0,6 | 0.12 |

Cədvəl 1.3

## ƏHALİNİN MİLLİ MƏNSUBİYYƏTİ VƏ ANA DİLİ

| | Sayı | Ana dili | |
|---|---|---|---|
| | | Öz millətinin dili | Başqa millətlərin dilləri |
| A | 1 | 2 | 3 |
| Ölkə üzrə əhali-cəmi O cümlədən: | 7953438 | 7873826 | 79612 |
| Azərbaycanlılar | 7205464 | 7181436 | 24028 |
| Ukraynalılar | 28984 | 9314 | 19670 |
| Ruslar | 141687 | 140660 | 1027 |
| Türklər | 43454 | 41100 | 2354 |
| Tatarlar | 30011 | 26005 | 4006 |
| Talışlar | 76841 | 68857 | 7984 |
| Ləzgilər | 178021 | 171027 | 6994 |
| Yəhudilər | 8916 | 7764 | 1152 |
| Kürdlər | 13075 | 6388 | 6687 |
| Ermənilər | 120745 | 120606 | 139 |
| Avarlar | 50871 | 49963 | 908 |
| Gürcülər | 14877 | 14577 | 300 |
| Udilər | 4152 | 4104 | 48 |
| Saxurlar | 15877 | 15772 | 105 |
| Tatlar | 10922 | 9069 | 1853 |
| Digər Millətlər | 9541 | 7184 | 2357 |





Cədvəl 1.4

## ƏHALİNİN MİLLİ MƏNSUBİYYƏTİ VƏ ANA DİLİ (FAİZLƏ)

| | Sayı | Ana dili | |
|---|---|---|---|
| | | Öz millətinin dili | Başqa millətlərin dilləri |
| A | 1 | 2 | 3 |
| Ölkə üzrə əhali-cəmi O cümlədən: | 100,0 | 99,0 | 1,0 |
| Azərbaycanlılar | 100,0 | 99,7 | 0,3 |
| Ukraynalılar | 100,0 | 32,1 | 67,9 |
| Ruslar | 100,0 | 99,3 | 0,7 |
| Türklər | 100,0 | 94,6 | 5,4 |
| Tatarlar | 100,0 | 86,7 | 13,3 |
| Talışlar | 100,0 | 89,6 | 10,4 |
| Ləzgilər | 100,0 | 96,1 | 3,9 |
| Yəhudilər | 100,0 | 87,1 | 12,9 |
| Kürdlər | 100,0 | 48,9 | 51,1 |
| Ermənilər | 100,0 | 99,9 | 0,1 |
| Avarlar | 100,0 | 98,2 | 1,8 |
| Gürcülər | 100,0 | 98,0 | 2,0 |
| Udilər | 100,0 | 98,8 | 1,2 |
| Saxurlar | 100,0 | 99,3 | 0,7 |
| Tatlar | 100,0 | 83,0 | 17,0 |
| Digər Millətlər | 100,0 | 75,3 | 24,7 |

## РЕЗЮМЕ

Монография посвящена весьма актуальной проблеме и является одним из первых исследований, посвященных комплексному изучению национально-этнических процессов, идущих в Азербайджане в современных условиях.

Работа состоит из введения, двух глав, заключения, списка использованной литературы и приложений.

Во введении раскрывается актуальность, степень разработанности проблемы, цель и задачи, научная новизна исследования, а также его практическое значение.

Первая глава посвящена изучению этнополитических процессов в современном азербайджанском обществе отмечается, что в многонациональном Азербайджане межнациональные отношения составляют одну из важнейших направлений государственной политики. При этом также рассматриваются особенности этнополитических процессов, идущих в стране после приобретения независимости, попытки наших противников противопоставить народы, живущие в Азербайджане, осуждаются вескими аргументами.

В работе проводится научный анализ целенаправленных мероприятий, проводимых правительством Азербайджана в области регулирования национально-этнических процессов в стране социальной динамики развития национального меньшинств, малочисленных народов и этнических групп.

Автор отмечает, что в Азербайджане для большинства этносов наряду с религиозной, языковой, нравственной и территориальной общностью, также существуют принцип культурно-психологического, политико-геополитического сходства и близости, что, в общем, говорит о единстве народов Азербайджана.

Во второй главе исследуются политико-юридические аспекты





регулирования национально-этнических отношений, основные направления политики Азербайджанского государства в этой сфере.

В работе отмечается, что все народности являются полноправными гражданами государства, в котором они живут. Автор, ссылаясь на положения международных документов, обосновывает недопустимость нарушения территориальной целостности страны во имя реализации права национальных меньшинств на самостоятельное развитие и показывает, что это возможно только лишь в рамках единого государства.

В данной главе анализируются конфликтные ситуации в национально-этнических процессах, предлагаются пути их разрешения, а также изучается содержание идеи национальной государственности через призму обеспечение национальных интересов.

В заключении автор формулирует обобщения и предложения, приходит к такому выводу, что успешно развивающийся по пути строительства демократического, правового государства Азербайджан является неделимой Родиной живущих здесь всех народов.

## SUMMARY

The monography proves to be distinguished with its scientific novelty and actuality as it is one of the initial researches directed to the present- day national and ethnic processes in Azerbaijan.

The work consists of an introduction, two chapters and conclusion.

The introduction deals with the actuality of the subject, aims and tasks of the research, scientific novelty and practical value of the work as well as its historical significance.

The first chapter is devoted to the essence and content of ethnopolitical processes in modern Azerbaijani society. It holds the view that Azerbaijan is a multinational state and therefore international relations are one of the important directions of state policy. The chapter also dwells upon the ongoing ethno-political processes in the country since our Republic gained independence and neatly condemns the attempts of opposing figures made at confronting the nations that live in Azerbaijan.

The settlement of national and ethnic problems and scientific analysis of the goal-directed actions taken by the government to establish a civil state are also reflected in this chapter.

The author mentions the principal based on cultural, psychological, political and geopolitical similarity and affinity alongside with the community of religions, languages and morality as well as territorial integrity which bodes well for the unity of nations in our Republic.

The second chapter studies the political and legal aspects in the regulation of national and ethnic relations.

The chapter also asserts that all nations should enjoy equal citizenship in the country where they live and ethnic minorities can never be isolated from the single state. The author's explanation is closely connected with the UN Resolution and Declaration of Human Rights.

The work also touches upon the ideas of national statehood. The ideas of national statehood are generalized and constituted on the basis of the single goal-directed struggle of nations which form the government.

The conclusion sums up the main views of the scientific work and maintains that Azerbaijan is the indivisible motherland of all nations living here.





## KİTABA VERİLƏN RƏYLƏR

**İbrahim Məmməd oğlu Ağayevin «Müasir şəraitdə Azərbaycanda milli-etnik proseslər» mövzusunda kitabına**

### R Ə Y

Monoqrafiya Azərbaycanda milli-etnik proseslərin gedişinə, etnosiyasi proseslərin mahiyyətinə, milli-etnik proseslərdə münaqişəli vəziyyətlər və onların həlli yollarına, milli dövlətçilik ideyasının bu proseslərdə ön plana çəkilməsinə həsr olunmuş mövzudur. Ümumiyyətlə, müəllif Azərbaycanda yaşayan milli azlıqları, azsaylı xalqları və etnik qrupları hərtərəfli tədqiq etmişdir.

Monoqrafiyanın giriş hissəsində problemin aktuallığı əsaslandırılmış, məqsəd və vəzifələri sadalanmış, elmi yeniliyi qeyd edilmişdir. Elmi işin birinci fəslində müəllif etnosiyasi proseslərin mahiyyətini etnosların bir çox müəlliflər istinadən təhlilini vermiş və bu sahədə öz elmi mövqeyini ortaya qoymuşdur. Fəslin ikinci paraqrafında isə müəllif etnosiyasi proseslərin səciyyəvi cəhətlərini araşdırmış və belə qərara gəlmişdir ki, milli-etnik problemlərə biganə yanaşmaq gələcəkdə qarşısı alınmaz həddə çata bilər. Ona görə də belə hallara diqqətlə yanaşılmalı və beynəlxalq normalara uyğun tədbirlərə əl atılmalıdır.

Müəllif həmçinin göstərir ki, ümummilli liderimiz H.Əliyevin bünövrəsini qoyduğu milli siyasət millətlərarası münasibətlərdə neqativ halların olmasına imkan vermir.

Birinci fəslin üçüncü paraqrafında isə milli azlıqların və azsaylı xalqların inkişaflarının sosial dinamikasını verən müəllif Azərbaycanda yaşayan etnosların məskunlaşması və bugünkü vəziyyəti haqqında tutarlı elmi təhlillər vermiş və bu qənaətə gəlmişdir ki, dil, din, mədəni-psixoloji, təsərrüfat-məişət, tale

ümumilliyi, siyasi-geopolitik baxımdan bu etnoslar yekdildir və bu da xalqlarda ümumi dəyərləri birlikdə inkişaf etdirib qorumaq zərurəti yaratmışdır.

Kitabın ikinci fəslində milli-etnik problemlərin siyasi-hüquqi aspektləri, milli-etnik proseslərdə münaqişəli vəziyyətlər, onların aradan qaldırılması yolları, milli dövlətçilik ideyası ətraflı təhlil edilmişdir.

Kitabın nəticə hissəsinin təkliflərlə zəngin olması mövzunun elmi və praktik dəyərini artırır. Bu hissədə müəllif belə qənaətə gəlir ki, Azərbaycan xalqı heç bir milli ayrı-seçkiliyə yol verməmiş, həm daxildə, həm də respublikadan kənarda qısasçılıq ruhunda işlər aparmamış, belə şeyləri özünə rəva bilməmişdir. Xalqımız bu gün də bu əqidə və ideya ilə yaşayır. Belə olmasaydı Ermənistanda bir nəfərdə olsun azərbaycanlı qalmadığı halda, Azərbaycanda yüz mindən çox erməni yaşamazdı. Azərbaycan xalqının başına gətirilən bəlalara baxmayaraq biz humanist mövqe tutmuşuq. İnsan hüquqlarının qorunması haqda dünyada qəbul edilmiş qayda-qanuna riayət edirik.

Monoqrafiyada qoyulan məsələlər konkret şəkildə dəlillərə əsaslanaraq ardıcıllıqla təhlil olunur. Müəllif monoqrafiyada toxunduğu məsələlərin hərtərəfli təhlili ilə yanaşı mövcud problemlərin həllinə yönələn təkliflərlə də çıxış edir. Bu mənada müəllifin işini yüksək qiymətləndirmək olar.

Monoqrafiyanı çapa məsləhət görürəm.

**Fəlsəfə elmləri doktoru,**
**professor** **V.Həbiboğlu**





**İbrahim Məhəmməd oğlu Ağayevin «Müasir şəraitdə Azərbaycanda milli-etnik proseslər» mövzusunda kitabına**

## R Ə Y

Müasir dövürdə milli-etnik proses bəşəriyyəti narahat edən ən aktual və qlobal problemlərdən biridir. Bu baxımdan polietnik vəziyyəti ilə seçilən Azərbaycan Respublikasında problemin hərtərəfli öyrənilib rasional şəkildə həyata tətbiq edilməsi xüsusi əhəmiyyət kəsb edir.

Bildiyimiz kimi, keçmiş SSRİ ərazisində və eləcə də dünyanın bir sıra regionlarında milli münaqişə zəminində milyonlarla insan evsiz-eşiksiz qalmış, məcburi köçkün və qaçqın vəziyyətinə düşmüşdür. Bu mənada etnosiyası proseslərin dərindən elmi şəkildə öyrənilməsi, onların politoloyi cəhətdən qarşılıqlı əlaqələrinin aşkara çıxarılması etnopolitologiya elminin ən aktual problemlərindəndir. Məhz İ.Ağayev də tədqiqat işini bu problemlərin həllinə yönəltmişdir.

Tədqiqatın əsas məqsədi milli etnik proseslərin, milli azlıqların və azsaylı xalqarın inkişafının sosial dinamikasının, bu proseslərin sosial-hüquqi aspektlərinin tədqiq edilməsindən ibarətdir.

Bu məqsədə çatmaq üçün müəllif seçdiyi mövzuya aid elmi ədəbiyyata istinad edərək, digər müəlliflərin fikrinə münasibət bildirmişdir. Mənbləşünaslıq bazası elmi işin əsasını təşkil edir.

Giriş hissəsində elmi işin aktuallığı, işlənmə dərəcəsi, məqsəd və vəzifələri, metodoloji bazası, mənbəşünaslıq bazası haqqında məlumat verilir, monoqrafiyanın elmi yenilikləri aydın şəkildə göstərilir.

Elmi işdə iki əsas problem araşdırılır.

I. Azərbaycanda etnosiyasi proseslər və onların səciyyəvi xüsusiyyətləri.

2. Milli-etnik problemlərin nizamlanmasının siyasi-hüquqi aspektləri.

Monoqrfiyanın birinci fəslində Azərbaycanda etnosiyasi proseslər və onların səciyyəvi xüsusiyyətləri elmi əsaslarla təhlil edilir. İlk növbədə etnos anlayışına, onun mahiyyətinə nəzər salınır, alimlərin tədqiqatlarına istinad edilərək etnosun mahiyyəti aydınlaşdırılır.

Müəllif həmçinin Azərbaycanda etnosiyasi proseslərin xarakterik xüsusiyyətlərin də tədqiqata cəlb etmiş və belə qənaətə gəlmişdir ki, xalqların və millətlərin sosial-iqtisadi, sosial-mədəni həyatında yığılıb qalmış problemləri öyrənmədən, milli xüsusiyyətləri nəzərə almadan, millətlərarası münasibətləri gərginləşdirən səbəbləri dərindən araşdırmadan, ümumiləşdirib obyektiv nəticə çıxarmadan milli münasibətlərin tənzimlənməsini və inkişafını təmin etmək çətindir. Müəllif həmçinin Azərbaycanda milli azlıqların və azsaylı xalqların inkişafının sosial dinamikası və xarakterik xüsusiyyətlərini araşdıraraq belə nəticəyə gəlir ki, respublikamızda yaşayan azsaylı xalqlar və milli azlıqlar Azərbaycan dilindən ünsiyyət vasitəsi kimi istifadə edir. Təsərrüfat-məişət imkanları baxımından bu xalqların ümumi cəhətləri inkişaf etmiş, tarixi tale ümumiliyi onları bir-birinə yaxınlaşdırmış və qarşılarına vahid Vətəni birlikdə müdafiə etmək kimi müqəddəs bir vəzifə qoymuşdur.

Milli-etnik problemlərin nizamlanmasının siyasi-hüquqi aspektləri adlı ikinci fəsildə müəllif milli-etnik problemlərin nizamlanmasnın siyasi-hüquqi aspektlərini araşdırmışdır. Tədqiqatçı bu fəsildə milli azlıqların hüquq və azadlıqlarının təmin olunması xüsusiyyətlərini araşdırarkən bu qənaətə gəlmişdir ki, «Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Müqavilə»də bütün xalqların öz müqəddəratını təyin etmək hüququna malik olmasının göstərilməsi heç də o demək deyil ki, başqa xalqın, millətin ərazisinə tarixin müəyyən mərhələsində köçürülərək məskunlaşdırılmış hər hansı millətin sonradan həmin xalqa, yaxud millətə qarşı öz millətçilik ambisiyasını diqtə etsin. Burada, əlbəttə, erməni millətçiliyi nəzərdə tutulur. Bu fəsildə həmçinin milli azlıqların qorunmasına sahəsində Azərbaycan dövlətinin siyasi kursu da açıqlanmışdır.





İkinci fəsildə milli-etnik proseslərdə münaqişəli vəziyyətlər və onların aradan qaldırılması yolları da tədqiqata cəlb edilmiş, milli-etnik münaqişələrin tiplərinə və müxtəlif inkişaf fazalarına elmi şəkildə toxunulmuşdur.

Kitabda milli dövlətçilik ideyası, milli ideologiya məsələlərinə geniş yer verilmiş, azərbaycançılıq ön plana çəkilmiş və qeyd edilmişdir ki, azərbaycançılıq milli ideologiyanın konkret spesifik formasıdır və Azərbaycan dövlətinin möhkəmlənməsi üçün vacib şərtdir.

Kitabın nəticə hissəsində müəllif ümumiləşdirmələr apararaq, təhlil etdiyi əsas məsələlərə dair konkret təkliflər irəli sürmüşdür. Kitabın əlavələr hissəsində Azərbaycan əhalisinin milli tərkibi, milli mənsubiyyəti və ana dili barədə verilmiş cədvəllər də tədqiqatın əhəmiyyətini dolğunlaşdırır.

Tədqiqat işinin elmi və praktiki əhəmiyyətini nəzərə alaraq onun çap olunmasını məsləhət bilirəm.

**Fəlsəfə elmləri doktoru,**
**professor** **C.Məmmədov**

## АВТОР МОНОГРАФИИ

Ибрагим Мамед оглы Агаев родился в 1964 году в селе Хыл Масаллинского района.

1982-87 годах окончил с отличием Сельскохозяйственную Академию Азербайджана.

И.М.Агаев окончил Бакинский Институт Социального Управления и Политологии (ныне Академия Государственного Управления при Президенте Азербайджанской Республики). Завершил факультет «Политологии», он освоил специальность политолога.

Он обучался в Институте Национальных Отношений Академии Наук Азербайджана и работал там в аспирантуре отдела «Этнополитические процессы» в качестве научного сотрудника. И.М.Агаев является автором многочисленных статей, в том числе таких, как «Об изучении проблем малочисленных народов Азербайджана», «О генезисе и разнообразии национально-этнических народностей», «Основные свойства, характеризующие современные этнополитические процессы», а также научной работы «Субэтнические объединение в азербайджанском обществе: русская диаспора».

В настоящее время И.М.Агаев работает в Институте Философии и Политико-Юридических Исследований Академии Наук Азербайджана в отделе «Политология». Он защитил кандидатскую диссертацию в Академии Государственного Управления при Президенте Азербайджанской Республики.

Семейный, имеет двух детей.





## AUTHOR OF THE MONOGRAPH

Ibrahim Agayev was born in the village Xil of Masalli region in 1964.

He graduated from the Agricultural Academy of Azerbaijan with distinction in 1982-87.

I.M.Agayev has left the Baku Institute Social Administration and Politology (nowadays the Academy of Public Administration under the President of the Republic of Azerbaijan). He has finished faculty "politology" and has mastered a speciality "politologist".

He trained at the National Relations Institute of Academy of Sciences of Azerbaijan and worked there in the post graduate couse of the department "Ethnopolitical processes" as a scientific employee.

I.M.Agayev is the author of numerous articles, including such as "About study of problems" of the small number Nations of Azerbaijan, "About genesis and variely national ethnic peoples", "the basic properties describing modern etnopolitical processes" and also scientific work "the subethnic assosiation of the Russian diaspora in the Azerbaijan society"

Now I.M.Agayev works at the Institute of Philosophy and Political-Low Researches of Academy of Sciences ofAzerbaijan in a department "politology". He has defended the condidate dissertation in the Academy of Public Administration under the President of the Republic of Azerbaijan.

Married, has two children.

**İbrahim Məmməd oğlu AĞAYEV**

# MÜASİR ŞƏRAİTDƏ AZƏRBAYCANDA MİLLİ-ETNİK PROSESLƏR

---

**Ибрагим Мамед оглы АГАЕВ**

# НАЦИОНАЛЬНО-ЭТНИЧЕСКИЕ ПРОЦЕССЫ В АЗЕРБАЙДЖАНЕ В СОВРЕМЕННЫХ УСЛОВИЯХ

---

**Ibrahim Mammad oglu AGAYEV**

# NATIONAL-ETHNIC PROCESSES IN AZERBAIJAN IN MODERN CONDITION

*Üz qabığındakı şəkillər. «Giriş»dəki epiqraf tədqiqatçı-alim, professor Qəmərşah Cavadovun «Azərbaycanın azsaylı xalqları və milli azlıqları» (Tarix və müasirlik, Bakı, «Elm», 2000) kitabından götürülmüşdür.*


Naşir: ***Rafiq Xan-Sayad oğlu***
Korrektor: ***Şəhla Səfərova***
Texniki redaktor: ***Seyfəddin Babayev***
Dizaynerlər: ***İradə Əhmədova, Ceyhun Əliyev***

---

Yığılmağa verilmişdir: 15.06.2006
Çapa imzalanmışdır: 03.07.2006
Tiraj 500; şərti çap vərəqi 11,25
Sifariş № 218
«MBM» mətbəəsində
çap olunmuşdur